# MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ
# İQTİSADİYYAT VƏ İDARƏETMƏ FAKÜLTƏSİ

## MİLLİ İQTİSADİYYAT VƏ AYRI-AYRI SEKTORLAR ÜZRƏ STRATEJİ YOL XƏRİTƏSİ: REALLIQLAR VƏ HƏDƏFLƏR
**Elmı konfransın materıalları**

## STRATEGIC ROAD MAPS FOR THE NATIONAL ECONOMY AND DIFFERENT ECONOMIC SECTORS: REALITIES AND GOALS
**Materials of the scientific conference**

## СТРАТЕГИЧЕСКАЯ ДОРОЖНАЯ КАРТА НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ И РАЗЛИЧНЫХ ЕЕ СЕКТОРОВ: РЕАЛЬНОСТИ И ЦЕЛИ
**Материалы научной конференции**




**12-13 may 2017-ci il**

**MİNGƏÇEVİR – 2017**



*İnkişaf – məqsədimizdir.*

***İLHAM ƏLIYEV***

*Azərbaycan Respublikasının Prezidenti*

**MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ**
**İQTİSADİYYAT VƏ İDARƏETMƏ FAKÜLTƏSİ**

# "MİLLİ İQTİSADİYYAT VƏ AYRI-AYRI SEKTORLAR ÜZRƏ STRATEJİ YOL XƏRİTƏSİ: REALLIQLAR VƏ HƏDƏFLƏR"

**mövzusunda**

**ELMİ KONFRANSININ**
**M A T E R İ A L L A R I**
**12-13 may 2017-ci il**

Elmi konfrans Mingəçevir Dövlət Universitetinin rektorunun 05 nömrəli 09.01.2017-ci il tarixli əmri ilə təsdiq edilmiş Mingəçevir Dövlət Universitetində fəaliyyət göstərən fakültələrdə 2017-ci ildə keçiriləcək elmi konfransların siyahısı əsasında keçirilmişdir.

**MİNGƏÇEVİR – 2017**

| | |
|---|---|
| **Elmi redaksiya heyəti:** | **Əyyubov V.S. i.e.d., prof., Qədimli N.A. i.f.d., dos., Əliyev R.R. tex.f.d., dos., Hüseynova E.Y. i.f.d., dos., Musayeva C.Q. i.f.d., İsgəndərov F.A. i.f.d., dos.** |

| | |
|---|---|
| **İşçi qrupu:** | **Hüseynova E.Y. i.f.d., dos., Musayeva C.Q. i.f.d., İsgəndərov F.A. i.f.d., dos., Tağıyev A.M., Şəfaqətov G.M., Hacıyeva E.Z., Rəsulov Z.Y.** |

**© Mingəçevir Dövlət Universiteti, İqtisadiyyat və idarəetmə fakültəsi, "Milli iqtisadiyyat və ayrı-ayrı sektorlar üzrə strateji yol xəritəsi: reallıqlar və hədəflər" mövzusunda elmi konfransın materialları, Mingəçevir, 2017, 76 səh.**

**Konfransın təşkilat komitəsi:**

| | | |
|---|---|---|
| **Musayeva C.Q.** | – | **Sədr, İqtisadiyyat kafedrasının müdiri, i.f.d.** |
| **Əyyubov V.S.** | – | **İqtisadiyyat kafedrasının professoru, i.e.d.** |
| **Qədimli N.A.** | – | **İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, i.f.d., dos.** |
| **Hüseynova E.Y.** | – | **Sənayenin təşkili və idarəetmə kafedrasının müdiri, i.f.d., dos.** |
| **Əliyev R.R.** | – | **Sənayenin təşkili və idarəetmə kafedrasının dosenti, tex.f.d.** |
| **İsgəndərov F.Ə.** | – | **Sənayenin təşkili və idarəetmə kafedrasının dosenti, i.f.d.** |
| **Tağıyev A.M.** | – | **İqtisadiyyat kafedrasının baş müəllimi** |
| **Şəfaqətov G.M.** | – | **İqtisadiyyat kafedrasının baş müəllimi** |
| **Hacıyeva E.Z.** | – | **Sənayenin təşkili və idarəetmə kafedrasının baş müəllimi** |
| **Rəsulov Z.Y.** | – | **Sənayenin təşkili və idarəetmə kafedrasının baş müəllimi, məsul katib** |

**MİNGƏÇEVİR – 2017**

## MÜNDƏRİCAT

**HACIYEV A.N.**
*Giriş sözü*........................................................................................................................................ 5
**MUSAYEVA C.Q.**
*Azərbaycanın milli iqtisadiyyatının inkişafında Strateji Yol Xəritəsinin rolu*.......................................... 6
**İSGƏNDƏROV F.Ə.**
*Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak malları istehsalı sahələrinin genişləndirilməsi məsələləri*........................................................................................................................................ 8
**QƏDİMLİ N.A.**
*Strateji Yol Xəritəsi kontekstində sığorta bazarının inkişaf meylləri*........................................................ 11
**BAĞIROV C.A.**
*Azərbaycanın turizm potensialı və onun inkişafının strateji istiqamətləri*................................................ 16
**MƏMMƏDLİ Y.Z.**
*Kənd təsərrüfatında innovasiya siyasəti və kadr hazırlığı*........................................................................ 20

## İSTEHSALIN İQTİSADİYYATI BÖLMƏSİ

**MƏMMƏDOV F.Ə., MƏMMƏDOVA X.F.**
*Respublikamızda toxuculuq sənaye müəssisələrinin inkişafı perspektivləri*............................................ 24
**HÜSEYNOVA E.Y.**
*Ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən islahatlar*......................... 25
**QARAYEV M.Ş.**
*Qeyri-neft məhsullarının ixracının artırılması yolları*................................................................................ 27
**QASIMOV C.C.**
*Qloballaşma şəraitində ərzaq təhlükəsizliyinin təmin olunmasının elementlərinə dair*........................... 29
**TAĞIYEV A.M.**
*Strateji Yol Xəritəsi - Azərbaycan iqtisadiyyatının zəif və üstün cəhətlərinin təhlili kontekstində*............ 31
**ŞƏFAQƏTOV G.M.**
*Azərbaycanda özəlləşdirmə və onun sosial iqtisadi nəticələri və inkişaf imkanları*................................. 33
**PAŞAYEVA S.B.**
*Əlverişli biznes mühitinin inkişafı makroiqtisadi sabitliyin təminatı kimi*………………………………… 35
**NİFTƏLİYEV N.F.**
*Müasir iqtisadi şəraitdə sənaye sektorunun rəqabətqabiliyyətliyinin yüksəldilməsi istiqamətləri*........... 36
**HÜSEYNOVA R.A.**
*Ərzaq təhlükəsizliyinin təmin edilməsinin təkmilləşdirilməsi istiqamətləri*.............................................. 38
**ƏLİYEVA T.Ə.**
*Azərbaycanın milli iqtisadiyyatının strateji inkişaf istiqamətləri*............................................................. 41
**RƏHİMOVA M.F.**
*Dövlətin strateji məqsədlərinin reallaşdırılmasında ərzaq təhlükəsizliyinin rolu*.................................... 43
**NƏSİBOVA A.C.**
*Milli iqtisadiyyatın inkişafında ərzaq təhlükəsizliyinin əhəmiyyətliliyi*………………………………….. 46

## XİDMƏT VƏ SOSİAL İNFRASTRUKTUR BÖLMƏSİ

**HÜSEYNOVA E.Y.**
*Davamlı iqtisadi inkişafın təmin edilməsində sahibkarlığın rolu*............................................................ 48
**SƏMƏDOVA O.M., NİFTƏLİYEV N.F.**
*Birbaşa xarici investisiya qoyuluşlarının ölkənin rəqabətqabiliyyətliliyinə təsirinin təhlili*..................... 50

**İSMAYILOV M.B.**
*Azərbaycanın energetika sənayesinin inkişafında hidroenerji potensialının rolu*.................................... 53
**HACIYEVA E.Z.**
*Aqrar sahənin inkişafında sahibkarlığın rolu*......................................................................................... 54
**SƏFƏROVA T.A.**
*Azərbaycanda sosial-iqtisadi tərəqqinin sürətləndirilməsində infrastruktur layihələrin rolu*.................. 55
**RƏSULOV Z.Y.**
*Ali təhsil müəssisələrində təhsil-tədqiqat-innovasiya: problemlər və inkişaf istiqamətləri*...................... 58
**KƏRİMOVA M.A.**
*Maliyyə sistemində maliyyə sabitliyinin milli iqtisadiyyatın inkişafında rolu*........................................... 60
**SƏFƏROV N.V.**
*Azərbaycan sığorta bazarı ümumi iqtisadi inkişaf fonunda*..................................................................... 62
**XƏLİLOVA X.Q.**
*İnsan kapitalının inkişafı iqtisadi strategiyanın əsas istiqaməti kimi*........................................................ 64
**NAMAZOVA A.M.**
*Logistika milli iqtisadiyyatın inkişafının zəruri aləti kimi*......................................................................... 66
**XƏLİLOVA E.E.**
*Azərbaycanda turizm sənayesinin inkişaf perspektivləri*……………………………………………………. 68
**KƏRİMLİ G.F.**
*Ölkə iqtisadiyyatının inkişafında turizmin rolu*........................................................................................ 70
**MƏMMƏDOVA İ.R.**
*Azərbaycanda turizmin inkişafının əsas istiqamətləri*............................................................................... 72
**FƏRACOVA G.Ə.**
*Qeyri-neft sektorunun inkişafında innovasiyaların rolu*............................................................................ 74

# GİRİŞ SÖZÜ

*HACIYEV Akif Novruz oğlu*
*Mingəçevir Dövlət Universitetinin rektoru*

Hörmətli konfrans iştirakçıları!
Hörmətli qonaqlar!

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasının təmin edilməsinə istiqamətlənibdir. Qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı Azərbaycanın dünya iqtisadiyyatında mövqeyini gücləndirir və yüksək gəlirli ölkələr qrupuna daxil olmasına şərait yaradır. Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmışdır. Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Xəritə təkcə inkişaf məqsədləri və prinsiplərini deyil, həm də hər bir istiqamət üzrə qlobal meyilləri, iqtisadiyyatın 360 dərəcəli diaqnostikasını və mövcud vəziyyətin GZİT təhlilini, görüləcək tədbirləri, tələb olunan investisiya və nəticə indikatorlarını əhatə edir. Qısamüddətli dövrdə seçilmiş prioritetlərə hədəflənmək üçün orta və uzunmüddətli dövrlərdə iqtisadi inkişafın bünövrəsi qoyulacaqdır. Strateji Yol Xəritəsi iqtisadi inkişafa töhfə verən bütün amilləri, o cümlədən yerli və beynəlxalq özəl sektor nümayəndələrinin kommunikasiyası və əməkdaşlığı üçün imkanları təmin edəcəkdir. İnsan kapitalının inkişafına gəldikdə isə, təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, təlimlər vasitəsilə işçilərin bilik və bacarıqlarının inkişaf etdirilməsində fasiləsizliyin təmin edilməsi, ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, şirkətlərin araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması, mövcud insan kapitalından səmərəli istifadə edilməsi müəyyənləşdirilmişdir.

# Milli iqtsiadiyyatın inkişafında Strateji Yol Xəritəsinin rolu

*i.f.d. MUSAYEVA Cəmilə Qəzənfər qızı*
*İqtisadiyyat kafedrasının müdiri*

Davamlı iqtisadi islahatlar çərçivəsində aparılan uğurlu siyasətin nəticəsində qlobal iqtisadi çağırışlara uyğun müasir nəzəri yanaşmalarla daha da təkmilləşdirilmiş dayanaıqlı inkişafa nail olunmuşdur. Strateji məqsədlərə uyğun sərbəst bazar münasibətləri və özünüinkişaf qabiliyyətinə malik sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması təmin edilmişdir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanılmış, qeyri-neft sahələrinin və bütövlükdə regionların tarazlı inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarından səmərəli istifadə təmin olunmuş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əlverişli biznes və investisiya mühiti formalaşmış, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır.

Bununla belə son dövrlərdə istər regionda, istərsə də qlobal iqtisadiyyatda gedən proseslər, neft gəlirlərinin kəskin azalması, mürəkkəb xarici iqtisadi mühit ölkənin makroiqtisadi və maliyyə sabitliyinə öz təsirini göstərməkdədir. Dünyada cərəyan edən proseslərin yaratdığı yeni tendensiyalara uyğunlaşmaq və mövcud qlobal iqtisadi böhranın ölkəmizə təsirini minimuma endirmək məqsədilə iqtisadi islahatların əsas strateji hədəflərinə uyğun olaraq sistem xarakterli bir sıra tədbirlərin həyata keçirilməsi və iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılması qarşıda duran əsas prioritet vəzifələrdəndir.

Dünyada baş verən iqtisadi proseslər fonunda ölkə iqtisadiyyatının inkişafı, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlıq sektorunun genişləndirilməsi üçün əlverişli imkanların yaradılması, qeyri-neft sektoru üzrə ixrac potensialının artırılması həmçinin yerli sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi istiqamətində 2016-cı ildə bir sıra mühüm qərarlar qəbul edilib. Bu qərarlar üç əsas prioritet üzrə müəyyən edilmişdir:

1. İnstitusional islahat tədbirləri;
2. Biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı islahat tədbirləri;
3. İnvestisiyaların təşviq edilməsi istiqamətində islahat tədbirləri.

Ölkənin perspektiv inkişaf hədəflərini və istiqamətlərini müəyyənləşdirmək və onların realizasiyasını təmin etmək məqsədilə qəbul edilən sənədlərdən biri də “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”dir. Ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək , iqtisadiyyatın mövcud vəziyyətinin dərindən təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq edilmiş, habelə həmin istiqamətlərə müvafiq olaraq inkişaf planlarının işlənilməsini təmin etmək üçün müvafiq işçi qrupu yaradılmışdır. Həmin Sərəncama əsasən, işçi qrupu yerli və xarici ekspertlərin, təcrübəli mütəxəssislərin, məsləhətçi şirkətlərin və elmi təşkilatların iştirakı ilə, ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq şəraitində milli iqtisadiyyat və iqtisadiyyatın on bir əsas sektoru üzrə o cümlədən 8 əsas və 3 koməkçi strateji yol xəritələrinin layihələrini hazırlamışdır.

Strateji yol xəritəsi əvvəlki inkişaf strategiyalarından hazırlanma texnologiyasına, əhatə etdiyi dövrə görə , konkretliliyi, hər bir dövr üçün hədəflərin doğru seçilməsi və inkişafı nəzərdə tutulan sahələrin ayrı-ayrılıqda proqramlaşdırılması, xidmət sektorlarının

innovativliyi və iqtisadi inişafı dəstəkləməsi prinsipləri baxımından əhəmiyyətli dərəcədə fərqlənir və yeni innovativ iqtisadi inkişafa keçidi şərtləndirir. Strateji yol xəritəsi sosial-iqtisadi inkişafın göstəricilərinin təhlilinin və qiymətləndiriməsinin metodologiyasının yenidən hazırlanmasını tələb etmişdir.

Strateji yol xəritəsində 360 dərəcəli diaqnostika və GZİT təhlil (güclü tərəflər, zəif tərəflər, imkanlar və təhlükələrin təhlili) vasitəsilə iqtisadi və sosial inkişafın güclü, zəif tərəflərinin, imkanlarının və təhlükələrinin müəyyənləşdirilməsi əsasında mümkün qədər iqtisadi təhlükəsizliyin gözlənilməsi nəzərdə tutulur. GZİT təhlil iqtisadi inkişaf parametrlərinin səmərəliliyinin qiymətləndirilməsi baxımından optimal inkişaf metodudur. Bu zaman ayrı ayrı sahələrin fəaliyyətinin səmərəliliyi deyil, ümumilikdə təkrar istehsalın səmərəliliyinin qiymətləndirilməsi təmin olunur. Milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin 360 dərəcəli diaqnostikası ölkənin iqtisadi inkişafının perspektivlərinin müəyyənləşdirilməsini, konkret vəzifələrin yerinə yetirilməsini və informasiya bazası əsasında mövcud vəziyyətin obyektiv təhlilini və risklərin adekvat qiymətləndirilməsini tələb edir. Starteji yol xəritəsini digər inkişaf startegiyalarından fərqləndirən xüssiyyətlərdən biri də azərbaycan iqtisadiyyatını iterasiya metodu (ardıcıl yaxınlaşma) ilə həm makro (milli iqtisadiyyat) , həm də mikro (sektorlar) səviyyədə əhatə etməsidir.

Strateji yol xəritəsində ixracda rəqabətliliyin və birbaşa xarici investisiyaların artırılması, idxalın yerli istehsalla əvəzlənməsi, iqtisadi artımın dayanıqlılığının təmin olunması, sosial rifah və inklüzivliyin sosial sektorlara investisiyalar yoli ilə artırılması məqsədilə milli iqtisadiyyatın əsasını təşkil edən 11 prioritet sektorların inkişafı nəzərdə tutulmuşdur.iqamətlənəcək. Strateji baxış Azərbaycanın davamlı iqtisadi inkişafı əsasında iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılmasına və sosial rifahın güclənməsinə istiqamətlənmişdir. Prioritet olan sektorların dördünü istehsal sektorları, ikisini xidmət sektoru, ikisini sosial sektor, üçünü isə iqtisadi infrastruktur təşkil edir. O cümlədən,

İstehsal sektorları üzrə:

- neft və qaz (kimya sənayesi məhsulları da daxil olmaqla) sektoru;
- kənd təsərrüfatı və kənd təsərrüfatı məhsullarının emalı sektoru;
- kiçik və orta sahibkarlıq səviyyəsində istehlak malları istehsalı və digər istehsal;
- ağır sənaye və maşınqayırma.

Xidmət sektorları üzrə:

- ixtisaslaşmış turizm və əyləncə biznesi;
- logistika və ticarət.

Sosial sektorlar üzrə:

- uğun qiymətə mənzillər;
- peşə təlimləri (kadr hazırlığı).

Üç iqtsiadi infrastruktur sektorunun o cümlədən maliyyə xidmətlərinin, telekommunikasiya və komunal xidmətlərinin fiziki, maliyyə və texnoloji komponentlərinin optimallaşdırılması üçün yol xəritəsinin hazırlanması əsas sektorları dəstəkləməklə bu sahələrin inkişafını daha da gücləndirəcəkdir. Bu üç sektor əsas sektorların sağlam inkişafı üçün “dəstək” və “özəlləşdirmə” perspektivi ilə qismən əhatə olunacaq və ən yaxşı platformanın yaradılmasında iştirak edəcək.

Strateji yol xəritəsində diqqət çəkən məqamlardan biri də strateji hədəf və məqsədlərə çatmaq üçün zaman intervalının müəyyənləşdirilməsidir. Strateji yol xəritəsi cari müddəti, orta və uzun müddəti əhatə edir. Zaman amili baxımından yanaşma sənədin icrası və əvvəlcədən nəzərə alınması mümkün olmayan risklər baxımından zəruridir. Bu baxımdan strateji yol xəritəsində nəzərdə tutulmuş başlıca istiqamətlərin icrası üçün tədbirlər planının 2020-ci ilə qədərki dövrü mövcud reallıqlar və səmərəli icra mexanizminin

formalaşdırılmasını özündə əks etdirir. 2025-ci ilə kimi olan dövr uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr isə hədəf baxışı müəyyən etmək üçün sektorlara xas olan perspektivlərin birləşdirilməsini nəzərdə tutur. Bu dövrlər üzrə tədbirlər paketinin müəyyənləşdirilməsi Azərbaycan iqtisadiyyatının inkişaf göstəricilərindən və qlobal tendensiyaların təsirindən asılı olacaqdır. 2020-ci ilədək icrası nəzərdə tutulan əhatəli tədbirlər planı ölkə iqtisadiyyatının neft-qaz sektorundan asılılığının minimuma endirilməsi, iqtisadi şaxələnməni və dünya iqtisadiyyatına inteqrasiyanı əsas məqsədlər kimi müəyyənləşdirmişdir. Tədbirlər planı bir- birilə bağlı olub, ölkə iqtisadiyyatının kompleks şəkildə strukturlaşmasını təmin etməlidir. Nəzərdə tutulmuş tədbirlərin icrası nəticəsində yeni iş yerlərinin yaradılması, əhalinin mənzil təminatının yaxşılaşdırılması, müasir tələblərə cavab verən təhsil və səhiyyə xidmətlərinin göstərilməsini nəzərdə tutan sosial sistemin inkişafı, komunal xidmətlərin təkmilləşdirilməsi və ünvanlı sosial yardım sisteminin daha da mükəmməl strukturunun yaradılması ilə yoxsulluğun azaldılması təmin ediləcəkdir. Strateji Yol Xəritəsində 2025-ci ilədək müəyyənləşdirilmiş uzunmüddətli baxış qlobal inteqrasiya mühitində ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin daha da artırılmasını hədəf kimi qarşıya qoymuşdur. Bu hədəfə nail olunması ölkədə azad rəqabət mühitinin formalaşdırılması, iqtisadiyyatda özəl sektorun payının artırılması və əlverişli investisiya mühitinin yaradılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Strateji Yol Xəritəsində 2025-ci ildən sonrakı hədəf olan əhalinin sosial rifah halının yaxşılaşdırılması, insan kapitalının inkişaf etdirilməsini təmin edən dayanıqlı, inklüziv iqtisadiyyatın qurulmasıdır. Beləliklə, Strateji Yol Xəritəsi ölkə iqtisadiyyatının innovativ və keyfiyyətcə yeni mərhələyə keçidini şərtləndirir. İnsan amilinin inkişafının çağırışları geniş və dərin ixtisaslaşmaya, təhsil, tədqiqat və innovasiyaya əsaslanan təhsil sisteminin qurulması xüsusi əhəmiyyət kəsb edir. Ali təhsil müəssisəsi kimi Mingəçevir Dövlət Universiteti də öz növbəsində təhsil sisteminin yenidən bərqərar olması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsində, innovativ təlim metodlarını tətbiq etməklə səmərəli təhsilin verilməsində, yüksək ixtisaslı, peşəkar, əmək bazarının tələblərinə cavab verən müasir kadr hazırlığında yaxından iştirak etməlidir.

## Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak malları istehsalı sahələrinin genişləndirilməsi

*i.f.d. İSGƏNDƏROV Fərman Əlisgəndər oğlu*
*Sənayenin təşkili və idarəetmə kafedrasının dosenti*

Müasir dövrdə Azərbaycan Respublikasının iqtisadi siyasətinin əsas istiqaməti qeyri-neft sektorunun inkişaf etdirilməsidir. Siyasətin ümumi məqsədi iqtisadiyyatımızın xarici ölkələrin iqtisadi təsirindən qorunması, eyni zamanda qeyri-neft sektorunun tərkib hissələrindən biri olan istehlak malları istehsalının daha da inkişaf etdirir çünki istehlak malları əhalinin tələbatlarının ödənilməsinə daha həssasdır, bazar konyunkturunun dəyişiklərinə operativ reaksiya verir, istehsal və istehlak sferasındakı müvafiq boşluqları daha dolğun və səmərəli doldura bilir.

İstehlak malları istehsalının genişləndirilməsində Dövlətin strateji məqsədi kiçik orta sahibkarlığın inkişafı üzrə daha əlverişli biznes mühitinin formalaşdırılması, rəqabət qabiliyyətinin və iqtisadiyyatdakı rolunun artırılması, istehsalın bütün mümkün hissəsinin innovasiyaların inkişafı yolu ilə yaradılmasına nail olunması, məşğulluğun təmin

edilməsindəki rolunun artırılması, kiçik orta sahibkarlıq subyektlərinin ixrac etdikləri malların ölkənin ümumi ixracındakı payının artırılmasından ibarətdir.

İstehlak malları istehsal edən kiçik və orta müəssisələrin inkişaf etdirilməsi dünya ölkələrinin xeyli hissəsinin düçar olduğu iqtisadi böhran dövründə dövlətimizin böhrana qarşı əsas müdafiə üsullarından biridir. Çünki böhran dövründə iri müəssisələrin müflisləşməsi ölkə iqtisadiyyatındakı böhranı daha da dərinləşdirir. Kiçik və orta sahibkarlıqda belə risklər daha aşağıdır.

Dünyanın inkişaf etmiş ölkələrində kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi artım və məşğulluqda payı Dünya Bankının məlumatına əsasən ÜDM-da 50 faiz, məşğulluqda 60 faiz təşkil edir.

ABŞ və Avropa İttifaqı ölkəərində müəssisələrin 99 faizi kiçik və orta müəssisələrdir və onların məşğulluqda və ÜDM-da payı 60 faizdən çoxdur. 2014-2015-ci illərdə Avropa İttifaqı ölkələrində gəlirin hər avrosunun 58 senti kiçik və orta sahibkarlıq subyektlərinin payına düşür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikasında qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqaməti olmasını" qeyd edərək, beynəlxalq təcrübələrə və ölkəmizin istehlak mallarının istehsalının genişləndirilməsi imkanlarını nəzərə alaraq Milli iqtisadiyyat üzrə Strateji yol xəritəsinə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji yol xəritəsini" daxil etmişdir.

Müstəqilliyin bərpasından sonrakı dövrdə Azərbaycan Respublikasında sahibkarlığın inkişafının dəstəklənməsi istiqamətində Dövlət tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir.

1997-2000-ci illəri əhatə edən dövrlərdə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı", 2002-2005-ci illər üzrə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının dövlət proqramı" qəbul edilərək icra edilmişsir. Eyni zamanda 2005-ci ildən sonrakı dövrdə 2008-2015-ci illərdə "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət proqramı" və 2015-2020-ci illər üzrə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair Dövlət proqramında" sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarların hüquqlarının, qanuni mənafelərinin müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsi sahəsində tədbirlər görülməsi nəzərdə tutulmuşdur. Qarşıya qoyulmuş bu vəzifələr dövrlər üzrə yerinə yetirilmişdir. Respublikamızda qeyri-neft sektoru üzrə statistik məlumatlar göstərir ki, 2001-ci ilə nisbətən 2015-ci ildə kiçik sahibkarlıq subyektlərinin əlavə dəyərdə, mənfəətdə, işçilərin sayında, investisiya qoyuluşu mövqelərində artım olmuşdur. 2011-ci ilə nisbətən 2016-cı ilin 6 ayı ərzində kiçik müəssisələrin sayı 22794 vahid artaraq 83017 vahid olsa da ÜDM-də payı cəmi 4 faiz, məşğulluqda isə 6,35 təşkil etmişdir ki, bu göstəricilər çox kiçik göstəricilərdir.

Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji yol xəritəsində istehslak mallarının istehsalı sahələrinin güclü, zəif, imkanlar, təhlükələr (GZİT) istiqamətləri təhlil edilmişdir.

Bu təhlilin qeyd edilən zəif tərəflərinə aid müəyyən əlavələr edərək və bəzilərinin müəyyən qədər genişləndirərərk mövcud vəziyyəti belə ümumiləşdirmək olar:

Eyni zamanda ölkədə kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı istiqamətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 215 №-li əmri ilə "Kiçik və orta sahibkar meyarları" təsdiq edilmişdir. Meyarlara uyğun olaraq 2015-ci ildə

qeydiyyatdan keçmiş hüquqi və fiziki sahibkarlıq subyektlərinin 1 faizi iri, 2 faizi orta, 97 faizi isə fiziki sahibkarlardır.

Nazirlər Kabineti tərəfindən qəbul edilmiş meyarlar əsasən işçilərin orta sayı və illik gəlirləri üzrə müəyyənləşdirilmişdir.

Cədvəl 1

**İri, orta və kiçik sahibkar meyarları**

| Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyası | İşçilərin orta siyahı sayı | İllik gəliri |
|---|---|---|
| Kiçik sahibkar | 25 nəfərədək | 200 min manatadək |
| Orta sahibkar | 25 nəfərdən 125 nəfərədək | 200 min manatdan 1250 min manatadək |
| İri sahibkar | 125 nəfər və ondan yuxarı | 1250 min manat və ondan yuxarı |

Sahibkarlığın inkişafını təmin etmək istiqamətində dövlət qanunlarının yerinə yetirilməsində boşluqların aradan qaldırılması, yəni subyektlər üzrə verilmiş qanunların yerinə yetirilməsini icra edən təşkilatlar və şəxslərə nəzarətin gücləndirilməsi, ölkədə inhisarın olması kiçik və orta sahibkarlığın inkişafına mane olan əsas səbəblərdən biridir. Respublikmızda himayə olunan iri həcmli Holdinqlər müxtəlif sahələr, o cümlədən istehlak malları istehsalı istiqamətində tələb olunan ehtiyatlara nəzarət etdikləri və digər sahibkarların bu istiqamətdə fəaliyyətinə müxtəlif yollarla maneçilik edirlər. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev dəfələrlə Prezidentyanı müşavirələrdə ölkəmizdə inhisarçılıq probleminin olmasını qeyd edir və onun aradan qaldırılmasını xüsusi olaraq vurğulayıb.

İnhisarçılığın aradan qaldırılması barədə Milli Məclis tərəfindən heç bir qərar qəbul edilməyib. Hansı ki, müstəqilliyin ikinci dəfə qazanıldığı dövrdə rəqabət məcəlləsi Milli Məclis tərəfindən qəbul edilməli idi.

Kiçik və orta sahibkarlığın inkişafında onların ixrac-idxal əməliyyatlarında iştirakı da mühüm məsələdir. Aparılmış araşdırmalardan məlum olur ki, kiçik və orta sahibkarların 98 faizi hər hansı ixrac, 92 faizi isə idxal əməliyyatı aparmayıb. Buradan belə nəticə əldə edilir ki, onlar nizamnamələrində göstərilən işləri yerinə yetirməmişlər.

Ölkədə istehsalı mümkün olan məhsulların kənardan gətirilməsinə rəhbərlik edən inhisarçıların olması da fəaliyyətə mənfi təsir göstərir.

Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının inkişafı üzrə fəaliyyətinə mənfi təsir edən mühüm cəhətlərdən biri dövlət orqanlarının bu sahəyə keçmiş dövrdən qalmış hakim münasibət göstərmələridir. Xüsusilə icra başçılarının, hüquq-mühafizə, vergi, gömrük, fövqaladə hallar və s. strukturların sahibkarların fəaliyyətinə əsassız müdaxilə etmələridir və daşınmaz əmlakın qeydiyyatdan keçməsində olan problemləri mövcuddur.

İstehlak malları istehsalı üzrə kiçik və orta sahibkarlıq subyektləri arasında və onların digər sahələrin subyektləri ilə informasiya əlaqələrinin zəif olması; istehlak malları istehsalı üzrə kadr siyasətində çatışmamazlıqlar mövcuddur. Azərbaycan Respublikasının ikinci dəfə müstəqillik qazandığı dövrdən ölkəmizdə kadr hazırlığı məsələsində müəyyən problemlər olmuşdur. Belə ki, bu dövrdə ölkəmiz informasiya kommunikasiya texnologiyaları sisteminə daxil oldu. Beynəlxalq səviyyədə proses, elmi-texniki tərəqqi sürətlə inkişaf etdi, yeni texnologiyalar yarandı və s. Lakin təhsil sistemində aparılan islahatlar bu prosesə hazır olmadığı üçün müasir dövrün tələblərini ödəyə biləcək kadr hazırlanması siyasəti öz yerini tuta bilmədi. Eyni zamanda inhisarçılıq bu inkişafın qarşısını ala bildi.

Beynəlxalq əlaqələrə çıxışda mövcud olan boşluqlar kiçik və orta müəssisələrin inkişafına mənfi təsir edir.

Maliyyə resurslarının əldə olunması şərtlərində mövcud olan nöqsanlar, xüsusilə girov tələbində, kreditin faizlərinin yüksək olması, ödəmənin gecikdirilməsi hallarında tətbiq edilən cərimələrin yüksək faizlə ödənilməsi, bankların kredit istiqamətlərinin ən çox tikinti və avtomobil satışı istiqamətinə olması kiçik və orta sahibkarlığın inkişaf tələblərini ödəyə bilmir.

Sərfəli biznes sektoruna əsasən "işbazların" nəzarət etməsi və biznes qurulduqdan sonra "reket" qurumlarının haqq qoyması və şərik olması da sahibkarların işinə maneçilik edən amillərdəndir.

İstehlak malları istehsalının genişləndirilməsinə mənfi təsir edən amillərdən biri də Respublikamızda xəlvəti (kölgə) iqtisadiyyatın olmasıdır. Çünki, qeydiyyatdan keçməyən və himayə altında fəaliyyət göstərən müəssisələr dövlət öhdəliklərindən və dövlət rüsumlarından kənarda qalır, işçilərə ödəmələri aşağı normativlərlə, işləmə müddətini isə yüksək normalarla həyata keçirilər, nəticədə müəssisənin istehsal xərci aşağı olur. Belə vəziyyət onlara rəqabət prosesində manevr etməyə geniş imkanlar yaradır. Qanuni fəaliyyət göstərən eyni istiqamətli müəssisələrdə öhdəlik xərcləri və rüsumların olması məhsul və xidmətlərin maya dəyərini artırır və nəticədə bu müəssisələr rəqabətə dözə bilmirlər.

Araşdırılmış vəziyyətin daha da yaxşılaşdırılmasının təmin etmək istiqamətində istehlak mallarının inkişafının genişləndirilməsi istiqamətində kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə əlçatanlığının təmin edilməsinə, ölkədə inhisarçılığın aradan qaldırılmasına, beynəlxalq səviyyəli texnoloq-mühəndislərin və digər ixtisaslı kadrların hazırlanmasına, fəaliyyətində asılılıq olan subyektlər arasında əlaqələrin qurulmasına dövlət dəstəyinin olması məqsədəuyğun hesab edilir.

## Strateji Yol Xəritəsi kontekstində sığorta bazarının inkişaf meylləri

*i.f.d., dos. QƏDİMLİ Nüşabə Astan qızı*
*İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı*

Strateji Yol Xəritəsi qlobal iqtisadiyyat və maliyyə bazarlarında müşahidə edilən proseslərə çevik adaptasiya və postneft iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün maliyyə sektoru qarşısında duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla maliyyə xidmətlərinin çevikliyi, rəqabətqabiliyyətliliyi, innovativliyi və iqtisadi inkişafı dəstəkləməsi prinsipləri əsasında hazırlanmış strateji proqramdır.

Bazar iqtisadiyyatı münasibətlərinə əsaslanan inkişaf tarixində Azərbaycanın maliyyə bazarlarının bank, qiymətli kağızlar və sığorta seqmentləri müəyyən inkişaf yolu keçmişdir. Müasir dövrdə mövcud vəziyyətin təhlili və müqayisəsi Azərbaycanın bu istiqamətdə kifayət qədər inkişafa nail olmadığını və qlobal iqtisadi çağırışların maliyyə bazarlarının dayanıqlı inkişafına mənfi təsir göstərdiyini müyyənləşdirmişdir.

Son illər xarici iqtisadi təsirlər və milli valyutanın devalvasiyası şəraitində maliyyə sisteminin risk həssaslığı artmış və maliyyə sabitliyi pisləşmişdir. Risklər fonunda bəzi maliyyə institutlarının dayanıqlı və uzunmüddətli hədəflərə fokuslanmış biznes modeli və strategiyasının olmaması, habelə bəsit risk idarəetməsi maliyyə sisteminin yeni iqtisadi konyunktura və bazar şərtlərinə uyğunlaşmasını çətinləşdirmiş və maliyyə vasitəçiliyini məhdudlaşdırmışdır. Yeni çağırışların həlli istiqamətində bankların restrukturizasiyası və

kapitallaşması, aktivlərin sağlamlaşdırılması, sığorta bazarının inkişafı, maliyyə inklüzivliyinin gücləndirilməsi üzrə strateji hədəflər strateji yol xəritəsində öz əksini tapmışdır.

Bir çox ekspertlərin tədqiqatlarında maliyyə bazarlarının rolu məhz innovasiya aspektindən qiymətləndirilir, sərmayələrin cəlb edilməsi və məşğulluq məsələlərini ön plana çəkir. Daha bir qisim tədqiqatçılar maliyyə bazarlarına qloballaşma və disentralizasiya aspektindən yanaşaraq qlobal bazarlarda maliyyə alətlərinin rolunu, o cümlədən sığorta öhdəliklərini təhlil edir.

Bu baxımdan məhz maliyyə bazarlarının əsas seqmentlərindən biri də sığorta bazarlarıdır. Araşdırmalar göstərir ki, Azərbaycanın sığorta bazarında inkişaf dinamikası müşahidə edilməkdədir. Hüquqi bazanın təkmilləşdirilməsi, ölkədə pul kütləsinin və əhalinin gəlirlərinin artımı, bazar prinsiplərinə əsaslanan sığorta bazarında inkişaf dinamikasını əks etdirir. Həmcins bazar prinsiplərinə əsaslanan sığorta menecmentinin inkişafı, böyüyən biznesin artan sığorta tələbatı, sığorta sisteminə ictimai inamın möhkəmlənməsi sığorta bazarının genişləndirilməsində əsas amillərdən hesab edilir.

Cədvəl 1

**Sığorta bazarının əsas göstəriciləri (mln. manatla)**

| İllər | Sığorta haqqı | Sığorta ödənişi | Könüllü sığorta haqqı | İcbari sığorta haqqı |
|---|---|---|---|---|
| 2010 | 139,82 | 45,48 | 109,43 | 29,39 |
| 2011 | 212,98 | 61,51 | 161,0 | 51,98 |
| 2012 | 342,52 | 93,86 | 215,0 | 127,51 |
| 2013 | 405,67 | 122,8 | 270,96 | 134,7 |
| 2014 | 429,18 | 157,13 | 284,7 | 144,5 |
| 2015 | 442,9 | 180,24 | 280,97 | 161,9 |

Təhlil göstərir ki, 2010-cu illə müqaisədə 2015-ci ildə sığorta yığımlarında 3 dəfədən çox artım müşahidə edilmiş, son 6 il ərzində icbari sığorta haqqlarının ümumi həcmi 5,3 dəfə artmışdır. 2012-ci ildə icbari sığorta haqqında yeni qaydaların tətbiqi icbari sığorta bazarının əvvəlki illə müqayisədə 2,5 dəfə artmasını şərtləndirmişdir. Lakin, bütün bunlara baxmayaraq, inkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycanın sığorta bazarı zəif inkişaf etmiş sahələrdən biri hesab edilir.

Sığortanın nüfuzetmə faizi konkret dövr ərzində sığorta yığımlarının ümumi məbləğinin həmin dövr üçün ÜDM-də xüsusi çəkisinə bərabərdir. Şəkil 1-də Azərbaycanda sığortanın nüfuzetmə faizi göstəricilərinin illər üzrə dinamikası verilmişdir. Göründüyü kimi, 2010-2015-ci illər üzrə daimi artım baş vermiş, lakin, beynəlxalq müqaisə real vəziyyətin qənaətbəxş olmadığını göstərir. Belə ki, 2013-cü ildə müvafiq göstərici Böyük Britaniyada 12,7 faiz, Almaniyada 6,7 faiz, Litvada 2,9 faiz olmuşdur.




**Səkil 1. Sığortanın nüfuzetmə səviyyəsi**

Sığorta bazarının öiçülməsinin ikinci metodu isə sığorta sıxlığının müqayisəsidir. Bu göstərici ayrı-ayrı ölkələrdə sığorta yığımlarının adambaşına məbləğini müəyyən etməklə faktiki vəziyyətin daha geniş qiymətləndirilməsinə imkan yaradır. Adambaşına sığorta yığımlarının orta məbləği 2010-2013-cü illərdə sürətli artım nümayiş etdirmişdir.




**Şəkil 2. Sığorta sıxlığının illər üzrə dinamikası**

Göründüyü kimi Azərbaycanda sığorta sıxlığı 2010-2014-cü illərdə təxminən 3 dəfə artaraq 15,34 manatdan 44,73 manata qədər yüksəlmişdir (Şəkil 2). Lakin 2013-cü ildə İsveçrədə sığorta sıxlığı 6089 avro, Böyük Britaniyada 3963 avro, Rusiyada isə 140,8 avro səviyyəsində olmuşdur. Azərbaycanda isə ilk dəfə XVIII əsrin 80-ci illərində "Bakı Əmtəə BIrjası" nın yaradılması ilə əlaqədar olaraq istiqraz və veksellərin ticarətinə start verilmişdir.

Sığorta bazarının inkişafı qeyri-müəyyənliklərdən və risklərdən qorunmağa kömək etməklə yanaşı daxili yığımın toplanması üçün investisiya kanalını təmin edir və ölkə iqtisadiyyatının dayanıqlı inkişafını sürətləndirir. Azərbaycanın sığorta bazarı son illərdə sosial-iqtisadi inkişaf fonunda stabil artım nümayiş etdirsə də, onun maliyyə bölməsinə və iqtisadiyyata təsiri minimum səviyyədədir. 2016-cı ilin əvvəlinə sığorta sektorunun 23 maliyyə dərinliyini ifadə edən sığorta haqlarının ÜDM-ə nisbəti cəmi 0,8 faiz təşkil etmiş, yanvar-sentyabr aylarında isə Azərbaycanda fəaliyyət göstərən 25 sığorta şirkətinin xətti ilə 390 mln. manat sığorta haqqı toplanmışdır. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 51mln. manat və yaxud 15,1 faiz çoxdur.

Sığorta haqlarının ÜDM-ə nisbətinin aşağı olmasının səbəblərindən biri sığorta şirkətlərinin müəyyən sektorlar ilə bağlı risklər haqqında məlumatının zəif olmasıdır. Bu isə sığorta şirkətlərinin həmin qruplar üçün müxtəlif məhsul təklifləri hazırlamağa maraqlı olmamasını göstərir. Məsələn, kənd təsərrüfatı üzrə sığorta ən mürəkkəb və çətin sığorta seqmenti olmaqla, risklərlə bağlı xüsusi biliklərin olmasını tələb edir. Maliyyə resurslarına çıxış imkanlarının artırılmasının səmərəli vasitələrindən biri kənd təsərrüfatı sahəsinə xas olan risklərin sığorta alətləri vasitəsilə azaldılmasıdır. Kənd təsərrüfatı sığortası bir tərəfdən hava şəraiti, digər tərəfdən isə qiymətlərin dəyişkənliyi səbəbindən məhsuldarlıq və mənfəətliliklə bağlı risklərini azaldır və kredit öhdəliklərinə xidmət imkanlarını artırmaqla sahənin kreditləşməsi potensialını yüksəldir.

Azərbaycanın sığorta bazarının xüsusiyyətlərinə, kənd təsərrüfatı şəraitinə və dövlət siyasətinə uyğun olan aqrar sahənin sığortası modelinin seçilməsi və tətbiqi mühüm əhəmiyyətə malikdir. Aqrar sahənin sığortası mexanizmi kifayət qədər mühüm institut olduğundan, onun formalaşdırılması və yaradılması zamanı dövlətin kənd təsərrüfatı ilə bağlı strateji siyasəti, onun infrastrukturunun əhəmiyyəti və s. amillər diqqət mərkəzində saxlanılmalıdır.

Mikrosığorta bazarının inkişafı aşağı gəlirli ev təsərrüfatlarına daha az sığorta haqqı müqabilində sığortalanma imkanı yaradır. Qanunvericilikdə mikrosığorta mexanizminə dair müddəa nəzərdə tutulmamış və bu sığorta növü inkişaf etməmişdir. Hərtərəfli normativ hüquqi çərçivə mikrosığorta bazarının inkişafı üçün vacib amildir. Bu zaman effektiv nəzarətin həyata keçirilməsi ilə yanaşı, mikrosığorta təklifinin formalaşdırılması və xidmətin effektiv şəkildə ev təsərrüfatlarına çatdırılması təşviq olunmalıdır.

Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri mövcud qanunvericiliyə uyğun “ənənəvi”, yəni kommersiya əsaslı sığorta fəaliyyətini həyata keçirsə də, qeyri-kommersiya əsaslı müştərək sığorta məhsulu təklif etmirlər. Ənənəvi sığorta, riskin ötürülməsinə, əməkdaşlıq sığortası isə risklərin bölüşdürülməsinə əsaslanan sığorta münasibətləri sistemidir.Hazırda qeyri-kommersiya əsaslı əməkdaşlıq sığortasının formalaşdırılmasına ehtiyac vardır. Əksər sığorta şirkətləri yüksək riskləri olan və ya investisiya qoyuluşu aşağı səviyyədə olan müəyyən iqtisadi qrupların və ya sektorların sığorta tələblərini qarşılamaq üçün məhsulların hazırlanmasına çox da maraqlı deyillər. Məsələn, sığorta şirkətləri müflisləşmə səviyyəsi daha yüksək olduğu üçün kiçik və orta sahibkarlıq subyektləri və aşağı gəlirə malik fərdi təsərrüfatlara münasibətdə ümumi risklərdən yayınmağa çalışırlar. Xüsusən də aşağı gəlirə malik fərdi təsərrüfatlar, kiçik və orta sahibkarlıq subyektləri üçün sığorta məhsullarına maliyyə əlçatanlığının zəif olması bu qruplarda sığortalanma səviyyəsinin aşağı olmasının başqa bir səbəbi kimi qeyd edilə bilər. Bu mənada, mikrosığorta və müştərək sığortanı nümunə kimi göstərmək olar.

Sığorta bazarının genişlənməsi, əhalinin sığorta təminatı olmayan hissəsinin sığorta məhsulları ilə əhatə olunması, maliyyə xidmətlərinə çıxışın artırılması və iqtisadiyyatın şaxələndirilməsinin dəstəklənməsi məqsədilə yeni sığorta məhsullarının yaradılmasına ehtiyac vardır.

2016-cı ilin 9 ayı ərzində həm könüllü, həm də icbari sığorta növlərində müsbət dinamika müşahidə olunmuşdur. Belə ki, könüllü sığorta növləri üzrə daxilolmalar 18,7 faiz, ödənişlər isə 32,2 faiz artaraq müvafiq olaraq 250,8 mln. manat və 125,4 mln. manat olmuşdur. İcbari sığorta üzrə daxilolmalar 9 faiz, ödənislər isə 27,7 faiz artaraq müvafiq olaraq 140 mln. manat və 41,5 mln. manat təşkil etmişdir.

Hesabat dövründə toplanmış sığorta haqqlarının 29,7 faizi və 116 mln. manatı həyat sığortasının payına düşür. Belə ki, könüllü sığorta növü üzrə həyat sığortası bazarında yığım 42,4 faiz, ödəniş isə 1,9 dəfə artmışdır. Həyat sığortasındakı yığımların 52,7 faizi və

ya 61 mln. manatı həyatın yaşam sığortasının, 23,1 faiz və ya 26,9 mln.manatı həyatın ölüm halında sığortasının payına düşür. Ötən ilin müvafiq dövrü ilə müqaisədə həyatın yaşam sığortası 1,2 dəfə, həyatın ölüm halından sığortası 2,7 dəfə artmışdır.

Könüllü sığorta növü üzrə qeyri-həyat sığortası bazarında yığım 8,9 faiz, ödənişlər isə 1 faiz artmışdır. İcbari tibbi sığorta üzrə bu göstəricilər müvafiq olaraq 10,8 faiz və 26,1 faiz artmışdır. Əmək qabiliyyətinin sığortası, sağalmaz xəstəliklərdən sığorta, dəmiryol nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası, həmçinin peşə məsuliyyətinin sığortası növləri üzrə yığımlar olsa da, sığorta hadisəsi baş verməmiş və sığorta ödənişləri edilməmişdir.

Cari ilin 9 ayı ərzində ümumi ödənişin 75,1 faizi könüllü sığorta növlərinin, 24,9 faizi isə icbarı sığorta növlərinin payına düşür.

Hesabat dövründə sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqı müqabilində 42,8 manat ödəniş həyata keçirilmişdir. Bu göstərici ötən ilin müvafiq dövründə 37,6 manat təşkil etmişdir.

Respublikamızda da bir çox ölkələrin səhiyyə sistemində geniş şəkildə tətbiq olunan icbari tibbi sığortanın reallaşdırılması üçün təşəbbüsə ilk addımlar atılır. İcbari tibbi sığortanın tətbiqi və idarəetmə sisteminin formalaşdırılması məqsədilə bir sıra normativ aktlar qəbul olunmuş, həmçinin Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradılmış və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli Fərmanı ilə Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Çoxşaxəli proses olan icbari tibbi sığortanın təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edən, subyektlər arasındakı münasibətləri tənzimləyən “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu 1999-cu il 28 oktyabr tarixindən qüvvədədir. 1999-cu ildən etibarən ötən müddət ərzində inkişaf etmiş ölkələrdə tətbiq olunan icbari tibbi sığorta modelləri təkmilləşdirilmiş, yeni yanaşmalar və konsepsiyalar ortaya qoyulmuşdur. Hazırda beynəlxalq təcrübədə özünü doğrultmuş icbari tibbi sığorta sistemlərində bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan maliyyələşmə, sığorta haqlarının fondlarda cəmlənməsi və idarə olunması kimi uğurlu mexanizmlər tətbiq olunmaqdadır. Bu əsasda Azərbaycanın icbari tibbi sığorta modelinin qabaqcıl təcrübəyə malik ölkələrin modelinə uyğunlaşdırılması həyata keçirilir.

Bütün bunların həyata keçirilməsi üçün müvafiq işçi qrupları yaradılır və cari vəziyyətin diaqnostikası aparılır və məlumat sistemi yaradılır. İşçi qruplar tərəfindən cari vəziyyətin diaqnostikası aparılaraq, qabaqcıl beynəlxalq təcrübə araşdırılmaqla, hər bir sığorta sahəsi üzrə hüquqi, tənzimləyici və institusional çərçivənin formalaşdırılması istiqamətində görüləcək işlər və hər bir sığorta sahəsi üçün əməliyyat modeli müəyyənləşdirilir. Sığorta sistemində məlumatların toplanması, məlumat sistemləri və mübadilə prosesləri maliyyə xidmətləri sektorunda bu sahə üzrə müvafiq təşəbbüslər kontekstində nəzərdən keçiriləcəkdir.

2015-ci ildə sığorta penetrasiyası 444 milyon manat təşkil etmişdir. Bu prioritet üzrə sığorta penetrasiyasının (sığorta haqlarının qeyri-neft ÜDM-ə nisbətinin) 1,4 faizə çatması hədəf indikatorları müəyyənləşdirilmişdir. Prioritetin 2020-ci ildə real ÜDM-ə təsirinin, 85 milyon manat birbaşa və 40 milyon manat dolayı olmaqla, ümumilikdə 125 milyon manat olacağı gözlənilir. ÜDM-ə müsbət töhfə sığorta sektorunun gəlirlərinin artması və nəticədə penetrasiya səviyyəsinin yüksəlməsi ilə izah olunur.

Bu prioritetin həyata keçirilməsi nəticəsində 1600 yeni iş yerinin yaradılması gözlənilir. Hazırkı mərhələdə sığorta sektorunun inkişaf etdirilməsi üçün əlavə əsaslı

investisiya qoyuluşu tələb olunmur. Belə ki, ilkin olaraq mövcud resurslardan daha səmərəli istifadənin təmin edilməsi nəzərdə tutulur. Sığorta bazarının inkişafı üçün əlavə investisiya tələbi hazırlanaraq fəaliyyət planları əsasında müəyyən edilməsi nəzərdə tutulmuşdur. Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə yeni sığorta məhsullarının hazırlanması və tətbiqi prosesi ilə bağlı əlaqədar tərəflərin fəaliyyətinin zəif əlaqələndirilməsi, maliyyə resurslarının mənbələrinin müəyyən edilməməsi, yeni sığorta növlərinə tələbin formalaşdırılmasında çətinliklərin yaranması, sığorta şirkətlərinin yüksək risk səbəbindən yeni müştəri seqmentlərinə xidmət etməkdə maraqlı olmaması kimi amillər aid edilə bilər. Məsələn, müxtəlif risk amilləri nəzərə alınmaqla, kənd təsərrüfatı sığortası məhsulları üzrə qiymətlərin təyin olunması üçün məlumat sisteminin yaradılması nəzərdən keçirilir.

Strateji Yol Xəritəsində də qeyd edildiyi kimi müasir şəraitdə sığorta sektorunun inkişaf etdirilməsi üçün əsaslı investisiya qoyuluşu tələb olunur. Əlbəttə ki, ilkin olaraq mövcud ehtiyyatlardan daha səmərəli istifadə təmin edilməlidir. Bununla bərabər hazırlanacaq fəaliyyət planları əsasında sığorta bazarının inkişafı üçün əlavə investisiya tələbi müəyyənləşdirilir.

Ümumiyyətlə Respublikada əmanətlərin sığortalanması sisteminin qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi üzrə işlər davam etdirilməlidir. Əmanətlərin Sığortalanması Fondunun kapitallaşdırılması üçün müxtəlif maliyyə mexanizmləri nəzərdən keçirilməli, habelə diferensial təqvim haqlarının tətbiqi istiqamətində işlər görülməlidir.

## Azərbaycanın turizm potensialı və onun inkişafının strateji istiqamətləri

*BAĞIROV Cəlil Arif oğlu*
*İqtisadiyyat kafedrasının müəllimi*
*Azərbaycan Turizm və Menecment Universitetinin dissertantı*

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, turizm sənayesi iqtisadiyyata birbaşa təsir göstərən dinamik bir amildir. Onun dinamikliyi başqa sənaye sahələrindən fərqli olaraq insan amili üzərində qurulub, insanların maddi ehtiyaclarına, istəklərinə uyğun şəkildə cavab verməsilə yanaşı, onun mənəvi ehtiyaclarını, psixo–sosial tələbatını təmin edə bilən bir sahədir.

Ölkəmizin sahib olduğu əsrarəngiz təbiət, milli ruha oturaqlaşmış qonaqpərvərlik ənənəsi və ən önəmlisi bu iki ünsürü özündə cəmləşdirə bilən tarixi abidələrlə zənginlik turizm potensialının davamlılığını təmin edən əsas amildir. Odur ki, bu potensial qeyri – neft sektorunun inkişaf etdirilməsinin əsas istiqamətlərindən biri kimi seçilməsini zəruri etmiş və bu sahənin inkişafı strateji yol xəritəsinin əsas hədəflərindən biri kimi qəbul edilmişdir.

Azərbaycan turizm sənayesinin inkişafı üçün zəngin ehtiyatlara malikdir. Bu, hər şeydən əvvəl, onun çox əlverişli iqtisadi-coğrafi mövqeyə malik olmasıdır. Belə ki, Azərbaycan iki dünya siviliziyasının qovşağında – Transqafqaz nəqliyyat dəhlizinin ortasında yerləşir ki, bütün infrasturuktur – Avropanı Qafqaz və Mərkəzi Asiya ölkələri ilə birləşdirən hava və dəniz daşımaları, magistral avtomobil və nəqliyyat yolları buradan keçir.

86.6 min kv. km ərazisi və 9 milyondan çox əhalisi olan Azərbaycan Respublikası nadir təbiət – iqlim xüsusiyyərlərinə malik bir ölkədir.

Bazardüzü, Şahdağ, Babadağın vüqarla ucalan zirvələri, Böyük Qafqazın cənub ətəklərindən axan çaylar, çoxsaylı şəlalələr, büllur kimi şəffaf Göy-Göl Maral gölün firuzəyi səthi, Qobustanın sərt və eyni zamanda mənzərəli palçıq vulkanları, Lənkəranın nadir qoruqları, Abşeron və Nabran bölgəsinin müalicəvi əhəmiyyətli narın qumlu çimərlikləri, Naftalanın dünya şöhrətli müalicəvi palçığı Azərbaycanın zəngin turizm potensialının əhəmiyyətli tərkib hissəsidir.




| Naftalanda olan yerləşdirmə vasitələri | Otaq sayı | Lüks [2] |
|---|---|---|
| Çinar Hotel & Spa Naftalan | 170 | ✓ |
| Sehrli Naftalan | 120 | |
| Naftalan Hotel By Rixos | 95 | ✓ |
| Naftalan İstirahət və Sağlamlıq Mərkəzi | 81 | |
| Qarabağ kurort və spa | 41 | ✓ |
| Möcüzəli Naftalan | 41 | |
| Şəfa vannaları | 28 | |
| Naftalan Sanatoriya Kurort Birliyi | 26 | |
| Naftalan Əlilləri Bərpa Mərkəzi | 12 | |
| Ağ bina | 10 | |

Dünyada tanınmış “Karlovi Vari” sularından heç də geri qalmayan isti və mineral bulaqlar- Badamlı, Turşsu, İstisu böyük müalicəvi əhəmiyyət daşıyır.

Təbii palçıqlardan 100 ildən çoxdur ki, dayaq-hərəkət aparatı, əsəb sistemi və digər xəstəliklərin müalicəsi üçün səmərəli istifadə olunur. Bunların arasında, Naftalan müalicəvi nefti və Naxçıvan duzdağ kompleksi xüsusi yer tutur. Naxçıvan şəhərində yerləşən Naxçıvan Duzdağ fizioterapiya mərkəzi bronxial asma, ağciyər absesi və hipertoniya xəstəliklərinin müalicəsində əvəzedilməz rola mailkdir

Planetimizin 11 iqlim zonasından 9-nun tipinin bu və ya digər şəkildə Azərbaycan ərazisində mövcudluğu hamıya məlumdur. Flora və fauna aləmi özünün parlaqlığı və rəngarəngliyi ilə buraya təşrif buyuran turistləri məftun edir. Mil – Muğan düzü safari turizminin inkişafı üçün əvəzedilməz imkanlara malikdir. Bura xüsusilə Ərəbistan yarımadasından ölkəmizə gələn turistlərin diqqətini daha çox cəlb edir.

Azərbaycanda 1200-dən çox irili-xırdalı çay axır. Dağlardan axan bir çox çaylar səsli-küylü əzəmətli şəlalələr əmələ gətirir. Dağlıq yerlərdə və Arandakı mövcud göllər, Azərbaycan torpağının əsl bəzəyidir və bu göllərin ən gözəli Göy-Göl və Maral göldür. Xəzərin suları və ona yaxın çaylarda qiymətli uzunburun, lasos, qızıl balıq növləri vardır.

Azərbaycan zəngin tarixə və qədim mədəniyyətə malik ölkədir. Ölkəmizin ərazisində 6 mindən artıq tarixi memarlıq abidələri mövcuddur. Onların əksəriyyəti Azərbaycan ərazisindən keçən Böyük İpək Yolu boyunca qədim karvan yollarının üstündə yerləşir və indinin özündə də heyrət doğurur. Bu abidələrə misal olaraq, ibtidai insanların Qobustan mağaralarındakı (Bakıdan 60 km qərbdə) qayaüstü rəsmlərini, İslama qədərki dövrün mərasim tikililəri- atəşpərəstlik məbədlərini, qüllələrini, dağların zirvəsindəki alban kilsələlərini və ibadətgahlarını, möhtəşəm qala divarlarını və qəsrləri, habelə geniş

karvansaraları, İslam mədəniyyəti dövrünün əzəmətli saraylarını, memorial ayin və digər tikililəri göstərmək olar. Orta əsrlər dövrünün memorial tikililəri, İpək Yolu marşutunda məqbərələrlə təmsil olunub. Məsələn: Qobustan rayonunun inzibati mərkəzi olan Mərəzə qəsəbəsi yaxınlığında, Diribaba türbəsi (XV əsr), Şamaxı rayonunda Yeddi Gümbəz türbələr kompleksi (XVIII əsr), rayonun Kelaxana kəndində sərdabələr (XVII əsr), 1457-ci ildə Ağsu şəhərində tikilmiş Şeyx Dursun türbəsi, İsmayıllı rayonunun Həzrə kəndində türbələr kompleksi (XV-XVI əsrlər), Qazax rayonunun Poylu kəndində türbələr kompleksi (XIX əsr), Gəncədə İmamzadə türbəsi (XVII-XIX əsrlər) kompleksi buna parlaq misal ola bilər.

| Tarixi abidələr | Şəhər və kəndlər | Milli parklar və təbiət gözəllikləri | |
|---|---|---|---|
| ▪ Atəşgah<br>▪ Naxçıvan məqbərəsi<br>▪ Ordubad Qoruğu<br>▪ Qobustan<br>▪ Xan Sarayı<br>▪ Kiş məbədi<br>▪ Əshabi-Kəhf<br>▪ Yanardağ | ▪ Balakən<br>▪ İsmayıllı<br>▪ Qax<br>▪ Qəbələ<br>▪ Quba (o cümlədən Xınalıq)<br>▪ Şəki | ▪ Abşeron yarımadası[1]<br>▪ Ağgöl<br>▪ Altıağac<br>▪ Göygöl<br>▪ Hirkan<br>▪ Lökbatan palçıq vulkanları | ▪ Nabran çimərliyi<br>▪ Samur–Yalama<br>▪ Şahdağ<br>▪ Şirvan<br>▪ Tufandağ<br>▪ Zəngəzur |




**Şəkil 1. Azərbaycan Respublikasının xəritəsi və ölkə ərazisində yerləşən əsas turizm bölgələri**

Azərbaycanın zəngin turizm resurslarını analiz etdikdə aydın olur ki, respublikamızda xüsusilə yaxın gələcəkdə aşağıdakı turizm növlərini inkişaf etdirmək mümkündür:

1. Dağ-xizəkçilik turizmi.
2. Qolf turizmi.
3. Ekstremal turizm(yüksəklik qətetmə).
4. Müalicəvi-balneoloji turizm.
5. Ixtioloji turizm (balıqçılıqla bağlı turizm).
6. Ornitoloji turizm (quşların inkişafı ilə bağlı turizm).
7. Elmi turizm (elmi-sualtı müşahidələr, nadir dəniz florası və faunası ilə tanışlıq, elmi-vulkanoloji turlar).
8. Konqres turizmi.
9. Speloturizm (mağara turizmi).
10. Etnoqrafik turizm (müxtəlif xalqların mədəniyyəti və məişəti ilə tanışlıq).
11. Ovçuluq turizmi-Safari turları.
12. Raftinq turları ( coşğun dağ çaylarında qayıqla üzmə).

Sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm, kənd turizmi kimi turizm növlərini əsas götürərək regional turizmi daha da inkişaf etdirməklə turizmdə kiçik və orta sahibkarlıq ənənəsinin Azərbaycan modelini ortaya qoymaq həm ölkəmizin iqtisadi rifahına, həm də regionda turizmin müvazinət mexanizmini əlində cəmləşdirərək yetərli fəaliyyətlər üçün zəmin hazırlanacaqdır.

Azərbaycanda islahatların xarakteri, özəl sektorun inkişaf meylləri, həmçinin torpaq üzərində xüsusi mülkiyyətin qərarlaşması, kənd təsərrüfatının strateji inkişaf sahəsi olması və əhalinin məşğulluq səviyyəsindəki mövcud reallıqlar, işsizilk amilləri kənd turizminin inkişafını və bu sahədə sahibkarlıq fəaliyyətinin tənzimlənməsi və müxtəlif mexanizmlər vasitəsilə onun idarə edilməsinə diqqət yetirilməsini tələb edir.

Strateji yol xəritəsinin məzmununda da bildirildiyi kimi strateji hədəflər strateji məqsədlərə xidmət edir. Bu baxımdan strateji hədəflər içində Milli turizm təbliğat büroları mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda fəaliyyəti nəzərdə tutulan Milli Turizm Təbliğat büroları ölkənin turizm perspektivlərini və mövcud məlumatları yeniləyəcək. Bunun üçün Azərbaycan Respublikasının Turizm Şurası ilə müvafiq dövlət qurumları və digər təşkilatlarla birgə işləyəcək, mühüm hədəf kimi düşünülən bazarlarda təşviqat tədbirlərini həyata keçirəcək, eyni zamanda sahibkarlara həm aşağı büdcəli yerləşdirmə vasitələri üzrə çeşidlərin genişləndirilməsinə, həm də şəhərlərin mərkəzlərində turizm mərkəzlərinin yaradılmasına dəstək verəcəkdir.




**Şəkil 2. Azərbaycana gələn xarici ölkə vətəndaşlarının sayı (min nəfər)**

Azərbaycanda mövcud turizm potensialının maksimum səmərəliliyini artırmaq üçün bir sıra strateji istiqamətlər turizm sənayesinin strateji yol xəritəsində öz əksini tapmışdır:

1. Milli Turizm təbliğat bürosunun yaradılması
2. Əsas hədəf bazarların seçilməsi
3. Turizm və rekreasiya zonalarının yaradılması
4. Yerli və xarici turistlər üçün turizmdə mövsümilik problemini regional səviyyədə aradan qaldıran turizm xidməti infrastrukturunun inkişaf etdirilməsi
5. Marketinq və media şirkətlərini cəlb etməklə hədəf şəhərlərdə təbliğat – təşviqat tədbirlərinin keçirilməsi
6. Milli bayram paketlərinin hazırlanması və təbliği
7. Yerli və regional turistlər üçün regional turizm növlərinin inkişaf etdirilməsi
8. Ekoturizm və kənd turizminin inkişaf etdirilməsi
9. İşgüzar turizmin inkişafı üçün lazımi tədbirlər planının hazırlanması
10. Formula-1 yarışları zamanı turistlərin orta qalma günlərinin sayının artırılması üçün əlavə idman və turizm tədbirlərinin keçirilməsi

## Kənd təsərrüfatında innovasiya siyasətinin reallaşdırılmasında kadr hazırlığının rolu

*MƏMMƏDLİ Yeganə Zakir qızı*
*İqtisadiyyat kafedrası*
*Azərbaycan Dövlət Aqrar Universitetinin doktorantı*

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, elmi-texniki tərəqqi və yeni texnologiyların tətbiqi əslində məhsuldar qüvvələr sahəsində köklü dəyişikliklər, elmi yeniliklərin istehsalda davamlı olaraq tətbiqi bütövlükdə müasir iqtisadi həyatın ən mühüm normalarından birinə çevrilmişdir. Odur ki, innovasiyalı yanaşma bütövlükdə dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatında, eləcə də müasir Azərbaycan iqtisadiyyatında əhəmiyyətli rol oynamış və müasir dövrdə baş verən qlobal böhrandan çıxış imkanlarından biri olmuşdur.

Araşdırmaları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, əslində innovasiyalar kifayət qədər qabiliyyət və istedadın reallaşdırılmasını tələb edən biliklərin məcmusudur. İnnovasiya fəaliyyətini novatorluq, yenilikçilik xarakterizə edir ki, bu da ilk növbədə bir sahədə aktiv şəkildə fəaliyyət göstərmək imkanına malik olur. İnnovasiyaların müvəffəqiyyətli olması əmək fəaliyyətinin və gücün bir sahəyə yönəldilməsini tələb edir. Əgər təsərrüfat subyektləri və ayrı-ayrı fiziki şəxslər buna hazır deyilsə müsbət nəticə əldə etmək mümkün deyil.

Yeni elmi-texniki məhsul, maya dəyəri öz analoqları ilə müqayisədə nisbətən aşağıda olan yeni istehsal deməkdir. Təbiidir ki, innovasiyaların əldə edilməsi üçün ilk növbədə istehsalatda mütərəqqi texnologiyaların tətbiqi vacibdir. Nəzərə almaq lazımdır ki, iqtisadiyyatın digər sahələri ilə müqayisədə kənd təsərrüfatında innovasiyaların tətbiqi kifayət qədər mürəkkəbdir.

Əhalinin yüksək keyfiyyətli qida məhsullarına tələbatını maksimum ödəmək və ölkənin ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə kənd təsərrüfatının və onunla qarşılıqlı əlaqəyə malik sahələrin davamlı inkişafı müasir şəraitdə dövlətin aqrar siyasətinin ən mühüm vəzifələridir. Müasir şəraitdə yeni elmi biliklər və innovasiyalar kənd təsərrüfatı

istehsalının və bütövlükdə aqrar sahənin inkişafının əsas elementlərinə çevrilməkdədir. Hazırki şəraitdə kənd təsərrüfatının üzləşdiyi problemlərə kompleks və çoxşaxəli aspektdə yanaşılmalıdır. Birtərəfli yanaşma bazar iqtisadiyyatı şəraitində istər kənd təsərrüfatı əmtəə istehsalçılarını, istərsə də bütövlükdə aqrar-emal sektorunun köklü problemlərini aradan qaldırmaq iqtidarında deyildir. Təbii ki, bütün bunlar istehsalın iqtisadi səmərəliliyinə də öz təsirini göstərir. Məlumdur ki, köhnə texnologiya əsasında məhsul buraxılışı son nəticədə yüksək rəqabətə davamlılığın təmin edilməsinə imkan vermir. İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə elmi-texniki tərəqqinin ən yeni kənd təsərrüfatı məhsulları istehsalına, xüsusilə daha çox emal sənayesinə tətbiqinə üstünlük verir ki, bu da istehsalın rəqabətədavamlılığına əlverişli şərait yaradır.

Hesab edirik ki, müasir şəraitdə Azərbaycanın kənd təsərrüfatının modern inkişafına güclü təkan verə biləcək innovasiya proseslərinin səmərəli inkişafına neqativ təsir göstərən bir sıra amillər mövcuddur. Buna misal olaraq mövcud texniki və texnoloji səviyyənin müasir dövrün tələblərinə tam cavab verməməsi, əsas fondların köhnəlməsi və dövriyyə fondlarının yetərsizliyi, əhalinin, xüsusən də kənd əhalisinin alıcılıq qabiliyyətinin aşağı səviyyədə olması, kənd təsərrüfatı məhsulları istehsalçılarının innovasiyaların mənimsənilməsində yetərli səviyyədə maraqlarının olmaması, innovasiya fəaliyyətinin subyektləri kimi iştirakçıların qarşılıqlı münasibətlərini və məsuliyyətini tənzimləyən qanunvericilik bazasının, normativ aktların yetərsizliyi, bütövlükdə isə bu sahədə innovasiyaların mənimsənilməsi sisteminin olmamasını misal göstərə bilərik.

İnnovasiya fəallığının səviyyəsi hər bir müəssisədə kadr potensialının təhsilindən, texniki-texnoloji və iqtisadi hazırlıq səviyyəsindən, baza ixtisasının mövcud olub-olmamasından asılıdır. Bu innovasiyanın qavranılması və konkret istehsalatda onun istifadə edilməsindən gözlənilən səmərənin qiymətləndirilməsini təmin edir. Bazar iqtisadiyyatı şəraitində çoxukladlı kənd təsərrüfatının istehsalının səmərəliliyi rəhbərlərin və mütəxəssislərin hazırlıq səviyyəsindən və işgüzarlıq keyfiyyətindən asılıdır.

Müasir inkişaf dövründə aqrar sahənin innovativ istehsalla təmin olunmasında mövcud olan problemlərdən biri də bu tələbata cavab verə biləcək kadr təminatıdır. Aparılmış tədqiqatlar göstərir ki, müasir qloballaşma iqtisadi inteqrasiya və elmi-texniki yeniliklər dövründə Azərbaycanda aqrar sahənin kadr təminatı sistemində hələ də müəyyən çatışmazlıqlar müşahidə olunur və aqrar təhsilə maraq hələ də istənilən səviyyədə deyildir. Odur ki, bu sahəyə dövlət tərəfindən xüsusi diqqət yetirilir. Belə ki, kənd təsərrüfatı sahəsi üzrə ixtisaslaşmış ali təhsil müəssisəsi olan ADAU-nun maddi-texniki bazasının inkişaf etdirilməsi, ixtisasların genişləndirilməsi və bu ixtisaslar üzrə dövlət sifarişlərinin artırılmasına xüsusi diqqət yetirilir. Nəticədə son bir il ərzində universitetdə tələbə qəbulu 949 nəfərdən 1169 nəfərə çatdırılmışdır.

Kadr hazırlığının digər vacib istiqamətlərindən biri də kənd təsərrüfatı üçün peşə ixtisasları üzrə kadrların hazırlanmasıdır. Son illər kənd təsərrüfatı və aqrobiznes üzrə təhsil almış məzunların sayında azalma müşahidə edilmişdir. Kənd təsərrüfatı məhsullarının emalı sahəsi üzrə 2015-ci ildə cəmi 40 tələbə təhsil almışdır. Ümumilikdə isə aqrar sahənin yüksəkixtisaslı kadrlara olan tələbatının ödənilməsi səviyyəsinin yüksəldilməsi hazırda aktual vəzifələrdən biridir.

Kənddəki peşəkar kadrlar bu sahənin innovasiyalı inkişafının, o cümlədən innovasiyaların mənimsənilməsinin bazisini təşkil edir. Bununla əlaqədar qeyd etməliyik ki, hazırda innovasiya prosesinin ən fəal iştirakçıları alimlər, elmi-texniki işçilər, ali məktəb müəllimləri, informasiya, məsləhət, tətbiq mərkəzlərinin və digər tətbiq qurumlarının mütəxəssisləri olmalıdır.

Əcnəbi tərəfdaşlarla əməkdaşlıq kənd təsərrüfatı məsləhət sistemində öyrədici tədbirlərin təşkilində böyük əhəmiyyət kəsb edə bilər. İngiltərə, Hollandiya, Almaniya, Danimarka, ABŞ, Şotlandiya, İsveç və digər ölkələrin müvafiq mərkəzlərinə mütəxəssislərin göndərilməsi təşkil edilməli, öyrədici və nümayiş tədbirlərinin həyata keçirilməsi üçün həmin ölkələrdən müəllimlər və ekspertlər dəvət edilməlidir.

Kənd təsərrüfatı məsləhət xidməti sistemində kadrların hazırlanmasının təşkilində müsbət məqamlarla yanaşı ciddi problemlər də ola bilər. Məsələn, kadrların hazırlanması lazımınca əlaqələndirilmir; kifayət qədər maliyyə vəsaiti ayrılmır; kadrların ixtisasının artırılması ilə məşğul olan müəssisələrin texniki təchizatı və proqram təminatı müasir tələblərə cavab vermir.

Kənd təsərrüfatı məsləhət xidmətinin kadr təminatının vəziyyətinin və bu sahədə mövcud problemlərin təhlili göstərir ki, hələlik kadrlar hazırlanması üçün dolğun sistem yaratmaq mümkün olmamışdır.

Öyrədilən şəxsin zaman və məkan etibarilə harada yerləşməsindən asılı olmayaraq müasir telekommunikasiya texnologiyalarının və texniki vasitələrin köməyilə müəllimlə dinləyici arasında qarşılıqlı təsir prosesini həyata keçirməyə imkan verən distansion təlim informasiya-məsləhət mərkəzləri mütəxəssislərinin hazırlanması və onların ixtisas səviyyəsinin artırılması üzrə perspektivli istiqamətlərdən biridir. Distansion təlim yol xərcləri, mənzil xərcləri və metodik vəsaitlərlə bağlı məsrəf maddələrini praktiki olaraq istisna edir. Məsləhət xidmətləri üçün distansion təlimdən istifadə edilməsi müxtəlif istiqamətlər üzrə mütəxəssislərin istehsalatdan ayrılmadan öyrədilməsinə, həmçinin öz mütəxəssislərinin hazırlanması prosesində qarşıya çıxan konkret problemləri həll etməyə imkan verəcəkdir. İnformasiya-məsləhət mərkəzlərinin işçiləri üçün distansion təlim planlaşdırılmış məsləhətləri, məsləhətçilərin ixtisas səviyyəsinin artırılması və onların təkrar hazırlıq keçərək mütəxəssis diplomu alması şəklində həyata keçirilə bilər.

Azərbaycanın aqrar sahəsində kənd təsərrüfatı məsləhət xidmətləri kadrlarının öyrənilməsində beynəlxalq proqram və layihələrin həyata keçirilməsinin müsbət nəticələri nəzərə alınaraq, bu istiqaməti daha da genişləndirmək, kənd təsərrüfatı məsləhət xidmətlərinin inkişafının mövcud vəziyyəti Azərbaycandakına yaxın olan başqa ölkələrin Azərbaycan şəraitinə adaptasiya edilə biləcək təcrübəsini geniş təbliğ etmək və bu təcrübədən istifadə etmək məqsədəuyğundur.

Məsləhətçilərin həm ölkədə, həm də xaricdə qabaqcıl kənd təsərrüfatı və emal müəssisələrinə baş çəkməsi təcrübəsindən geniş istifadə edilməsi qabaqcıl istehsalat təcrübəsinin yayılması üçün stimul olacaq, istehsalın idarə edilməsinin yeni texnologiya və metodlarının hərtərəfli öyrənilməsinə imkan verəcəkdir.

Gələcəyə istiqamətlənmiş perspektivli kadr siyasətinin həyata keçirilməsi üçün kənd əmtəə istehsalçılarının və əhalinin mənafelərini məsləhətçi mütəxəssislərin ixtisas səviyyəsi ilə uzlaşdırmağa imkan verən mütəmadi kadr planlaşdırılması olmalıdır. Planlaşdırmanın məqsədi – iş yerlərinin lazımi vaxtda, zəruri həcmdə onların qabiliyyətinə, istəklərinə və məsləhət xidmətləri bazarının tələblərinə uyğun yüksək ixtisaslı mütəxəssislərlə təmin etməkdir.

Aqrar sahənin innovativ inkişafı və kadr hazırlığı "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi" və "Azərbaycan respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsi"ndə əsas istiqamətlərdən biri kimi nəzərdə tutulur. Həmçinin dayanıqlı inkişaf prinsiplərinə əsaslanmaqla, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalına və emal sektorunun formalaşdırılmasına nail olmaq üçün strateji hədəflər müəyyən edilmişdir. Strateji yol xəritəsində ərzaq təhlükəsizliyinin təmin olunması, kənd təsərrüfatı sahəsində istehsal

vasitələri bazarının inkişafı, elmi-təminatın, təhsilin keyfiyyətinin yaxşılaşdırılması, gənc mütəxəssislərin bu sahəyə cəlb edilməsi yönəlmiş tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi, mövcud kadr potensialından səmərəli istifadə edilməsi əlverişli biznes mühitinin formalaşdırılması kimi məsələlər öz əksini tapır.

Beləliklə, kənd təsərrüfatı məhsulları istehsalında aparılan iqtisadi islahatlar, bütün resurslardan, ilk növbədə kadr potensialından istifadənin səmərəliliyinin artırılmasını tələb edir. Bu problem Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"ndə xüsusilə vurğulanmış və həyata keçirilməsi öz əksini tapmışdır. Qeyd edilmişdir ki, "Peşə təhsili və təlimi sistemində bir sıra problemlərin movcud olmasına baxmayaraq, olkə səviyyəsində aparılan məqsədyönlu islahatlar çərcivəsində, bütövlükdə, ölkə iqtisadiyyatında müşahidə olunan müsbət meyillər peşə təhsili sistemi qarşısında yeni tələblər qoyur. İqtisadiyyatın şaxələndirilməsi, neft-qaz sənayesi sahələri ilə yanaşı, qeyri-neft sektorunun yüksək əlavə dəyər yaradan sahələrinin inkişaf etdirilməsi istiqamətində görülən tədbirlər əmək bazarında rəqabətqabiliyyətli və ixtisaslı kadrlara tələbatı artırır. Bu baxımdan peşə təhsili və təlimi sistemi əmək bazarının bu cür artan və dinamik dəyişən tələbatını ödəyən qabaqlayıcı kadr hazırlığını təmin etməlidir".

# İSTEHSALIN İQTİSADİYYATI BÖLMƏSİ

## Respublikamızda toxuculuq sənaye müəssisələrinin inkişafı perspektivləri

*i.e.d., prof. MƏMMƏDOV Fizuli Əziz oğlu*
*Azərbaycan Texnologiya Universiteti*
*MƏMMƏDOVA Xədicə Fizuli qızı*
*Gəncə Dövlət Universiteti*

Son illərdə hayata keçirilən tədbirlər yüngül və toxuculuq sənaye müssisələrinin inkişafında mühüm nailiyyətlər əldə edilməsinə imkan vermişdir. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli 24 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında" (2004-2008-ci illər), Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli fərmanı ilə təsdiq edlimiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2009-2013-cü illər)" və Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 118 nömrəli fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2014-2018-ci illər)", həmçinin Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2014-cü il tarixli sərncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət proqramı"nda və eləcədə Azərbaycan Respublikası Prezidentinin imzaladığı iqtisadiyyatın inkişafının yol xaritəsində Azərbaycan Respublikası regionlarında toxuculuq və yüngül sənayenin inkişafı üzrə önəmli tədbirlər nəzərdə tutulmuş, bu tədbirlər əsasən icra edilmiş və icra edilməkdədir. Proqramın icrası toxuculuq, tikiş və ayaqqabı sənayesinin inkişafına müsbət təsir göstərmişdir. Proqramın icrası nəticəsində regionlarda çoxsaylı sənaye müəssisələri fəaliyyətə başlamış, bəzi sənaye müəssisələrinin fəaliyyəti yenidən qurulmuşdur.

30 aprel 2016-cı ilə tarixdə Hörmətli Prezidentimiz cənab İlham Əliyev Ağsu rayonuna və 10 aprel 2017-ci il tarixdə Yevlax şəhərinə səfərində keçirdiyi müşavirədə pambıqçılığın inkişafı ilə bağlı aşağıdakıları demişdir: "Sovet dövründə Azərbaycanda Ulu Öndər Heydər Əliyevin böyük zəhməti, səyləri nəticəsində hər il 800 min, 900 min, həttə 1 miyon ton pambıq istehsal olunurdu. Mən statistikaya baxdım keçən il cəmi 35 min ton pambıq istehsal olunub. Bu il 50 min hektarda pambıq əkiləcək əkin başlayıb və biz ən azı 100 min ton məhsul gözləyirik. Oxşar məsələ baramaçılığa və digər sahələrə də aiddir."

İşin məqsədi müasir iqtisadi şərasiti nəzərə alınmaqla yüngül sənaye və toxuculuq sənayesi məhsullarının rəqabətqabiliyyətinin yüksəldilməsi üzrə nəzəri, metodiki və habelə praktiki tövsiyyələr işlənib hazırlanmasından ibarətdir.

Azərbaycan Respublikasında yüngül və toxuculuq sənayesinin müasir vəziyyətinin təhlili göstərdi ki, daxili bazarda, eləcə də ümumi daxili məhsulda və sənayenin ümumi məhsulunun tərkibindəbu sahə məhsullarınınxüsusi çəkisi çox aşağıdır. Araşdırmalar göstərir ki, son illərdəyüngül və toxuculuq sənayesi məhsullarının ixrac potensialı və rəqabətqabiliyyəti də aşağı olmuşdur. Bunun əsas səbəblərindən biri xammal istehsalı müəssisələri ilə yüngül sənaye müəssisələri arasında inteqrasiya münasibətlərinin zəif inkişafı və rəqabətqabiliyyətiistehsalın stimullaşdırılması tədbirlərinin reallaşdırılmasında yol verilən nöqsanlardır. Bu isə mövcud iqtisadi şəraitdə yüngül sənaye müəssisələrinin rəqabət statusunu əvvəlcədən müəyyən etməyə imkan verir/1/. Qeyd edilənləri

ümumiləşdirərək müasir mərhələdə sahə müəssisələrinin fəaliyyətinin və rəqabətqabiliyyətli istehsalın əsas problemlərinin aşağıdakılardan ibarət olduğunu qeyd etmək olar:

- xammal istehsalı ilə məşğul olan müəssisələrləyüngül və toxuculuq sənayesi müəssisələri arasında qarşılıqlıfəaliyyətin pərakəndəliyi;
- toxuculuq sənayesi üçün zəruri olan yerli xammal və materialın (pambıq lifi, yüksək keyfiyyətli yun, kimyəvi və sintetik liflər, rəngləyicilər və s.) kifayət qədər olmaması;
- daxili bazarda idxal əmtəələrinin yerli məhsullarla müqayisədəxüsusi çəkisinin daha yüksək olması;
- avadanlığın texniki səviyyəsinin aşağı olması və əsas istehsal fondlarının müəyyən hissəsinin yüksək dərəcədə köhnəlməsi;
- əsas fondların təzələnməsində investissiyaların həcminin azalması;
- xərclərin tərkibində material xərclərinin artması və ilk növbədə təbii inhisarçılıq subyektlərinin əmtəə və xidmətlərinin qiymətlərinin artması;
- sahənin texnoloji proseslərində, avadanlıqlarda innovasiyaların demək olar ki, tətbiq olunmaması;
- istehsal güclərindən istifadə faizinin aşağı olması;
- nəqliyyat xidmətlərinin dəyərinin yüksək olması, nəticədə daşınma xərclərinin baha başa gəlməsi;
- işçilərinmüəyyən qisminin peşəkarlıq səviyyəsinin aşağı səviyyəsi;
- əməyin stimullaşdırılması tədbirlərinin aşağı səviyyəsi.

Toxuculuq və yüngül sənayedə rəqabətqabiliyyətli istehsalın dövlət stimullaşdırılması tədbirlərinin təhlili deməyə imkan verir ki, əsas diqqət kəmiyyət və keyfiyyət xarakteristikalarına yönəlsə də makro amillər nisbətən arxa plana keçmiş, mikro amillər üstünlük təşkil etmişdir. Bu isə idxalla müqayisədə daxili istehsalın rəqabət münasibətlərində uduzması ilə nəticələnir. Yüngül və toxuculuq sənayesi müəssisələrinin inkişafının nəzəri problemləri müxtəlif miqyaslı və müxtəlif istiqamətli dəyişikliklərin mənimsənilməsini nəzərdə tutur. Araşdırmalar göstərdi ki, bu zaman çox tez baş verən dəyişikliklərə, həmçinin sabitliyə can atmağa əsaslanan yanaşmalar özünü döğrultmur. Elmi işdə bu məsələlər geniş təhlil edilmiş və elmi əsaslandırılmış təklif və tövsüyyələr işlənmişdir.

## Ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən islahatlar

*i.f.d., dos. HÜSEYNOVA Emiliya Yəhya qızı*
*Sənayenin təşkili və idarəetmə kafedrasının müdiri*

Hər bir ölkənin, cəmiyyətin inkişafı orada mövcud olan siyasi sabitlikdən bilavasitə asılıdır. Bu gün ölkəmizin bütün dünyada baş verən qlobal böhrandan kəskin şəkildə təsirlənməməsi, siyasi çaxnaşma və təlatümlərdən uzaq durması birinci növbədə ölkəmizin müdrik şəkildə, uzaqgörənliklə və düzgün strateji yol izləməklə idarə olunması ilə bağlıdır. Əsası Ulu öndər tərəfindən qoyulmuş və dahiyanə şəkildə hazırlanmış siyasi kursun bu gün möhtərəm Prezidentimiz İlham Əliyev cənabları tərəfindən uğurla həyata keçirilməsi ölkəmizin sosial-iqtisadi inkişafındakı dayanıqlılığın başlıca səbəbidir. Ölkəmizin rəqabətədavamlı inkişafının təmin edilməsində qeyri-neft sektorunu vacib amil kimi önə çəkən dövlət başçımızın bu məqsədlə izlədiyi siyasət və apardığı islahatlar, iqtisadiyyatın

şaxələndirilməsini reallığa çevirib. Həyata keçirilən islahatlar içərisində ərzaq təhlükəsizliyinin təmin edilməsi məsələləri xüsusi yer tutur.

Ərzaq təhlükəsizliyi iqtisadi təhlükəsizlik problemidir. Təhlükəsizlik amili xarici və daxili olmaqla bütöv bir sistem yaradır. Ərzaq təhlükəsizliyi daxili təhlükəsizlik amilidir. Daxili təhlükəsizlik siyasətinin həyata keçirilməsinin məqsədi sistemi və ya dövləti risklərdən qorumaqdır. Bu baxımdan ərzaq təhlükəsizliyi məsələsinə yanaşsaq, onda belə bir fikrə gələrik; məcmu istehlakı idxal asılılığından azaltmaqla yerdə qalan tələbatın yerli istehsal hesabına təmin edilməsi. Bu kombinasiya elə effektiv həyata keçirilməlidir ki, ölkənin təhlükəsizlik sistemi böhranla rastlaşmasın. Ümumiyyətlə, təhlükəsizlik və inkişaf anlayışları biri-birindən ayrılmazdır. İnkişafını daimi etmək istəyən dövlət təhlükəsizlik sistemini həll etməlidir. Və ya təhlükəsizliyi olmayan dövlətin sabit inkişafı ola bilməz. Hətta ərzaq təhlükəsizliyi məsələsinin strateji məsələ olduğunu prioritet hesab edən bəzi dövlətlər hətta onu öz konstitusiyalarına belə daxil ediblər.

Qeyd etmək lazımdır ki, hər bir ölkənin əsas inkişaf dinamikasını şərtləndirən, istiqamət verən sənaye və kənd təsərrüfatıdır. Əhalisinin təqribən yarısı bölgələrdə yaşayan ölkəmizdə ərzaq təhlükəsizliyinin aradan qaldırılması, vətəndaşlarımızın ərzağa olan daxili tələbatını başlıca olaraq respublikanın öz potensialı hesabına qarşılaya bilməsi üçün regionlarda infrastruktur sahələrinin yaradılması və kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədi ilə bu gün mühüm islahatlar həyata keçirilib və bu istiqamətdə işlər davam etməkdədir. Təsadüfi deyil ki, cənab Prezidentin imzaladığı sərəncamla 2015-ci il ölkəmizdə “Kənd təsərrüfatı ili” elan edilmiş və eyni zamanda öz çıxışlarında Azərbaycan üçün hər ilin “Kənd təsərrüfatı ili” kimi qəbul edilməsinin vacibliyini qeyd etmişdir. Ölkəmizdə aqrar sahəyə qoyulan investisiyaların həcmi hər il mütəmadi olaraq artmaqdadır. Dövlət tərəfindən kənd təsərrüfatı ilə məşğul olan sahibkarlara xüsusi kreditlər, subsidiyalar verilməkdə, eyni zamanda əkinçilər güzəştli şərtlərlə texnika və gübrə ilə təmin edilməkdədirlər. Hətta artıq ölkəmizdə kənd təsərrüfatı avadanlıqlarına olan ehtiyyacın qarşılanması məqsədi ilə bu avadanlıqları istehsal edən yerli müəssisələrimiz də fəaliyyətə başlamışdır. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair, Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı, Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün, 2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair dövlət proqramları, 6 dekabr 2016-cı il tarixdə Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi qəbul edilmiş və uğurla həyata keçməkdədirlər. Əkinçiliklə məşğul olmaq istəyən vətəndaşlarımızın torpaqla təmin edilməsi və vergilərdən azad edilməsi islahatları xüsusi ilə mühüm əhəmiyyət kəsb edir.

Aqrar sahənin inkişafı istiqamətində Azərbaycanda həyata keçirilən torpaq islahatını vurğulamaq lazımdır. Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan islahatlar nəticəsində sovet dövründən qalan kolxoz və sovxozlar ləğv olundu, torpaqlar əsil sahiblərinə - kəndlilərə verildi. Ölkədə neft sektorunda əldə edilən uğurlarla bir vaxtda aqrar sektorda tarixi əhəmiyyətli bir sənəd - "Torpaq islahatı haqqında" qanun qəbul olundu.

Müharibə şəraitində yaşayan bir ölkə kimi Azərbaycanın ərzaq, yaxud qeyri-ərzaq olmasından asılı olmayaraq, istənilən strateji məhsulların müəyyən ehtiyatlarına sahib olması vacib amildir. 2016-cı ildə möhtərəm Prezidentimizin sərəncamı ilə ölkəmizdə taxil fondu yaradıldı və müxtəlif kənd təsərrüfatı anbarlari, soyuducular inşa olundu. Ümumiyyətlə, milli iqtisadiyyatın inkişafında dönüş yaradılmasına nail olunması istiqamətində görülən işlər içərisində strateji əhəmiyyətli məhsullar daim diqqət mərkəzimizdə olmalıdır. Milli Məclisdə strateji məhsulların demək olar ki, hamısı haqqında ayrılıqda qanunlar qəbul olunmuşdur. Taxılçılıq, üzümçülük, çayçılıq, pambıqçılıq və s.

haqqında qanunlardan bəhs etmək mümkündür. Təcrübə göstərir ki, bu sahələrdə qəbul edilmiş qanunlardan sonra ölkəmizdə bu məhsulların əkilib-becərilməsi, yüksələn istiqamətdə inkişafı prosesi izlənməkdədir. Təkcə ərzaq təhlükəsizliyinin təminatında strateji əhəmiyyətə malik olan taxılçılıq yönündən baxsaq son dövrlərdə taxıl istehsalının artması özünütəminetmə səviyyəsinin yüksəlməsinə və ölkəmizin idxala olan asılılıqdan qurtarılması istiqamətində mühüm yol qət etmişdir.

Bu gün ölkəmizdə möhtərəm Prezidentimiz tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyasının prioritetlərindən biri sözsüz ki, sahibkarlığın inkişafı mövzusudur. Ölkə başçısı tərəfindən “Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır” devizi altında biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması ilə bağlı ardıcıl tədbirlər həyata keçirilmiş, təsdiq edilmiş strateji yol xəritələrində cari, orta və uzun müddətli dövr üçün iqtisadiyyatın əsas sektorları üzrə inkişaf hədəfləri və istiqamətləri müəyyən edilmiş, xüsusi ilə sahibkarlara geniş dəstək verilərək iqtisadi islahatlar davam etdirilmişdir. Bu baxımdan hüquqi bazanın təkmilləşdirilməsi, sahibkarlığa dövlət dəstəyinin genişləndirilməsi, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, vergi yükünün azaldılması, sağlam rəqabətin təmin edilməsi istiqamətlərində nəzərəçarpacaq dərəcədə geniş miqyaslı işlər həyata keçirilmişdir.

Sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və yoxlamaların iqtisadiyyatımızın inkişafına göstərdiyi mənfi təsirləri və bu sahədə çoxsaylı şikayətləri əsas götürən cənab Prezident, güclü siyasi iradə nümayiş etdirərək “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Milli Məclisə qanun layihəsi göndərdi və müzakirə olunaraq 2015-ci ilin oktyabr ayında 2 il müddətinə yoxlanılmaların dayandırılması ilə bağlı qanun qəbul edildi. Eyni zamanda, son illərdə istər kənd təsərrüfatının inkişafı, istərsə də sənayeləşmə istiqamətində qanunvericilik bazası daha da mükəmmələşdirilmiş, biznes mühitinin inkişafında sahibkarlar üçün xüsusi əngəl törədən lisenziyalar və icazələr təkmilləşdirilərək müvafiq qanun qəbul edilmişdir. Həmçinin ixrac potensialımızı inkişaf etdirmək, xarici ölkələrlə və şirkətlərlə qarşılıqlı faydalı ticarət əlaqələrini genişləndirmək, ölkəmizə xarici valyuta axımını təmin etmək məqsədi ilə yerli istehsalçılar və fermerlərə xüsusi dəstək göstərilməsi istiqamətində yeni qanunlar qəbul edilmiş və bu sahədə dövlət siyasəti uğurla həyata keçməkdədir.

## Qeyri-neft məhsullarının ixracının artırılması yolları

*i.f.d., dos. QARAYEV Maarif Şərif oğlu*
*Azərbaycan Texnologiya Universiteti*

Son illərdə dünyada hökm sürən maliyyə çətinliklərinin, dünya bazarında neftin qiymətinin aşağı düşməsinin Azərbaycana təsirini neytrallaşdırmaq üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə qeyri-neft sektorunun inkişafı, bu sahənin məhsullarının ixracının artırılması qarşıya məqsəd qoyulub. Bu istiqamətdə aparılan islahatlar öz müsbət nəticəsini göstərir. Ölkədə çoxsaylı elektrik enerjisi, qaz, su, suvarma, yol-nəqliyyat və digər infrastruktur layihələri həyata keçirilib. Təkcə bu il 150 min hektardan çox torpağı əkin dövriyyəsinə cəlb etmək və buradan bol məhsul götürmək üçün suvarma suyu və elektrik enerjisi ilə təminat layihələrinə 250 milyon manatdan çox dövlət vəsaiti yönəldilib. Eləcə də qeyri-neft sənayesi və kənd təsərrüfatı, o cümlədən fındıqçılıq, üzümçülük və şərabçılıq, tütünçülük, pambıqçılıq, baramaçılıq, ipəkçilik sahələrində qanunvericiliyin

təkmilləşdirilməsi, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması təmin edilir, müxtəlif dövlət dəstəyi mexanizmləri həyata keçirilir. Bunlar turizm və tranzit potensialının genişləndirilməsi və digər sektorların inkişafına da aiddir.

Azərbaycan iqtisadiyyatı bundan sonra yalnız islahatlar, innovasiyalar, texnologiyalar və qeyri-neft sektorunun hesabına inkişaf etdiriləcək. Bu il aprelin 17-də Yevlaxda keçirilən qeyri-neft ixracatçılarının respublika müşavirəsində Prezident İlham Əliyev ölkənin yeni iqtisadi modelinin əsas hədəfinin məhz bunlar olduğunu açıqlayıb. Sözügedən tədbirdə Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramlarının icrasının böyük bəhrə verdiyini qeyd etmişdir: “Bir milyon 700 min yeni iş yeri yaradılmışdır ki, onların 1 milyon 300 mini daimi iş yeridir. Regionlarımız abadlaşıb, şəhərlərimiz gözəlləşib. İndi hər bir bölgəyə səfər edərkən gözəllik, abadlıq görürsən. Bütün bunları biz etdik. Bunlar bizim siyasətimizin nəticəsində mümkün olmuşdur. Bu bir daha onu göstərir ki, tutduğumuz yol düzgün yoldur və bu təşəbbüslərin yerinə yetirilməsi artıq tam yeni bir vəziyyət yaratdı. Biz bu gün inamla deyə bilərik ki, Azərbaycan öz iqtisadi potensialını şaxələndirə bilib”.

Hazırda ölkədə nəhəng sənaye müəssisələri yaradılır. Məqsəd onların buraxdığı xammaldan səmərəli istifadə edərək yeni fabrik və zavodlar qurmaq və nəticədə Azərbaycanda buraxılan məhsulların ixracını artırmaq, başqa sözlə, idxaldan asılılığı azaltmaqdır. Məsələn, Sumqayıt Kimya Sənaye Parkındakı zavodların böyük potensialı var. Bu il Mingəçevir Sənaye Parkında, Neftçala, Balaxanı, Pirallahı sənaye zonalarında işlər geniş vüsət alıb.

Gələcəkdə hər rayonda müasir sənaye zonasının olması nəzərdə tutulur.

“Made in Azerbaijan” brendinin təbliği və inkişaf etdirilməsi istiqamətində dövlət başçısının imzaladığı fərmanlar və verdiyi göstərişlər müsbət nəticəsini göstərir. Hazırda üzərində Azərbaycanın adı yazılmış “Azərçay” markası, “Saville” və “Bizim tarla” nar şirəsi xaricdə rəğbətlə qarşılanır. “Azərçay” dünyanın 50-dən çox hava limanında “Duty Free” mağazalarında alıcılara təqdim olunur. 2017-ci ilin yanvar ayında 18 şirkətin iştirakı ilə Almaniyaya təşkil edilən ixrac missiyası çərçivəsində bu ölkəyə çayın və narın ixracı ilə bağlı ilkin razılaşma əldə edilib. Nar şirəsinin İsveçə ixracı ilə bağlı müqavilə imzalanıb. Pakistan və Əfqanıstana həyata keçirilən ixrac missiyaları çərçivəsində quru süd və süd məhsulları, nar şirəsi, qənnadı məhsulları, mebel, boru, metal konstruksiyaları və digər tikinti materialları ixracı üzrə, Qətərə ət, nar şirəsi, Naftalan neftindən hazırlanan kosmetoloji və tibbi məhsulların satılması ilə bağlı ilkin razılaşmalar əldə edilib.

Bu cür misalların daha çox olması, həm də tək bir sahədə deyil, qeyri-neft sənayesinin bütün sahələrində olması üçün ölkədə həqiqətən çoxistiqamətli iş aparılır.

Qeyri-neft məhsullarının ixracının təşviqi istiqamətində həyata keçirilən tədbirlər sahibkarların öz məhsullarını ixrac etməyə marağını artırıb. Bu, rəqəmlərdə də öz əksini tapır. Məsələn, 2017-ci ilin birinci rübündə xaricə ixrac edilən tərəvəz 45 və meyvə 20 faiz, pambıq 3,6, süd məhsulları 3,6, spirtli və spirtsiz içki 2,3 dəfə artıb. Sənaye sahəsində də ixrac çoxalıb. Belə ki, kimya sənayesi məhsullarının, toxuculuq və alüminium məmulatlarının, plastiklərin, müxtəlif avadanlıq və mexaniki qurğuların ixracı xeyli çoxalıb.

“2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı” üzümçülüyün və şərabçılığın inkişafına böyük dəstək verib. Nəticədə Azərbaycanın şərab və konyakları beynəlxalq sərgi və dequstasiyalarda yüksək qiymətləndirilir. Son bir neçə ay ərzində Azərbaycan şərablarının Çində keçirilən sərgidə qızıl medala, Bolqarıstanda keçirilən müsabiqədə gümüş medala layiq görülməsi bunun nəticəsidir.

Azərbaycan Şərab İstehsalçılar və İxracatçıları Assosiasiyası yarandığı qısa müddət ərzində ətrafında 25-dən çox müəssisəni birləşdirib. Bu sahədə çalışan mütəxəssisləri işə cəlb edib. Şərabçılıq sahəsində mövcud potensialı tam reallaşdırmaq üçün genişmiqyaslı işlər görülür.

Təhlillər göstərir ki, Azərbaycanın bir çox məhsullarının ixracının artırılması üçün geniş imkanlar mövcuddur. Bunun üçün hərtərəfli iş aparılmalıdır. İxracyönümlü müəssisələrin yaradılması, prioritet ixrac bazarlarına ticarət evlərinin açılması və nümayəndəliklərinin təyin olunması, ixrac prosedurlarının daha da sadələşdirilməsi, məhsullara verilən sertifikatların xarici ölkələrdə tanınması, keyfiyyət, qablaşdırma və etiketlənmə sahəsində beynəlxalq standartların tətbiqi, ixrac üzrə mütəxəssislərin hazırlanması böyük əhəmiyyət daşıyır və təqdirəlayiq haldır ki, ölkəmizdə bu sahədə tədbirlər davam edir.

Qeyri-neft məhsullarının ixracını artırmaq üçün, ilk növbədə daxili tələbatın yerli məhsullarla təmin edilməsi vacib şərtdir. Bu mövzu daim gündəlikdə olsa da, hələlik buna tam nail olunmamışdır. Ona görə də növbəti 3-4 il ərzində respublika əhalisinin daxili istehsal əsasında əsas istehlak mallarıyla tam şəkildə təmin edilməsi istiqamətində görülən işlərin sürətləndirilməsi zəruridir.

## Qloballaşma şəraitində ərzaq təhlükəsizliyinin təmin olunmasının elementlərinə dair

*i.f.d. QASIMOV Cəlal Camal oğlu*
*İqtisadiyyat kafedrasının dosenti*

Müasir dövrdə ərzaq təhlükəsizliyi ən mühüm qlobal problemlərdən biri kimi çoxsaylı sosial, iqtisadi texnoloji, coğrafi və digər amillərin təsiri ilə təşəkkül tapmışdır. Bütövlükdə, qlobal səviyyədə ərzaq probleminin həlli hər bir ölkənin qarçılaşdığı sosial-iqtisadi və dünya üçün ümumi olan problemlərin beynəlxalq müstəvidə birgə həlli ilə bağlıdır. Bu prosesdə məhsul istehsalının təşkili, kənd əhalisi gəlirlərinin dinamikası və bölgüsü, sənayeləşmə və urbanizasiya prosesi, şəhərlərin real tələbindən artıq kəndlərdən olan axın və digər amilləri qeyd etmək mümkündür. Qlobal ərzaq probleminin yaranmasında təbii ehtiyatların mövcudluğu, iqtisadi inkişaf səviyyəsi, yığımın artım sürəti, kənd təsərrüfatının maddi-texniki silahlanma səviyyəsi, qabaqcıl istehsal metodlarından istifadə edilməsi, əhalinin məşğulluq və təhsil səviyyəsi, iqtisadiyyatda dövlətin rolu, siyasi dairələrin inkişaf səviyyəsi, demokratik idarəçilik formalarının mövcudluğu və s. kimi amillər də mühüm rol oynayırlar.

Fikrimizcə, ərzaq problemi təkcə kənd təsərrüfatı çərçivəsində həll olunan məsələ deyildir. Ümumiyyətlə, aqrar sahənin ərzaq təminatında payı – ölkənin texnoloji baxımdan hansı inkişaf səviyyəsində olması ilə də bağlıdır. Ərzaq bazarının mövcud vəziyyəti isə, öz növbəsində aqrar bölmənin fəaliyyət ahəngdarlığına mühüm təsir imkanlarına malikdir. Bu bazarının fəaliyyətini xarakterizə edən göstəricilər – istehlak səbətinin dəyəri, istehsalçıların gəlirləri, qiymətlər kimi göstəricilər aqrar sahənin inkişaf strategiyasını bu və ya digər zaman kəsiyində hansı prioritetlər əsasında həyata keçirilməsindən asılı olaraq formalaşır.

Dünya birliyinin üzvü olan hər bir ölkə öz əhalisini yüksək keyfiyyətli və ekoloji cəhətdən təmiz ərzaq məhsulları ilə təmin etməyə çalışır. Bu zaman isə, həm ölkənin özündə istehsal olunan, həm də başqa ölkələrdən gəlirlərin ərzaq məhsullarından istifadə edilir.

Yaxud, istənilən bir ölkənin əhalisinin ərzaq məhsullarına olan tələbatını ödəmək üçün, həm bu ölkənin özündə istehsal olunan, həm də xarici ölkələrdən idxal olunan məhsuldan istifadə edilir. Lakin bütün hallarda həmin ölkələr, bir qayda olaraq özlərinin istehsal etdiyi ərzaq məhsullarına üstünlük verir və əhalinin tələbatını imkan daxilində yerli istehsal hesabına ödəməyə çalışırlar. Bu isə heç də təsadüfi xarakter daşımır və onunla əlaqədardır ki, ərzaq təhlükəsizliyi kompleks xüsusiyyətlər kəsb edən sosial-iqtisadi xarakterli mühüm bir problemdir.

Müasir dövrdə heç bir ölkənin tədric olunmuş və ya fərdi qaydada ərzaq təhlükəsizliyinin təmin edilməsi qeyri-mümkündür. Bu baxımdan, ölkəmiz qloballaşan dünyanın bir hissəsidir. Dünyada baş verən iqtisadi proseslər təbii ki, Azərbaycandan yan ötmür və öz təsirini göstərməkdədir.

Dünya ərzaq bazarının konyukturasında baş verən proseslər isə, milli istehsalın strukturunun və bazar konyukturasının formalaşmasında mühüm rol oynayır. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” ilə bağlı, indiyədək bir sıra mühüm tədbirlər həyata keçirilməsi nəzərdə tutulmuşdur. Belə ki, aqrar sahənin daha da inkişaf etdirilməsi, əhalinin ərzaq təminatının yaxşılaşdırılması üçün aqrotexniki və aqrokimyəvi xidmətin səviyyəsinin yüksəldilməsi, istehsalçıların yeni texnikalarla təmin edilməsi, toxumçuluğun və damazlığın, baytarlıq xidmətinin inkişaf etdirilməsi, mövcud emal müəssisələrinin modemləşdirilməsi, xidmət infrastrukturunun yaradılması həyata keçiriləcək əsas prioritetlərdən biri kimi qarşıya qoyulmuşdur. Müşahidələr göstərir ki, bu proqram çərçivəsində həyata keçirilən tədbirlər, ölkə regionlarda aqrar sahibkarlığın inkişafını sürətləndirərək, mövcud əmək ehtiyatları və təbii resurslardan səmərəli istifadəyə imkan vermiş, iqtisadiyyatın tarazlı və davamlı inkişafına, infrastrukturun müasirləşdirilməsinə, əhalinin məşğulluğunun artırılmasına yoxsulluğun səviyyəsinin azaldılmasına etibarlı zəmin yaratmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin cari ildə keçirilmiş 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin aşağıdakı fikirləri maraq doğurur ki, “ərzaq təhlükəsizliyi ilə bağlı daim biz öz işlərimizi aparırıq... Yenə də demək istəyirəm, bizim tam imkanımız var ki, özümüzü ərzaq məhsulları ilə yüz faiz təmin edək. Nəinki təmin edək, eyni zamanda, böyük ixrac potensialı da yaradaq. Biz burada iki istiqamət üzrə getməliyik. Əlbəttə, bitkiçilik, heyvandarlıq sahələrində intensiv metodlara daha da çox üstünlük verilməlidir. Eyni zamanda, iri fermer təsərrüfatlarının yaradılması prosüsi də başlamışdır. Bizim hələ ki, dövriyyədə olmayan böyük torpaq sahələrimiz vardır. Orada meliorativ tədbirlər, infrastruktur layihələri həyata keçirilməlidir ki, biz on minlərlə hektar yeni torpaqları dövriyyəyə buraxaq. Beləliklə, bu, həm yeni iş yerlərinin açılmasına gətirib çıxaracaqdır, eyni zamanda, ərzaq təhlükəsizliyini tam şəkildə təmin edəcəkdir. Ərzaq təhlükəsizliyi eneji təhlükəsizliyi kimi, bəlkə də ondan da vacib olan məsələdir. İstisna edilmir ki, gələcək illərdə bu, əsas məsələlərdən birinə çevriləcəkdir. Çünki qlobal meyllər bunu göstərir”.

Hesab edirik ki, qarşıya qoyulmuş bu vəzifələrin həyata keçirilməsi – aqrar sahənin dayanıqlı inkişafına böyük təkan verməklə, Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin mühüm tərkib hissəsi olan ərzaq təhlükəsizliyinin səmərəli təmin edilməsində və keyfiyyətli ərzaq məhsullarının dünya bazarına ixracında mühüm rol oynayacaqdır.

Heydər Əliyev siyasətinin ən layiqli davamçısı, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020- gələcəyə baxış” inkişaf Konsepsiyasında aqrar sahənin yaxşılaşdırılması

məsələlərinə toxunaraq qeyd edilmişdir ki, "kənd təsərrüfatı istehsalçılarının müasir texniki, texnoloji avadanlıq, gübrə, toxum və ting ilə təminatı yaxşılaşdırılacaqdır. Aqrar sahədə elmi təminat və kadr hazırlığının daha da yaxşılaşdırılması nəzərdə tutulur. Kənd təsərrüfatının müxtəlif sahələrinin intensiv inkişaf etdirilməsi üçün stimullaşdırıcı tədbirlər görüləcək, iri taxılçılıq təsərrüfatlarının yaradılması təşəbbüsləri dəstəklənəcəkdir. Kənd təsərrüfatının intensiv inkişafı, mövsümü qiymətlərin tənzimlənməsi, məhsul itkisinin qarşısının alınması, daxili bazarın qorunması və ixrac potensialının artırılması baxımından bölgələrdə ən müasir texnologiyalar əsasında anbar komplekslərinin yaradılmasının əhəmiyyəti nəzərə alınaraq, bu sahədə ardıcıl tədbirlər davam etdiriləcəkdir. Sahibkarların vərdiş və biliklərinin artırılması üçün informasiya və məsləhət xidmətlərinin əhatə dairəsi genişləndiriləcək, baytarlıq və fitosanitar sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq daha da inkişaf etdiriləcəkdir".

Yuxarıda göstərilənlərlə yanaşı, aqrar sahədə bazar infrastrukturunun inkişafı üçün aşağıdakı istiqamətlərdə tədbirlərin də həyata keçirilməsini zəruri hesab edirik:

- aqrar sahədə maddi-texniki bazasının daha da gücləndirilməsi;
- mütərəqqi təchizat formalarınını (aqrolizinq, aqroservis və s.) genişləndirilməsi;
- istehsal vasitələrinin ayrı-ayrı zonalar və regionlar üzrə təminatı qaydalarının düzgün müəyyən edilərək, müvafiq dövlət sifarişlərinin həcm və çeşidi ilə əlaqələndirilməsi;
- aqrar sahənin istehsal vasitələri bazarında əmtəə dövriyyəsinə xidmət göstərən inkişaf etmiş bazar infrastrukturunun yaradılması.

## Strateji Yol Xəritəsi - Azərbaycan iqtisadiyyatının zəif və üstün cəhətlərinin təhlili kontekstində

*TAĞIYEV Arif Məmmədhəsən oğlu*
*İqtisadiyyat kafedrasının baş müəllimi*

Son illərdə Azərbaycan Respublikasında ölkənin sosial-iqtisadi inkişaf konsepsiyasını və strateji inkişaf istiqamətlərini əhatə edən dövlət sənədləri içərisində "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi" özünəməxsus xüsusiyyətləri ilə seçilir. Strateji Yol Xəritəsinin əsas yeniliyi və üstün cəhətlərindən biri ondan ibarətdir ki, bu sənəddə ölkə iqtisadiyyatının müasir durumu, əldə edilmiş nailiyyətləri, onun üstün və zəif cəhətləri, gələcəkdə gözlənilən təhlükələr və imkanlar konkret olaraq öz əksini tapmış, heç nə gizlədilmədən elmi cəhətdən əsaslandırılmış təhlili aparılmış və real vəziyyəti üzə çıxarılmışdır. Milli iqtisadiyyatın ayrı-ayrı sektorlarının inkişafı üzrə yol xəritələrinin hazırlanmasında bu reallıqlar öz əksini tapmış, onun güclü və zəif tərəfləri nəzərə alınmaqla strateji inkişaf istiqamətləri və məqsədləri müəyyənləşdirilmiş, onların reallaşdırılması yolları və vasitələri nəzərə alınmışdır.

Strateji Yol Xəritəsində Azərbaycan iqtisadiyyatının mövcud vəziyyətinin təhlilində iqtisadi inkişaf və ya iqtisadi artım mərhələlərinə əvvəlki dövrlərdən fərqli olaraq 3 mərhələdə deyil, artıq 4 mərhələdə yanaşılmışdır:

-birinci mərhələ, 1991-1994-cü illəri əhatə edən "tənəzzül dövrü";

-ikinci mərhələ, 1995-2003-cü illəri əhatə edən "dərin iqtisadi islahatlar, keçid və bərpa dövrü";

-üçüncü mərhələ, 2004-2014-cü illəri əhatə edən "iqtisadi inkişaf və tərəqqi dövrü";

- və yeni, dördüncü mərhələ kimi 2015-ci ildən sonrakı dövrü əhatə edən "aşağı neft qiymətləri dövrü".

Ölkə iqtisadiyyatının mövcud vəziyyətinin qiymətləndirilməsində 2011-ci ildən sonrakı dövrə xüsusi diqqət yetirilmişdir. Xüsusilə son illərdə dünya təsərrüfatında baş vermiş maliyyə böhranları, iqtisadi disproporsiyalar, dünya bazarlarında neftin qiymətinin kəskin şəkildə ucuzlaşması, eyni zamanda ölkədə neft hasilatının azalması 2015-ci ildən başlayaraq Azərbaycan iqtisadiyyatına da öz mənfi təsirini göstərməyə başlamışdır. Nəticədə əsas makroiqtisadi göstəricilər üzrə iqtisadi artım tempi müəyyən qədər səngimiş, bəzi göstəricilər üzrə isə hətta aşağı düşmüşdür. Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən 2005-2007-ci illərdə ÜDM üzrə artım tempi 125-135 faiz həddində olduğu halda, sonrakı illərdə, xüsusilə son 5 ildə kifayət qədər aşağı düşərək 1,1-2,2 faiz səviyyəsində (2013-cü il istisna olmaqla-5,8faiz) qərarlaşmışdır. 2016-cı ildə isə müqayisəli qiymətlərlə 2015-ci ilə nisbətən 3.8 faiz az məhsul istehsal edilmişdir. Dövlət büdcəsinin xərcləri 2015-ci ildə 2014-cü ilə nisbətən 4,9 faiz, 2016-cı ildə isə 2015-ci ilə nisbətən 0,2 faiz aşağı düşmüş, əsas kapitala yönəldilmiş vəsaitlər 2015-ci ildə 2014-cü ilə nisbətən 11,1 faiz, 2016-cı ildə isə 2015-ci ilə nisbətən 26,1 faiz aşağı düşmüş, xarici ticarət dövriyyəsi 2015-ci ildə 2014-cü ilə nisbətən 4,0 faiz, 2016-cı ildə isə 2015-ci ilə nisbətən 11,0 faiz aşağı düşmüşdür. Əsas zərbə ölkə valyutasına dəymiş, onun məzənnəsi qısa müddətdə iki dəfəyə qədər ucuzlaşmış, dövlət borcunun ödənilməsi üçün dövlətin fiskal yükü müəyyən qədər ağırlaşmışdır. Xarici ticarət saldosunun zəifləməsi tədiyyə balansına və ölkənin valyuta ehtiyatlarının həcminə öz təsirini göstərmişdir.

Beləliklə, son illərdə ölkə iqtisadiyyatında müşahidə olunan problemlərin və geriliyin, onun neft sektorundan asılılığının aradan qaldırılması, iqtisadiyyatın şaxələndirilməsi, iqtisadi aktivliyin bərpa edilməsi, institusional islahatların sürətləndirilməsi və milli iqtisadiyyatın keyfiyyətcə yeni mərhələyə keçidinin təmin olunması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" və onun icra mexanizmləri kimi 6 dekabr 2016-cı il tarixli Fərmanla təsdiq olunmuş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" sənədlər toplusu qəbul edilmiş və onların icrasına start verilmişdir.

Qəbul edilmiş sənədlərlə tanışlıq göstərir ki, Strateji Yol Xəritəsində ölkə iqtisadiyyatının əsas aparıcı sahələrindən biri kimi neft-qaz sektorunun imkanları və üstünlükləri nəzərə alınmaqla, bu imkanlardan daha səmərəli istifadə etməklə iqtisadiyyatın digər istehsal, xidmət və sosial sektorlarının inkişafı əhatə olunmuşdur.

Strateji Yol Xəritəsində diqqəti çəkən məqamlardan biri ondan ibarətdir ki, ölkə iqtisadiyyatının üstün və ya güclü tərəfləri kimi, eyni zamanda onun zəif tərəfləri də öz əksini tapmışdır. Ölkə iqtisadiyyatının zəif tərəfləri kimi bu vaxta kimi müxtəlif obyektiv və subyektiv səbəblərdən aradan qaldırılmayan və ya aradan qaldırılması mümkün olmayan konkret problemlər əks olunmuş və onların aradan qaldırılmasını təmin edəcək kompleks tədbirlər sistemi və ya ayrı-ayrı sahələrin inkişafı üzrə Strateji Yol Xəritələri hazırlanmışdır. Bu mənada milli iqtisadiyyatın zəif tərəfləri kimi əsasən aşağıdakı mövcud problemlərə daha çox diqqət yetirilmişdir:

-iqtisadiyyatın və ixracın zəif şaxələndirilməsi;

-ölkə iqtisadiyyatının əsasən neft-qaz gəlirlərindən asılılığı;

-birbaşa xarici investisiyaların daha çox neft-qaz sektoruna yönəldilməsi;

-daxili investisiya qoyuluşlarında dövlət investisiyalarının payının yüksək olması;

-özəl sektorda təşəbbüskarlıq meylinin zəif olması;

-istehsal sahələrində xammal üzrə idxaldan asılılığın yüksək olması;

-ixracın əsasən xammal yönümlü olması;

-qeyri-rəsmi məşğulluq səviyyəsinin yüksək olması və sair.

Gələcəkdə iqtisadiyyatın dayanaqlı və davamlı inkişafının təmin olunması, yuxarıda qeyd edilən problemlərin aradan qaldırılması və dövlətin uzun gələcəyə istiqamətlənmiş sosial-iqtisadi inkişaf konsepsiyasının reallaşdırılmasını və ölkə iqtisadiyyatının şaxələndirilməsini, o cümlədən onun neft sektorundan asılılığının aradan qaldırılmasını nəzərdə tutan Strateji Yol Xəritələrində ölkə iqtisadiyyatının güclü tərəfləri və imkanları nəzərə alınmaqla müəyyən mərhələlərlə milli iqtisadiyyatın yüksək inkişaf səviyyəsinə çatdırılması bir məqsəd kimi qarşıya qoyulmuşdur. Tam əsaslı olaraq Azərbaycan iqtisadiyyatının güclü tərəfləri kimi:

-ölkənin strateji cəhətdən əhəmiyyətli coğrafi mövqeyə malik olması;

-sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına güclü dövlət dəstəyi;

-ixracatın stimullaşdırılmasına və təşviqinə güclü dövlət dəstəyi;

-iqtisadiyyatın şaxələndirilməsi və əlverişli investisiya mühitinin yaradılmasına dövlətin marağının yüksək olması;

-ölkənin əlverişli enerji və nəqliyyat dəhlizi üzərində yerləşməsi;

-enerji və ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsinin məqbul həddə olması;

-dövlət borcunun, işsizlik səviyyəsinin və inflyasiyanın məqbul həddə saxlanılması;

-ictimai-siyasi və makroiqtisadi sabitliyin mövcud olması;

-sosial problemlərin həllinə və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına dövlət marağının yüksək olması və digər məqamlar öz əksini tapmışdır.

## Azərbaycanda özəlləşdirmə, onun sosial iqtisadi nəticələri və ikişaf imkanları

*ŞƏFAQƏTOV Günəş Musa oğlu*
*İqtisadiyyat kafedrasının baş müəllimi*

Hər bir iqtisadi sistemin formalaşmasının səciyyəsinə mülkiyyət münasibətləri həlledici və müyyənedici təsir göstərir. Mülkiyyət münasibətləri iqtisadi məzmununa, mahiyyətinə və əhəmiyyətinə görə iqtisadi münasibətlərin özəyini təşkil edir, formalarının dəyişməsi və yaxud yeniləşməsi yekunda, cəmiyyətin iqtisadi münasibətlərinin səciyyəsini dəyişdirir. Bu baxımdan, müasir iqtisadi sistemlərin transformasiyası prosesində mülkiyyət formalarının fəaliyyəti məlum qanunauyğunluqlarla yanaşı, spesifik cəhətlərə də malikdir.

Azərbaycanda müvəffəqiyyətlə gerçəkləşdirilən daxili və xarici siyasət vasitəsilə təşəkkül tapan ictimai-siyasi sabitlik təmin edilkdidən sonra, iqtisadi dəyişikliklər, o cümlədən onun əsas istiqaməti olan dövlət əmlakının özəlləşdirilməsinə başlanılmışdır.

Sovetlər dövründə formalaşdırılan istehsal strukturunun, yəni dövlət mülkiyyətinə əsaslanan obyekylərin özəlləşdirilərək bazarın tələblərinə uyğunlaşdırılmasını ifadə edən Dövlət Proqramlaının vacib bir hissəsi hesab edilmişdir.

Başlanğıcda özılləşdirməyə iqtisadi inkişafın əsas vasitəsi kimi vahid dövlət siyasətinin mühüm tərkib formasında baxılmış, tədbirlər əlaqələndirilmiş qaydada, ardıcıllıqla reallaşdırılmışdır.

Özəlləşdirmə proqramının əsas məqsədləri iqtisadiyyatın uğurla dirçəldilməsi və dayanıqlı inkişafın bazar münasibətləri sisteminin təşəkkül tapması və fəaliyyətin normal baş verməsi üçün əlverişli şərtlərin formalaşdırılması nəzərdə tutulmuşdur. Konkret

məqsədlər kimi aşağıdakılar müəyyən edildi: -İqtisadi fəaliyyətin sərbəstləşdirilməsi, xüsusi mülkiyyətçilər təbəqəsinin formalaşdırılması və sahibkarlığın azad formada inkişafı; -İqtisadi səmərənin yüksəldilməsi və mülkiyyətin səmərəli strukturunun formalaşdırılması; -İqtisadi strukturunun yenidən təşkili, inhisarsızlaşdırma və rəqabət mühitinin yaradılması zəminində iqtisadi səmərəliliyin artırılması; -Sərmayələrin, o cümlədən xarici sərmayələr üçün imkanların əlverişliyinin təmi edilməsi; -Ölkə vətəndaşlarının yaşayış səviyyəsinin və ictimai rifahın yüksəldilməsi.

Özəlləşdirmə aşağıdakı üsullarla reallaşdırılır: 1. Özəlləşdirmənin gedişi zamanı bərqərar olan səhmdar cəmiyyətlərinin səhmlərinin satışı yolu ilə; 2. Səhmdar cəmiyyətinə çevrilməyən müəssisələrin kommersiya yolu ilə müsabiqəli satışı (inhisarçılığın miqyasının məhdudlaşdırılması); 3. İnvestisiya müsabiqələrində səhmdar cəmiyyətlərinin səhm nəzarət zərfinin satışı yolu ilə; 4. Fəaliyyətdə olan, ləğv edilməsi nəzərdə tutulan və ləğv olunan müəssisələrin əmlakının müsabiqə və hərraclarda satışı yolu ilə; 5. İcarəyə verilən əmlakın alınması (satışı) yolu ilə; 6. Dövlətə məxsus olan uzunmüddətli borcların satışı yolu ilə.

Dünya təcrübəsi göstərir ki, özəlləşdirməni gercəkləşdirən və gerçəkləşdirməkdə olan ölkələrdə özəlləşdirmənin əlavə məqsədləri də meydana çıxır:- Dövlət büdcəsinə özəlləşdirmədən əldə edilən əlavə gəlirlərin köçrülməsi; -Qiymətli kağızlar institutunun işlək vəziyyətə gətirilməsi üçün fond bazarının yaradılması; -Dövlət müəssisələrinin yenidən qurulması və sağlamlaşdırılması; -Təsərrüfatçılıqda mütərəqqi idarəçilik metodları "nouhau" reallaşdırmaq bacarığına və imkanına malik sərmayəçilər üçün əlverişli şərtlərin müəyyənləşdirilməsi.

Özəlləşdirmənin əsas prinsipləri aşağıdakılardır: -Özəlləşdirmənin gedişinə ümumi nəzarətin təmin edilməsi; -Özəlləşdirilməsinin gedişi zamanı əmək kollektivinin mənafelərinin qanunvericiliklə qorunması; -Rəqabət üçün sağlam şərtlərin yaradılması və antiinhisar qanunvericiliyinə ciddi əməl olunması; -Bütün subyektlər üçün özəlləşdirmənin gedişində əlverişli şəraitin yaradılması.

Özəlləşdirmənin uğuru onun hansı üsul əsasında gerçəkləşdirilməsindən daha çox aslıdır. Araşdırmalara əsaslanaraq Azərbaycanda özəlləşdirmə üsulunun qarışıq forması qəbul edilmiş, əmək kollektivlərinə və ölkə vətəndaşlarına dövlət əmlakının müəyyən hissəsinin bağışlanması qərara alınmışdır.

Göstərilən məqsəd və pinsipləri diqqətədə saxlamaqla ölkədə qanunvericilik və təşkilati baza formalaşdırılmışdır. Azərbaycan Respublikası Prezidentinin iqtisadi inkişafla, islahatlarla bağlı fikirləri və tövsiyyələri, özəlləşdirməyə dair beynəlxalq təşkilatların ekspertlərinin rəylərini əks etdirən yeni qanunvericilik aktları iqtisadiyyatın dinamik və səmərəli inkişafı üçün 1996-cı ildən başlanan uğurlu özəlləşdirmə aparılmasına şərait yaratmışdır. Vahid dövlət siyasətinin mühüm tərkib hissəsi olaraq dövlət müəssisələrinin özəlləşdirilməsi əlaqədar orqanlarla qarşılıqlı razılaşma əsasında reallaşdırılmışdır.

Özəlləşdirmə prosesinin yerinə yetirdiyi iqtisadi vəzifənin məqsədi mükəmməl mülkiyyətçilər təbəqəsinin formalaşdırılmasıdır. Özəlləşdirmə prosesinin başlandığı andan hazırki dövrədək 50 mindən artıq dövlət müəssisəsi və obyekti özəl bölməyə keçirilmişdir. 1997-ci ildən orta və iri müəssisələr özəlləşdirilməsinə başlanmış və nəticədə, 1600-dən çox dövlət müəssisəsi, o cümlədən 379 iri və orta sənaye müəssiəsi səhmdar cəmiyyətinə çevrilmişdir.

Özəlləşdirməyə start verildiyi andan etibarən, özəlləşdirmədən dövlət büdcəsinə cəlb edilən 600 milyon manata yaxın vəsait respublikanın müəyyən sosial-iqtisadi inkişaf problemlərinin aradan qaldırılmasına yönəldilmişdir.

İnvestisiya müsabiqələrində özəlləşdirilmiş 100-ə yaxın dövlət müəssisə və obyektlərin, onların sərmayədarlarının fəaliyyətinin səmərəliyinin yüksəldilməsinə əlverşli

imkanlar bərqərar olmuşdur. Müsabiqə qalibləri tərəfindən həmin müəssisələrdə istehsal güclərinin bərpası, iş yerlərinin yaradılması, texnologiyaların və idarəetmənin mütərəqqi üsullarının tətbiq edilməsi məqsədilə 550 milyon dollar ABŞ dolları məbləğində vəsait sərmayə formasında qoyulmuşdur.

Transformasiya mərhələsində, yeni yaranan mülkiyyət formalarına uyğun təsərrüfat tiplərində sahibkarlıq prinsiplərinin kifayət qədər formalaşması və onun fəaliyyətindəki məhdudiyyətlər də, bu dövrdə, mövcud olan mülkiyyət münasibətlərinin fəaliyyət xüsusiyyətlərindən hesab edilməlidir.

Bazar iqtisadiyyatına keçidi özü üçün məqsəd seçən hər bir dövlət və cəmiyyət mülkiyyət münasibətlərini, onun formalarını əsaslı surətdə yeniləşdirməyə məcburdur.

Müasir bazar iqtisadiyyatının iqtisadi əsasını xüsusi mülkiyyət və onun müxtəlif formaları təşkil edir.

Xüsusi mülkiyyət inistütutunun yaradılması müxtəlif iqtisadi fəaliyyət subyektlərinin cəmiyyətdə təsərrüfatçılıq etmək imkanlarının bərabər inkişafının əsaslarını müəyyən edir, iqtisadi fəaliyyətin bütün cəmiyyət üzvləri üçün açıq olması imkanlarını reallaşdırır. Cəmiyyətdə, hər bir fərdin şəxsiyyət kimi formalaşıb, sərbəst fəaliyyət göstərməsini, öz həyatını qabiliyyəitinə uyğun qurub, yaşamasını təmin edir.

## Əlverişli biznes mühitinin inkişafı makroiqtisadi sabitliyin təminatı kimi

*PAŞAYEVA Sevda Bəhman qızı*
*Sənayenin təşkili və idarəetmə kafedrasının baş müəllimi*

Dünya dövlətlərinin təcrübəsindən yaxşı məlumdur ki, ölkənin seçdiyi yol beynəlxalq əmək bölgüsünün üstünlükləri ilə uzlaşdırılmadıqda orada istehsal özünün aşağı səmərəliliyi və zəif inkişafı ilə xarakterizə edilir. Qloballaşma dövrünün çağırışlarına uyğun olaraq, həyata keçirilən iqtisadi inkşafın diversifikasiyası əsasında qlobal proseslərə sürətli və səmərəli inteqrasiya strategiyası ölkəyə böyük uğurlar gətirir.

Təsadüfi deyil ki, artıq dünyada siyasət getdikcə daha çox iqtisadiləşir. İqtisadi qloballaşma isə iqtisadiyyatın yalnız beynəlmiləlləşməsi demək deyil, həm də bu prosesin yeni və yüksək mərhələsidir. İqtisadi, siyasi və mədəni proseslərdə özünü göstərən bu irimiqyaslı təmayül iqtisadi qloballaşmada daha böyük sıçrayışla gedir və digər prosesləri də öz arxasınca aparır.

Ona görə də ictimai inkişafın müasir qanunauyğunluqları getdikcə iqtisadi proseslərə daha çox qlobal yanaşma tələb edir. Çünki bu və ya digər ölkədə gedən daxili proseslər, özünün fərqləndirici cəhətlərinə baxmayaraq, özü-özlüyündə, təcrid olunmuş şəkildə inkişaf edə bilməz. Müstəqillik əldə etmiş ölkələrin dünya bazarına inteqrasiyası və onların iqtisadi inkişaf prosesləri arasındakı qarşılıqlı əlaqənin və asılılığın düzgün qurulması qloballaşma dövründə xüsusi aktuallıq kəsb edir.

Azərbaycanda davamlı inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin və sosial rifahın daha da artırılmasını təmin edilməlidir. Buna görə də strateji xətt "qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycanın dünya iqtisadiyyatında mövqeyi genişlənər, güclənər, respublikamız yüksək gəlirli ölkələr qrupuna daxil ola bilər".

Iqtisadi islahatlara uyğun kompleks tədbirlərin həyata keçirilməsi, iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılması əlverişli biznes mühitinin formalaşmasını təmin edir. Bunun da əsas məqsədi Azərbaycanda biznes mühitinin şaxələndirilməsi və istehsalda rəqabətqabiliyyətliyin gücləndirilməsi, neftdən asılılığın aradan qaldırılması, qeyri-neft sektorunun və keyfiyyətli ixrac məhsullarının artırılması, əhalinin məşğulluq səviyyəsinin və rifahının daha da yüksəldilməsi kimi məsələlərin həllinə təkan verir.

Əlverişli biznes mühitinin yaradılması müasir dövrün əsas tələbidir. Bunun üçün hökumətin aparıcı rolu artırılmalı, azad rəqabət mühiti inkişaf etdirilməlidir. Səmərəli vergi sisteminin tətbiqi, dövlət xidmətlərinin çevikliyinin və səmərəliliyinin artırılması, azad ticarət sazişlərinin bağlanması əlverişli biznes mühitinin formalaşmasının mühüm yoludur. Biznes mühitinin yaxşılaşdırılması məqsədilə ABŞ, Avstriya, Latviya, Litva, Macarıstan, Çexiya və başqa ölkələrin təcrübələrinə uyğun olaraq, Azərbaycanda müstəqil fəaliyyət göstərən rəqabət orqanının yaradılması da məqsədə müvafiqdir.

Milli iqtisadiyyatın ümumi hədəflərə nail olunması məqsədilə respublikamızda iqtisadi inkişaf strategiyası və tədbirlər planı hazırlanıb.

Müasir dövrdə milli iqtisadiyyatın əsas məqsədi gəlir səviyyəsini və məşğulluğu artırmaq; iqtisadiyyatın qeyri-neft sahələrinin diversifikasiyasını təmin etmək; bütün iqtisadiyyatda səmərəliyi və rəqabətliyi artırmaq; cari hesab balansını davamlı şəkildə yaxşılaşdırmaq, digər sektorların inkişafına dəstək məqsədilə iqtisadi infrastrukturun – telekommunikasiya, maliyyə xidmətləri və kommunal xidmətlərin (elektrik, su və s.) optimallaşdırılmasını həyata keçirməkdir. Daxili bazarlarda səmərəliliyin artırılması və idxalın yerli istehsalla əvəzlənməsi mühüm hesab edilməlidir.

Beləliklə, qloballaşma və beynəlmiləlləşmə şəraitində Azərbaycanın dünya birliyi ilə fəal və səmərəli şəkildə inteqrasiya strategiyası qəbul edilməli və uğurla həyata keçirilməlidir. Elmi əsaslar sübut edir ki, xarici iqtisadi əlaqələr milli iqtisadiyyatın səmərəliliyinin artırılması əlverişli bines mühitinin yaradılması üçün mühüm amildir. Bu sistemin idarə olunması və tənzimlənməsində dövlətin, habelə ixracatçı və idxalatçıların mənafelərinin qorunması prioritet məsələr kimi ön plana çəkilməlidir.

## Müasir iqtisadi şəraitdə sənaye sektorunun rəqabətqabiliyyətliyinin yüksəldilməsi istiqamətləri

*NİFTƏLİYEV Nazim Fazil oğlu*
*İqtisadiyyat kafedrasının baş müəllimi*
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı*

İnkişaf etmiş ölkələrin milli iqtisadiyyatının inkişafında müasir sənaye sahəsi iqtisadi artım tempinin təmin olunmasında, ixrac potensialının yüksəldilməsində mühüm rol oynayır. Qeyri-neft sahəsinin inkişafının əsas istiqamət kimi seçildiyi Azərbaycan Respublikasında da bu sahənin inkişaf etdirilməsi mühüm aktuallıq kəsb edir. Müasir Azərbaycan iqtisadiyyatının, o cümlədən onun aparıcı sahəsi olan sənayenin yaxın dövrlər ərzində inkişaf siyasəti Azərbaycan Respublikası prezidentinin "Azərbaycan 2020: gələcəyə baxış sosial-iqtisadi inkişaf konsepsiyasının hazırlanması haqqında" sərəncamı ilə müəyyənləşmişdir. Son illər Azərbaycanda sənayeləşmə templəri yüksəlmiş, sənayenin regional strukturunun təkmilləşdirilməsi əsas prioritetlərdən biri kimi müəyyən olunmuş,

sənaye istehsalı üçün həyati əhəmiyyət kəsb edən enerji təminatı məsələlərinin həlli istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Nəzərə almaq lazımdır ki, dövlət investisiyaları mərkəz və regionlar üzrə bir sıra istehsal təyinatlı layihələrə yönəldilmiş, ölkədə əlverişli biznes investisiya mühiti yaradılmış, özəl sektor tərəfindən həyata keçirilən layihələrin güzəştli şərtlərlə dövlət tərəfindən maliyyələşdirilməsi və eləcə də dövlətin bu layihələrdə iştirakı mümkün olmuşdur. Azərbaycan Respublikası üzrə reallaşdırılan regional inkişaf proqramlarının əsas istiqamətlərindən biri qeyri-neft sənaye sektorunun rəqabətqabiliyyətinin yüksəldilməsi hesab olunur.

Ölkəmizin regionda güclü sənaye mərkəzinə çevrilməsini həyata keçirmək məqsədi ilə “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında müəyyən edilmiş fəaliyyət istiqamətləri nəzərə alınmaqla, “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı” tərtib olunmuşdur.

Azərbaycanda davamlı olaraq beynəlxalq əmək bölgüsü, beynəlxalq əməkdaşlıq və qarşılıqlı əlaqə prinsiplərinə əsaslanan ciddi iqtisadi tədbirlər reallaşdırılmaqdadır. Ölkəmizin iqtisadi standartlar modelinin əsas prinsipləri arasında aşağıdakıları fərqləndirmək mümkündür: iqtisadi mexanizmlərin təkmil bazar mühitinin formalaşdırılması istiqamətinə yönəlməsi (iqtisadi fəaliyyətə dövlət müdaxiləsinin məhdudlaşdırılması, maliyyə-bank sistemində islahatların aparılması); ölkənin beynəlxalq iqtisadi məkana inteqrasiyası üçün açıqlığın təmin olunması (bu da ilk növbədə ölkədə təşviqedici investisiya yaradılması və beynəlxalq təşkilatlarla əlaqələrin artırılmasını təmin edir) və s. yönümdə ciddi işlər həyata keçirilmişdir.

Son illər ölkəmizin mərkəz və rayonları üzrə fəaliyyət göstərən əksər sənaye müəssisələrinin istehsal xərcləri bazar qiymətlərini üstələdiyindən yerli məhsullar rəqabətqabiliyyətini itirmiş, onların ixracyönümlülük imkanları azalmış, əksər müəssisələr isə öz fəaliyyətini dayandırmışdır. Hazırda ölkəmiz qarşısında duran ən mühüm prioritet məsələ sənaye müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsini təmin etməkdir.

Azərbaycanın sənaye müəssisələrinin inkişafının təmin edilməsi üçün mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəsisə və təşkilatlara bərabər və əlverişli rəqabət mühiti yaradılmalıdır. Milli sənaye siyasəti ilk öncə ölkənin sənaye potensialının effektiv istifadəsi və inkişaf etdirilməsinə yönəlməlidir. Müasir iqtisadi şəraitdə dövlətin sənaye siyasətinin əsas məqsədi beynəlxalq standartlara cavab verən yüksək innovasiyalı və raqabətqabiliyyətli sənaye kompleksinin yaradılması hesab olunmalıdır.

Müasir sənaye kompleksinin dövlət tənzimlənməsi sistemi sənaye obyekti kimi üç tip müəssisələrin fəaliyyət göstərməsini nəzərə almaqla transformasiya olunmalıdır: yalnız birbaşa iqtisadi metodlarla tənzimlənən özəl müəssisələr; dövlətin iştirakı ilə kommersiyalaşdırılmış müəssisələr; dövlətin birbaşa tabeliyində olan tamamilə dövlət və büdcə təşkilatları. Qeyd olunan müəssislərə yanaşmada dövlət idarəetmə orqanlarının əsas funksiyaları ilk növbədə sənaye siyasətinin prioritetlərinin müəyyənləşdirilməsi; sənaye kompleksinin fəaliyyətinin tənzimlənməsi və s. olmalıdır. Bundan başqa mövcud dənaye müəssisələrinə birbaşa, dövlət yardımı prinsipləri yenidən tədqiq olunmalıdır. Nəzərdə tutulan dövlət yardımını iqtisadi baxımdan effektiv hesab olunan proqram və layihələr əsasında təmin etmək lazımdır.

Ölkə prezidentinin 2014-cü il 12 mart tarixli sərəncamı ilə 2014-cü ilin sənaye ili elan edilməsilə əlaqədar “tədbirlər planı” işlənib hazırlanmış və reallaşmağa başlanmışdır. Proqramın sənaye sahəsində qarşıya qoyduğu vəzifələrə əsaslanaraq demək olar ki, yaxın illər ərzində respublikada sənayenin, xüsusilə onun metallurgiya, energetika və

maşınqayırma sahələrinin inkişafı əsas hesab olunacaqdır. 2016-cı ildə bu sahələrin inkişafı sahəsində qarşıya qoyulmuş vəzifələr də bunu bir daha təsdiq edir. Milli sənayenin tərkibində son illər kimya, metallurgiya, maşınqayırma, kompüter və digər elektron avadanlıqlar istehsalı genişlənmişdir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, hər hansı bir ölkədə reallaşdırılan iqtisadi islahatların uğurluluğu, ilk öncə sənayenin normal fəaliyyəti ilə bağlıdır.

Sənaye sahəsi üzrə mövcud müəssisələrin rəqbətqabiliyyətinin artırılması üçün onların fəaliyyət göstərdikləri iqtisadi mühitin əlverişliliyinin təmin olunması zəruri hesab olunur. Qeyd olunan problemi həll etmədən sənaye müəssisələri üzrə əmtəə istehsalçılarının normal fəaliyyətini həyata keçirmək bir qədər çətindir. Məhz bu baxımdan da dövlətin sənaye siyasətinə maliyyə intizamının möhkəmləndirilməsi, antiinhisar siyasəti, amortizasiya, kredit, qiymət, vergi, büdcə və s. ilə bağlı məsələlər də daxil olunmalıdır.

İnkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, respublikamızda sənaye siyasətinin mövcud müəssisələr üzrə reallaşdırılması üçün aşağıdakı tədbirlər həyata keçirilməlidir:

- daxili bazarda sənaye müəssisələrinin yerli dənaye məhsullarına olan tələbin gücləndirlməsi: nüasbiqə yolu ilə dövlət satndartları; əmtəələrin reklamı;
- bazar infrastrukturunun və lizinq xidmətlərinin inkişaf etdirilməsi;
- yerli sənaye sahəsi üzrə fəaliyyət göstərən istehsalçıların fəaliyyətinin himayə olnması və daxili bazarda dənaye müəssisələri arasında sağlam rəqabət şəraitinin yaradılmasını təmin edən yüksək idxal tariflərinin formalaşdırılması;
- regionlar üzrə müəssisələrin sənaye məhsullarının ixrac prosesinin kreditləşdirilməsi və sığortalanması sisteminin təşkili;
- müəssislərin rəqabətqabiliyyətinin yüksəldilməsi üçün ixracyönümlü məhsulun beynəlxalq sertifikatlaşdırılmasının təşkili və s.

Azərbaycanın sənaye sektorunda modernləşmənin istiqamətlərini və əsas prioritetlərini düzgün təşkil etmək üçün ciddi təhlilər aparmaq zəruridir. Digər tərəfdən sənaye müəssisələrinin, şirkətlərin tələbatlarını tədqiq etmək, onların effektiv inkişafına mane olan əsas nöqsanları araşdırmaq və bu problemlərin həlli yollarını tapmaq vacibdir.

## Ərzaq təhlükəsizliyinin təmin edilməsinin təkmilləşdirilməsi istiqamətləri

*HÜSEYNOVA Ruhiyyə Adil qızı*
*Sənayenin təşkili və idarəetmə kafedrasının müəllimi*

Ərzaq təhlükəsizliyinin təmin edilməsi hər bir ölkənin qarşısında dayanan əsas problemlərdən biri olmaqla yanaşı eyni zamanda siyasi, iqtisadi,sosial və digər aspektlərdən də mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi ərzaq təhülkəsizliyinin yetərli səviyyədə təmin olunmaması ölkənin iqtisadi suverenliyini təhlükə altında qoyur.

Əhalinin ərzaq məhsullarına olan təlabatının ödənilməsi ərzaq təhlükəsizliyinin təmin edilməsində əsas istiqamətlərdən hesab edilir. Bu baxımdan ölkədə kifayət qədər ərzaq məhsullarının istehsalının təmin edilməsi, eyni zamanda istehsalçı və istehlakçıların maraqlarının optimal təmin olunduğu ərzaq bazarının formalaşdırılması mühüm əhəmiyyətə malikdir. Daxili ərzaq bazarının normal fəaliyyət göstərməsi kifayət qədər yerli istehsalın olmasından, idxalın tənzimlənməsindən, eyni zamanda əhalinin gəlirlərinin səviyyəsindən

və s. amillərdən asılıdır. Daxili ərzaq bazarının formalaşmasında yerli məhsullarla yanaşı xarici məhsullar da çıxış edir. Ümumiyyətlə heç bir ölkə iqtisadi əlaqələr qurmadan, ticarət əlaqələri həyata keçirmədən, idxal və ixrac əməliyyatları aparmadan öz iqtisadiyyatını formalaşdıra bilmədiyi kimi, iqtisadi təhlükəsizliyini o, cümlədən onun ən əsas tərkib hissələrindən biri olan ərzaq təhlükəsizliyini tam təmin edə bilməz. Ölkədə ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəlməsi ərzaq təhlükəsizliyinin təmin olunması baxımından mühüm əhəmiyyətə malikdir. Özünütəminetmə səviyyəsinin hesablanması istehsalın həcmi, əhalinin sayı və bir nəfərə əvvəlcədən müəyyənləşdirilmiş fizioloji normalara əsasən aparılır. Ölkənin iqtisadi inkişaf səviyyəsi yüksəldikcə özünütəminetmə səviyyəsi yüksəlir, idxaldan asılılıq azalır və yerli istehsal stimullaşır.

Aqrar sahənin inkişafı ölkəni zəruri ərzaq məhsulları ilə təmin etməklə yanaşı ərzaq təhlükəsizliyinin təmin olunmasına da xidmət edir. Bu məqsədlə ölkə əhalisinin ödənilməyən ərzaq tələbatının səviyyəsinin bərpa edilməsi, istehsal və idxal olunan ərzağın keyfiyyətini artırmaqla əhalinin ərzaq məhsullarına olan istehlakının quruluşunun yaxşılaşdırılması əsas məsələlərdən hesab edilir. Keyfiyyət ümumi şəkildə cəmiyyət üzvlərinin, xüsusilə istehlakçıların tələblərinin ödənilməsində xüsusi rol oynadığından o, cəmiyyətin faydalanması üçün keyfiyyətin yüksəldilməsinə, beləliklə daxili bazarın qorunmasına yönəlmiş strategiyanın formalaşdırılmasını da şərtləndirir. Bu baxımdan müasir dövrdə aqrar sahədə idarəetmə mexanizminin mənfəətliliyini və istehsal olunan əmtəələrin keyfiyyətinin yüksəldilməsini təmin etməklə istehsal, marketinq, maliyyə, texnologiya və insan potensiallarından düşünülmüş, elmli şəkildə istifadə etməyi nəzərdə tutan mexanizmin formalaşdırılması aqrar siyasətin əsas hədəflərindəndir.

Respublikamızda kənd təsərrüfatı məhsulları istehsalı və onların emalı inkişafı, onlar arasındakı nisbət və əlaqələrin yeni tipli formaları meydana çıxsa da, inteqrasiya əlaqələri nisbətən zəifləmişdir. Sahələrarası inteqrasiya əlaqələrinin yaxşılaşdırılması isə bilavasitə iqtisadi münasibətlərin səmərəliliyi ilə sıx bağlıdır. Müəyyənləşdirilmişdir ki, iqtisadi münasibətlərin təkmilləşdirildiyi, torpaq sahələrinin və maddi ehtiyatların məhdudlaşdığı, kənd təsərrüfatı və emal məhsullarına tələbatın artdığı şəraitdə iqtisadi amillərin təsiri gücləndirilməli, məhsul istehsalı və keyfiyyətinə rəqabət mühiti yaradılmalı, istehsalçıların iqtisadi marağı artırılmalıdır. Bu məsələlər aqrar sahədə bazar iqtisadi münasibətlərinin tələblərindən irəli gələn istehsal-iqtisadi münasibətlərə uyğun kənd təsərrüfatı məhsulları istehsalının artırılması, onun keyfiyyətinin yüksəldilməsinin mahiyyəti və məqsədini əsaslı şəkildə dəyişdirməyi qarşıya qoyur. Bu baxımdan müasir şəraitdə inteqrasiya obyektiv iqtisadi proses olmaqla kənd təsərrüfatı sahələrini, müxtəlif təsərrüfat formalarını, həmçinin emal və xidmət bölmələrini əhatə edir.

Daxili ərzaq bazarında keyfiyyətli məhsul istehsalının artırılması aqrar sahənin dayanıqlı inkişafı ilə sıx bağlıdır. Aqrar sahənin dayanıqlı inkişafı rəqabət mühitində daha da aktuallıq təşkil edir. Çünki azad rəqabət mühitində daxili tələbatın tam şəkildə ödənilməsini həyata keçirmədən və iqtisadi inkişafın dayanıqlılığını təmin etmədən istehsal edilən məhsulların keyfiyyətinin yaxşılaşdırılmasından danışmaq olmaz. Daxili bazarın keyfiyyətli ərzaq məhsulları ilə təminatında mühüm məsələlərdən biri də istehsalın rəqabət qabiliyyətlilik səviyyəsinin yüksəldilməsi və daxili ərzaq bazarının rəqabətə davamlı məhsullarla təmin edilməsidir.

Müasir dövrün ən mühüm məsələlərindən biri ölkə əhalisinin keyfiyyətli kənd təsərrüfatı və qida məhsullarına olan tələbatının dolğun ödənilməsini təmin edən milli ərzaq bazarının formalaşdırılmasıdır. Bu, bazarın dayanıqlı inkişafı və qorunmasında səmərəli qiymət mexanizmi mühüm rol oynayır. Kənd təsərrüfatında istehsal prosesinə başlanmazdan əvvəl istehsal olunan məhsulların qiymətlərinin, konkret olaraq qiymət strategiyasının

müəyyənləşdirilməsi vacib məsələlərdən biri kimi özünü göstərir. Qiymət vasitəsilə məhsul istehsalı zamanı çəkilən xərclər reallaşdırılır, yəni bütün xərclərin ödənilməsi üçün qiymət istehsalçının istifadə etdiyi ən əsas vasitə olmaqla istehsalın son nəticəsini qiymətləndirməyə imkan verir. Qiymətqoyma prosesində istehsalçının başlıca məqsədi maksimum mənfəət əldə etməkdir. Ərzaq bazarının öyrənilməsində istehsalçının ilkin məqsədi istehlakçıların tələbinin müəyyənləşdirilməsi olmalıdır. Tələbdən asılı olaraq qiymətin müəyyənləşdirilməsi və dəyişməsi əsasən istehlakçıların alıcılıq qabiliyyəti və məhsulların keyfiyyəti ilə əlaqədardır. Məlumdur ki, alıcılıq qabiliyyəti yüksək olan alıcı qiymətin yüksək səviyyəsində belə tələbatına uyğun həcmdə və müvafiq keyfiyyətdə məhsul almağa çalışır. Alıcılıq qabiliyyəti aşağı olan alıcının tələbi isə əksinə, azdır və onu keyfiyyətdən çox qiymət maraqlandırır. Deməli hər iki amil qiymət qoymada mühüm rol oynayır. Birinci hal istehsalçının mənfəətinə müsbət, ikinci isə mənfi təsir göstərir.

Beynəlxalq təcrübə göstərir ki, istehsal olunan məhsulların keyfiyyətinin yaxşılaşdırılması və qiymətlərin təkmilləşdirilməsi nəticə etibarilə stimullaşdırma tədbirləri ilə müşayət olunur. Ona görə də ərzaq bazarının fəaliyyətinin ardıcıl şəkildə tənzimlənməsi və onu fasiləsiz olaraq ərzaq məhsulları ilə təmin edən sahələrdə stimullaşdırıcı tədbirlərin önə çəkilməsi əsas məsələlərdən biri kimi özünü göstərir. Aqrar istehsalın stimullaşdırılması tədbirləri zamanı əsasən qeyri-iqtisadi və iqtisadi metodlardan istifadə edilir. Qeyri – iqtisadi metod qanunvericiliklə bağlı məsələləri nəzərdə tutur və iqtisadi metodlarla qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Belə ki, qanunvericilik sənədlərinin qəbulu bu və ya digər iqtisadi prosesin hüquqi mexanizmini, fəaliyyət prinsiplərini və istiqamətlərini müəyyənləşdirsə də növbəti mərhələdə onların müəyyən tərəfləri özünü tənzimləmə prinsipi əsasında fəaliyyət göstərir. İqtisadi vasitələrlə aqrar bölmənin stimullaşdırılmasının əsas istiqamətlərinə daxildir:

- yerli istehsalın stimullaşdırılması və daxili bazarın qorunması;
- kənd təsərrüfatı ilə sənaye və iş və xidmətlər sferası arasında qarşılıqlı iqtisadi münasibətlərin mütənasibliyinin elmi əsaslarla təmin olunması;
- kənd təsərrüfatı əmtəə istehsalçılarının gəlirlərinin təkrar istehsal prosesini həyata keçirə biləcək səviyyəsinə stimul yaradılması;
- istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsini təmin etmək məqsədilə elmi-texniki tərəqqinin istehsalata geniş miqyaslı tətbiqinə şərait yaradılması;
- ölkədə istehsal olunan məhsulların rəqabətqabiliyyətinin yüksəldilməsini və ekoloji təmiz məhsul istehsalını stimullaşdırmaqla onların xarici bazara çıxarılmasının təmin edilməsi.

Yerli istehsalın ölkənin tələbatının ödənilməsi məqsədilə stimullaşdırılması idxalın tənzimlənməsi zərurətini də əsaslı şəkildə ortaya qoyur. Belə ki, ölkəyə gətirilən məhsulların həcmi və qiymətinin daxili bazarın qorunması şərti ilə tənzimlənməsi, bu baxımdan rəqabət qabiliyyətli yerli məhsullara həmin məhsullarla rəqabət aparma imkanlarının yaradılması, həyata keçirilən struktur siyasətinin prioritetlərindəndir. Eyni zamanda daha səmərəli iş və xidmətlər göstərməklə rəqabətə davamlı kənd təsərrüfatı istehsalının təmin edilməsi, məhsul istehsalının artırılması və səmərəliliyinin yüksəldilməsi üçün lizinq xidmətinin, texniki xidmət və təmir-bərpa işlərinin yerinə yetirilməsini həyata keçirən müəssisələrin fəaliyyətinin gücləndirilməsi ərzaq bazarının inkişafında zəruri tədbirlərdəndir.

Qeyd olunanlar göstərir ki, aqrar sahənin inkişaf etdirilməsində kifayət səviyyədə səmərəli nəticələr əldə olunması qısa müddətli zaman kəsiyində demək olar ki, mümkün deyil. Bunu konkret olaraq spesifik xüsusiyyətləri ilə seçilən və ölkəni ərzaq məhsulları ilə təmin edən kənd təsərrüfatında istehsal strukturunun dəyişdirilməsi üçün yetərincə uzun

dövr tələb olunması bir daha təsdiq edir. Bununla yanaşı aqrar sahə özü bütöv bir sistem olaraq fəaliyyət göstərdiyindən hazırlanan tədbirləri konkret istiqamətli müəyyənləşdirmək birmənalı olaraq düzgün olmazdı. Odur ki, dövlətin struktur siyasətində aqrar sahənin stimullaşdırıması tədbirlərinin hazırlanması orta və uzun müddətli dövrü əhatə etməklə kompleks xarakterə malik olmalı, aqrar bazarın bütün seqmentlərini və onunla bağlı bütün sferaları əhatə etməlidir.Bu, eyni zamanda onunla əlaqədardır ki, istehsal sferasının təcrid olunmuş formada fəaliyyəti həm praktik olaraq demək olar ki, mümkün deyil, həm də istehsalda bilavasitə və dolayı olaraq iştirak edən, həmçinin istehsala xidmət göstərən sahələrin fəaliyyət mexanizmləri əlaqələndirilməlidir.

## Azərbaycanın milli iqtisadiyyatının strateji inkişaf istiqamətləri

*ƏLİYEVA Təranə Əsman qızı*
*İqtisadiyyat kafedrasının baş müəllimi*

Müasir dövrdə dünya iqtisadiyyatında baş verən qlobal problemlər milli iqtisadiyyatımıza da öz təsirini göstərməyə və müəyyən makroiqtisadi göstəricilərin azalmasına səbəb oldu. Bu səbəbdən iqtisadi artımı təmin etmək və uzunmüddətli iqtisadi inkişafa nail olmağa istiqamətlənmiş hədəflərin qoyulması və bu hədəflərə çatmaq üçün müxtəlif səciyyəli inkişaf konsepsiyalarının, iqtisadi islahatların aparılması ön plana çəkildi. Makroiqtisadi sabitliyin təmin olunması və iqtisadi artımın bərpa olunmasını təmin etmək üçün respublikamızın iqtisadi inkişafının yeni strategiyalarının hazırlanması və tətbiq edilməsi zərurəti yaranmışdır. Odur ki, ölkə Prezidentinin 16 mart 2016-cı il tarixli Sərəncamı ilə “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri” haqqında sənəd qəbul edildi. Strateji Yol Xəritəsində milli iqtisadiyyatın inkişafının təmin edilməsi, biznes mühitinin yaxşılaşdırılması üçün strateji hədəflər seçilmişdir. Bunlar yanacaq-energetika, kənd təsərrüfatı, maddi nemətlərin istehsalı, ağır sənaye və maşınqayırma, ixtisaslaşmış turizm, logistika və ticarət, əhalinin mənzil təminatı, maliyyə xidmətləri, tele-kommunikasiya, kommunal xidmətlər və s. sahələrini əhatə edir. Respublikamızda milli iqtisadiyyatın inkişafının və əhalinin sosial rifahın artırılmasının təmin edilməsi üçün bu hədəflər üzrə strateji yol xəritələri qəbul edildi. Burada əsas prioritet istiqamətlərdən biri maliyyə sabitliyi və investisiyalardır.

Müasir iqtisadi modellərdə iqtisadiyyatın uzunmüddətli inkişafının və ölkənin investisiya cəlbediciliyinin başlıca şərti maliyyə sabitliyinin təmin edilməsidir. Bu baxımdan, büdcə-pul siyasətinin düzgün seçilməsi və səmərəli icra mexanizminin formalaşdırılması xüsusilə önəmlidir.

Ölkəyə sərmayə yatırımını və xarici investisiyanın cəlb edilməsinin başlıca şərti biznes mühitinin təkmilləşdirilməsidir. Strateji hədəf kimi müəyyən olunan əlverişli biznes mühitinin inkişafı investorların inamını yüksəltməklə iqtisadiyyata sərmayə qoyuluşu imkanlarını daha da artıracaqdır. Əhalinin artmaqda olan sosial-iqtisadi tələbatının ödənilməsi məqsədilə mövcud istehsal potensialından tam və səmərəli istifadə edilməsi bir vəzifə kimi qarşıya qoyulur. Buna nail olmaq üçün isə xarici investisiya qoyuluşlarının xüsusi rolunu qeyd etmək lazımdır. Respublikamızda makroiqtisadi göstəricilərin artırılması milli daxili məhsulun strukturunda aparıcı sahələrin, xüsusilə, strateji sahələrin rol və əhəmiyyətinin getdikcə artırılmasını tələb edir. Bu baxımdan, respublikaya xarici investisiya

qoyuluşlarının artırılması və onun dövlət tərəfindən tənzimlənməsi, iqtisadiyyatın inkişafında lazımi proporsiyaların təmin edilməsi əsas məsələ kimi ortaya qoyulur.

Müasir beynəlxalq iqtisadi münasibətlər sistemində önəmli iqtisadi kateqoriyalardan biri olan xarici investisiyalardan istifadə ölkə iqtisadiyyatı üçün son dərəcə əhəmiyyətli olmaqla bərabər, onun xarici investisiyalardan asılılığı da müəyyən dərəcədə iqtisadi təhlükə mənbəyi ola bilər və milli iqtisadiyyatın xarici kapitaldan asılılıq risqini artıra bilər. Odur ki, müasir Azərbaycan iqtisadiyyatında xarici investisiyaların tənzimlənməsinə son dərəcə diqqət yetirilməli, onun milli maraqlara uyğun tənzimlənməsi təmin olunmalıdır. Bu mənada xarici investisiyalardan asılılığın getdikcə aşağı düşməsi, daxili investisiyaların xüsusi çəkisinin artması və ölkənin iqtisadi subyektləri tərəfindən xarici ölkə iqtisadiyyatına investisiya qoyuluşlarının həcminin artması ön plana çəkilmiş vəzifələrdən biridir.

Müasir qloballaşma şəraitində dünya iqtisadiyyatına inteqrasiya olduqca çətin bir problemldir. Xüsusilə dünyanın yanacaq-enerji, neft-qaz bazarlarında müasir dövrdə mövcud olan güclü rəqabət, qruplaşmalar, formalaşmış güc mərkəzləri, dünyanın iri neft şirkətləri birliyi, bu bazarlarda hegamon mövqedə olan iri neft istehsalçı və istehlakçı dövlətlərin kəskin mübarizəsi şəraitində formalaşmış bazarlara daxil olmaq xeyli çətinləşmişdir. Belə bir dövrdə öz müstəqilliyini əldə etmiş və bazar iqtisadiyyatı yolu seçmiş Azərbaycan üçün dünya iqtisadiyyatına inteqrasiya son dərəcə vacibdir. Lakin, qloballaşan müasir dünya iqtisadiyyatı o qədər inkişaf etmişdir ki, orada təmsil olunmaq milli iqtisadiyyatdan çox yüksək iqtisadi inkişaf səviyyəsi, beynəlxalq standartlara cavab verən yüksək texnologiyalı məhsul istehsalı, güclü rəqabət-qabiliyyətlilik tələb edir. Bu isə nisbətən zəif inkişaf etmiş ölkələr üçün müəyyən çətinliklər yaradır və dünya iqtisadi sisteminə qoşulmaq üçün onlar daha çox özlərinin təbii resurslarından istifadə etməli olurlar.

Azərbaycanın mövcud və perspektiv neft-qaz ehtiyatları, onların dünya bazarlarına çıxarılması imkanları, ölkəmizin dünya iqtisadiyyatına və dünya bazarlarına inteqrasiyasında daha inamlı və milli maraqlarımız daxilində xarici iqtisadi siyasət yeritməyə imkan verir. Ölkə iqtisadiyyatının inkişaf etdirilməsi əsaslı, güclü dayaqları olan, həm iqtisadi, həm də siyasi-ictimai reallıqları nəzərə alan strategiyanın mövcudluğunu tələb edir.

Strateji yol xəritəsində nəzərdə tutulan məqsədə və hədəflərə çatmaqdan üçün ölkəmizin böyük potensiala malik olduğunu nəzərə alsaq onun daha yüksək iqtisadi artıma nail olması mümkünlüyünü də qeyd edə bilərik. Bu baxımdan bütün potensial imkanları hərəkətə gətirmək lazımdır. Ölkə iqtisadiyyatının genişləndirilməsi, dünya iqtisadiyyatına inteqrasiya edilməsi, beynəlxalq iqtisadi münasibətlərin artırılması, ixrac yönümlü və daxili investisiyaya əsaslanan iqtisadi modelin formalaşdırılması həmin imkanlardan hansı səviyyədə istifadə olunacağından asılıdır.

Bütün real imkanları özündə əks etdirən bu konseptual layihənin icrası Azərbaycan milli iqtisadiyyatının dinamik inkişafını təmin etməsi ilə yanaşı, həm də iqtisadiyyatın bütün sahələrində tərəqqini təmin edəcəyinə, respublikamızı beynəlxalq səviyyədə daha da gücləndirəcəyinə görə mühüm strateji əhəmiyyətə malikdir. Bu baxımdan Strateji yol xəritələrində nəzərdə tutulmuş kompleks tədbirlərin icrasında dövlət qurumları ilə yanaşı sadə vətəndaşlardan tutmuş vətəndaş cəmiyyəti institutlarına qədər bütün maraqlı tərəflərin yaxından iştirakı və dəstəyinin zəruri olduğunu qey edə bilərik.

Son illərdə ölkədə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində Azərbaycan iqtisadiyyatının inkişafına və şaxələnməsinə nail olunmuşdur. Dünya iqtisadiyyatda baş verən maliyyə və iqtisadi böhranlara baxmayaraq Azərbaycan iqtisadiyyatının dinamik

inkişafı təmin olunub saxlanılmış və son illər ərzində Azərbaycan dünya miqyasında iqtisadi və sosial baxımından sürətlə inkişaf edən ölkələr sırasına daxil olmuşdur.

## Dövlətin strateji məqsədlərinin reallaşdırılmasında ərzaq təhlükəsizliyinin rolu

*RƏHİMOVA Məlahət Firqət qızı*
*İqtisadiyyat kafedrasının müəllimi*
*Azərbaycan Dövlət Aqrar Universitetinin doktorantı*

Azərbaycan dövlətinin sosial-iqtisadi inkişaf siyasətinin ən mühüm istiqamətlərindən biri ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. Nəzərdə tutulan tədbirlər ölkə əhalisinin zəruri həcmdə və keyfiyyətdə ərzaq məhsulları ilə daim təmin edilməsinə şərait yaradacaq. Ərzaq təhlükəsizliyi – ölkənin strateji maraqlarının qorunmasının, idxaldan asılılığın aradan qaldırılmasının, özünün zəruri həcmdə və keyfiyyətdə təminatının yaxşılaşdırılmasının, ərzaq müstəqilliyini təmin edilməsinin , iqtisadi sabitliyinin və sosial dayanıqlığının əsas şərtidir. Ərzaq təhlükəsizliyinin iqtisadi anlamı əhalinin ərzaq məhsullarına olan tələbatının təmin edilməsi üçün mövcud daxili imkanların, o cümlədən ölkənin aqrar sahədəki ehtiyatlardan səmərəli istifadə edilməsi imkanları ilə şərtlənir. Əhalinin sosial vəziyyətinin etibarlı şəkildə təmin edilməsinin tənzimlənməsinin ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsas şərtidir. Ərzaq təhlükəsizliyinin qiymətləndirilməsində gün ərzində istehlak edilmiş ərzaq məhsullarının kaloriliyi, onlardakı zülalların, yağların və karbohidratların miqdarı ümumi göstəricilər hesab edilir. Bu amillər insanın sağlamlığını, fiziki gücünü, normal fəaliyyətini və həyat tərzini formalaşdırır. Müasir dövrdə əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinin iki amilinə daha çox diqqət yönəldilir: 1) ərzaq bazarında məhsulların mövcudluğu, 2) onların əldə edilməsi üçün maliyyə imkanlarının olması. Ərzaq məhsullarının mövcudluğu istehsal və idxal münasibətlərindən asılıdır. Maliyyə imkanları isə adambaşına aylıq gəlirlərin səviyyəsindən asılıdır. Bu amillərdən biri çatışmırsa ərzaq təhlükəsizliyi təmin edilmir. Bazarda ərzaq məhsulları mövcuddursa, lakin onu ala bilmək imkanı yoxdursa, ərzaq təminatı həll edilməmiş hesab edilir. Maliyyə imkanları varsa, istehlak bazarında insanlar məhsulların çatışmazlığı halları ilə üzləşdiyi zaman ərzaq təhlükəsizliyini təmin etmək mümkün deyil.

Əhalinin etibarlı ərzaq təminatı ərzaq təhlükəsizliyi sisteminin ən mühüm və əhəmiyyətli bir tərəfini özündə əks etdirir.

Ərzaq təhlükəsizliyi bütövlükdə hər bir ölkənin milli təhlükəsizliyinin, eyni zamanda iqtisadi təhlükəsizliyin ən önəmli tərkib hissəsidir. Ölkənin ərzaq təhlükəsizliyinin etibarlı təşkilinin mürəkkəbliyi çoxsaylı faktlardan: iqtisadi, sosial, demoqrafik, ekoloji, təbii resurslardan səmərəli istifadə və regionların tarazlı inkişafından və s. əhəmiyyətli dərəcədə asılı olmasıdır. Ərzaq təhlükəsizliyi ərzaq istehsalı və bazarın təmin edilməsində dövlət maraqlarına cavab verən bir çox daxili və xarici amillərdən asılıdır. Ərzaq təhlükəsizliyinə təsir edən daxili amillərə aşağıdakılar daxildir:

- kənd təsərrüfatı torpaqlarının vəziyyəti, onların eroziyaya uğraması;
- daxili ehtiyatların, xüsusən suvarma və meliorasiya sistemin vəziyyəti;
- əkin strukturu və onun təkmilləşdirilməsinin bazar prinsiplərinə cavab verməməsi;
- heyvandarlığın inkişaf səviyyəsi, onların yemlə təminatının səviyyəsi;

- ərzaq məhsulları istehsalı üçün zəruri texniki bazanın formalaşması;
- istehsalın və emalın yeni texnologiya ilə təminatı;
- ərzaq məhsulları istehsalında xidmət infrastrukturunun vəziyyəti;
- emal və yeyinti sənayesinin inkişafı üçün investisiya dəstəyi;
- bitki və heyvanlara profilaktiki tədbirlər (baytarlıq və fitosanitar), məhsulun saxlanılması, emalı və s. əlaqədar mühafizə vasitələrindən düzgün istifadə;

Ərzaq təhlükəsizliyinə təsir edən amillərdən biri də xarici amillərdir, bu da aşağıdakılardır.

- ölkədə daxili ehtiyatlardan səmərəli istifadə edilməyindən, ölkə idxal etdiyi məhsula görə xarici ölkə istehsalçılarından asılı qalır;
- ərzaq istehsalında su ehtiyatları mühüm rol oynayır.
- ərzaq məhsulları istehsal edən obyektlərin xarici investorların mülkiyyətində olmaqla bir çox şərtləri diktə edirlər;

Ərzaq təhlükəsizliyinə təsir edən daxili amillərin tərkibinə kəmiyyət və inkişaf səviyyəsinin təmin edilməsi kontekstində baxmaqla, onun keyfiyyət aspektləridə nəzərə alınmalıdır.

Əhalinin ərzaq məhsulları ilə təchizatının həyata keçirilməsində müxtəlif üsulları mövcuddur. Ərzaq məhsullarının təminatı səviyyəsi göstəricisi, insanların fiziki çəkisinin və boyunu ölçülərinə təsir edən qida və mineral maddələrin tərkibi göstəriciləri və başqaları aiddir.

Hazırda ölkədə, dünya standartlarına cavab verən infrastrukturunun yaradılmasının təmin edilməsi və milli rəqabətqabiliyyətliliyinin yüksəldilməsi dövlətin əsas funksiyalarından biridir. Azərbaycanın öz potensialı ilə uğurlu, beynəlxalq standartlara müvafiq infrastrukturunun formalaşdırılması ölkənin nəinki müasir texnologiyalarının tətbiqi və inkişafına əsaslanan modernləşdirilməsini sürətləndirəcək, həm də Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin gələcəkdə artmasına kömək edəcəkdir. Ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin gücləndirilməsi Azərbaycan Respublikasında əhalinin maddi rifahının yaxşılaşdırılmasının, sosial-iqtisadi sabitliyinin, iqtisadi və milli təhlükəsizliyinin təmin edilməsi üçün həlledici amildir.

Azərbaycan Respublikasında dövlət siyasətinin ən mühüm istiqamətlərindən birini ərzaq təhlükəsizliyinin təmin edilməsi təşkil etdiyi ucun növbəti illərdə də bu sahədə görülən işlər genişləndiriləcək, nəzərdə tutulan tədbirlər ölkə əhalisinin zəruri həcmdə və keyfiyyətdə ərzaq məhsulları ilə daimi əsaslarla təmin edilməsinə istiqamətlənəcəkdir.

Ölkənin ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsi, o cümlədən ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi ilə bağlı bu Strateji Yol Xəritəsində müəyyən edilmiş çoxsaylı prioritetlər çərçivəsində geniş əhatəli tədbirlər nəzərdə tutulmuşdur. Eyni zamanda, ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin edilməsi üçün institusional potensialın gücləndirilməsi istiqamətində də zəruri tədbirlər görüləcəkdir.

Aqrar sahənin inkişafında əsas məqsədlərdən biri də - istehsal və emal olunan məhsulların həcmini artırmaqla yanaşı, onun keyfiyyət göstəricilərini yaxşılaşdırmaq və xərclərin mümkün qədər aşağı salınmasıdır. Məhsuldarlığın yüksəldilməsi aqrar sahədə iqtisadi, təşkilati, ekoloji və digər çoxsaylı məsələləri geniş şəkildə əhatə edir. Eyni zamanda, aqrar sahədə məhsuldarlığın yüksəldilməsi, istehsal potensialından səmərəli istifadənin təmin edilməsi, əmək məhsuldarlığının artırılması aqrar sahədə geniş təkrar istehsalın təmin edilməsinə xidmət edir.

Aqrar sektorun inkişafı strateji məqsədi ölkənin ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsi yüksəldilmişdir.

Bu mənada ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində 2015- ci ildə əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi kiyafət qədər yüksəlmişdir. Statistik məlumatlar və təhlillər göstərir ki, kənd təsərrüfatı və ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsini bir sıra məhsullar üzrə daha da yüksəldilməsi, həm cari, həm də perspektiv tələbat baxımında aktualdır (bax cədvəl 4)

Cədvəl 4

**Ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi (2015-ci il)**

| Məhsullar | Özünütəminetmə səviyyəsi,faizlə |
|---|---|
| Mal əti | 92,0 |
| Qoyun əti | 99,0 |
| Quş əti | 98,6 |
| Yumurta | 99,0 |
| Süd və süd məhsulları | 80,0 |
| Taxıl | 60,0 |
| Tərəvəz | 103,0 |
| Kartof | 90,0 |
| Bostan məhsulları | 100,0 |
| Meyvə və giləmeyvə | 120,0 |
| Üzüm | 98,0 |
| Şəkər və şəkərdən hazırlanan məhsullar | 170,0 |
| Kərə yağı | 60,0 |
| Bitki yağları və marqarin | 77,0 |

*Mənbə: Azərbaycan Respublikası Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Nəticədə ölkədə son 5 il ərzində əhalinin müvafiq ərzaq məhsulları istehlakında müsbət dinamika müşahidə olunur. Belə ki, bu dövr ərzində hər nəfərə düşən kartof istehlakı 21,1 faiz, tərəvəz və bostan məhsulları istehlakı 17,2 faiz, ət və ət məhsulları istehlakı 4,7 faiz, yumurta istehlakı 12,3 faiz, meyvə - giləmeyvə məhsulları istehlakı 13,9 faiz, bitki yağları və marqarin istehlakı isə 12,2 faiz artmışdır. Bunun müqabilində hər nəfərə düşən çörək məhsulları istehlakı 6,3 faiz, süd və süd məhsulları istehlakı 13,0 faiz azalmış, qənd və qənnadı məmulatlarının istehlakı isə 5,6 faiz azalmışdır. Çörək və çörək məhsulları istehlakının azalması, əhalinin qida rasionun digər məhsullar hesabına yaxşılaşması ilə bağlıdır. Süd və süd məhsulları istehlakının azalması isə kərə yağından istifadənin bitki yağları və marqarin hesabına azalmasına görədir.

Daxili bazarda həm istehlak tələbatının, həm də emal sənayesinin kənd təsərrüfatı xammalına olan tələbatının artımı hesabına müxtəlif kənd təsərrüfatı və ərzaq məhsullarını idxalı 2015-ci ildə 2005- ci ilə nəzərən əsaslı şəkildə artsa da, 2014-2015 ci illər ərzində bu göstərici üzrə azalma müşahidə olunur.

Kənd təsərrüfatı məhsullarının ixracı müvafiq dövrlərdə 8,5 dəfə və 1,6 dəfə, emal olunmuş kənd təsərrüfatı məhsulları isə, 14,7 dəfə və 3,0 dəfə artmışdır. 2001 - 2015- ci illər ərzində kənd təsərrüfatı və ərzaq məhsulları üzrə qlobal ixracda Azərbaycanın payı 0,014 %, 0.054% -ə yüksəlmişdir.

Azərbaycanda ixrac olunan kənd təsərrüfatı və ərzaq məhsullarının 44% -ni ilkin kənd təsərrüfatı, 56% -ni isə emal sənayesi məhsulları təşkil edir.

Ölkə iqtisadiyyatının digər sahələrinə nisbətən aqrar sahəyə investisiya qoyuluşları və kredit vəsaitləri həcminin az olması ucbatından, bu sahədə həyata keçirilən iqtisadi islahatların optimallığı və səmərəliliyi yetərincə deyildir. Bu səbəbdən də daxili bazar yetərincə qorunmur. Hesablaşmalar göstərir ki, aqrar sahənin enerji ilə təminatı səviyyəsi dünyanın əksər ölkələrinin səviyyəsindən çox aşağıdır.

## Milli iqtisadiyyatın inkişafında ərzaq təhlükəsizliyinin əhəmiyyətliliyi

*NƏSİBOVA Arifə Carı qızı*
*Sənayenin təşkili və idarəetmə kafedrası*

Respublikamızın bir müstəqil dövlət kimi davamlı inkişafını şərtləndirən əsas amillərdən biri ölkədə ərzaq təhlükəsizliyinə nail olunması istiqamətində mühüm nailiyyətlərin əldə edilməsidir. Etibarlı ərzaq təminatı həm də hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlığının başlıca şərti, dövlətin kompleks təhlükəsizliyinin, o cümlədən iqtisadi təhlükəsizliyinin mühüm atributlarından və komponentlərindən biridir. Son illər ərzində müasir tələblərə cavab verən minlərlə infrastruktur və sosial obyektlərin inşası ilə bərabər, biznes və investisiya mühitinin yaxşılaşdırılması regionların iqtisadi potensialını gücləndirməklə, ümumilikdə, iqtisadiyyatın diversifikasiyasının sürətlənməsinə, qeyri-neft sektorunun və ixracının artmasına, ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə mühüm töhfə vermişdir: bu səbəbdən cəmiyyətin hər bir üzvünün əsas ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi üçün davamlı olaraq müvafiq tədbirlərin həyata keçirilməsi vacib şərtlərdən biridir.

Hazırda dünya iqtisadiyyatında cərəyan edən proseslərin ümumi təhlili göstərir ki, ərzaq təhlükəsizliyi getdikcə daha ciddi xarakter daşıyan bir məsələyə çevrilib. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına görə, əgər 1950-1985-ci illərdə ərzaq istehsalının illik artımı 30 milyon ton, 1985-1995-ci illərdə 12 milyon ton təşkil edirdisə, 2030-cu ilədək bu göstərici cəmi 9 milyon ton səviyyəsində olacaq. Qarşıdakı illər ərzində əhali artımı ilə müqayisədə ərzaq istehsalının ötən dövrlərə nisbətən azalması bir daha qida təhlükəsizliyinin gələcək illərdə təmin olunmasının nə dərəcədə zəruri xarakter daşıyacağını əyani təsəvvür etməyə imkan verir.

Sosial-iqtisadi aspektdə ərzaq təhlükəsizliyi tələbatı təmin etmək qabiliyyətini, siyasi-iqtisadi prizmadan yanaşıldıqda isə bu tələbatları təmin etmək üçün ölkənin daxili ehtiyatları və aqrar-sənaye potensialını səfərbərliyə almaq qabiliyyətini özündə ehtiva edir. Bununla yanaşı, ərzaq təhlükəsizliyini həm daxili, həm də xarici təhlükələrlə bağlamaq lazımdır. Bu zaman daxili amillərin təsir miqyası xarici amillərdən daha çoxdur. Belə ki, keçən əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəlində bütövlükdə Azərbaycan iqtisadiyyatının, xüsusilə aqrar-sənaye kompleksinin tənəzzülünə gətirib çıxarmış səriştəsiz idarə olunmanı deyilənlərə əyani misal göstərmək olar. Lakin keçən əsrin 90-cı illərinin ortalarında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Müstəqil Dövlətlər Birliyi məkanında analoqu olmayan torpaq islahatlarının ölkəmizdə həyata keçirilməsi, kənd təsərrüfatı istehsalçılarına yardım mexanizmlərinin formalaşdırılması, beynəlxalq təşkilatlarla birlikdə bu sahədə əhəmiyyətli layihələrin icrasına başlanması və bu qəbildən olan digər tədbirlər ərzaq təhlükəsizliyi sferasında daxili amillərin təsir miqyasının yalnız müsbət müstəvidə cərəyan etməsini şərtləndirdi.

Prezident İlham Əliyevin 1 may 2008-ci il tarixdə "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramının hazırlanması haqqında" sərəncamı ərzaq təhlükəsizliyinin təminatı məsələsində yeni bir mərhələnin başlanmasına start verdi. Eyni zamanda dövlət başçısının 25 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" isə ərzaq təhlükəsizliyi sahəsində ən əsas və aparıcı addımlardan biri oldu. Dövlət proqramının əsas məqsədi ölkənin hər bir vətəndaşının sağlam və məhsuldar həyat tərzi üçün qəbul edilmiş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsinə nail olmaqdır. Bu məqsədə çatmaq üçün dövlət proqramı çərçivəsində bir sıra vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur. Bunlardan ölkədə ərzaq məhsulları istehsalını artırmaq, əhalini təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək, ərzaq təminatı sahəsində risklərin idarə olunmasını təmin etmək, ərzaq təminatı sisteminin institusional inkişafını həyata keçirmək və sahibkarlıq mühitini yaxşılaşdırmaq kimi hədəflər müəyyənləşdirilib. Qeyd olunan vəzifələrin yerinə yetirilməsi üçün bu sahədə həyata keçirilən və keçiriləcək tədbirlər ölkədə sabit və adekvat ərzaq təklifinin formalaşdırılmasına, səmərəli istehsal və satış infrastrukturunun yaradılmasına, ərzaq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsinə və hər bir vətəndaşın ərzaq məhsullarına çıxışının təmin olunmasına böyük önəm verən cənab Prezident qeyd etmişdir ki, bu gün Azərbaycan artıq öz kənd təsərrüfatı məhsullarını ixrac edir və gələcəkdə bu, daha da böyük rəqəmlərlə ölçüləcəkdir: "Ona görə, yeni bazarlara çıxışı təmin etmək vacib məsələdir. Bir sözlə, Azərbaycanda ərzaq təhlükəsizliyi 100 faiz daxili istehsal hesabına təmin edilməlidir. Özümüzü yumurta ilə 96,5 faiz, süd və süd məhsulları ilə 75 faiz, taxılla 65 faiz, üzümlə 94 faiz, kartofla 98 faiz, bostan məhsulları ilə 100 faiz təmin edirik. Meyvə və giləmeyvə 126 faiz, yəni, böyük ixrac potensialımız da vardır. Tərəvəz 100 faiz, duz 72 faiz, şəkər və şəkərdən hazırlanan məhsullar 174 faiz, — bu, ən böyük ixrac potensialımızdır, — bitki yağları və marqarin 70 faiz, kərə yağı 50 faiz."

Kənd təsərrüfatının belə sürətlə inkişafında 2004-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə yaradılan "Aqrolizinq" ASC-nin də xüsusi rolu olub. Belə ki, 2005-2013-cü illər ərzində dövlət büdcəsindən və ehtiyat fondları hesabına 458 milyon manat vəsait ayrılmış, təkrar istifadədən qaytarılan 179 milyon manat və eləcə də müxtəlif mənbələrdən ayrılan 13 milyon manat da daxil olmaqla, onun investisiya portfeli 650 milyon manat təşkil etmişdir.

Ümumiyyətlə, ölkə başçısının xüsusi diqqəti və qayğısı sayəsində aparılan aqrar islahatlar nəticəsində son illər kənd təsərrüfatı sürətlə inkişaf etmiş və müvafiq olaraq adambaşına düşən ərzaq məhsullarının istehsalı xeyli artıb və artmaqdadır. Həyata keçirilən uğurlu tədbirlər ölkənin inkişaf strukturuna təsir edərək onun daxili və xarici bazarın tələblərinə uyğun formalaşmasına imkan yaradacaqdır.

# XİDMƏT VƏ SOSİAL İNFRASTRUKTUR BÖLMƏSİ

## Davamlı iqtisadi inkişafın təmin edilməsində sahibkarlığın rolu

*i.f.d., dos. HÜSEYNOVA Emiliya Yəhya qızı*
*Sənayenin təşkili və idarəetmə kafedrasının müdiri*

Ölkəmizdə özəl sektorun zəngin tarixi var. Azərbaycan mühüm ticarət yollarının üzərində yerləşdiyi üçün onun bu sahədə imkanları da geniş olur. Biz müxtəlif ölkələrdən mal alıb gətirdiyimiz kimi, öz məhsullarımızı da xarici bazara çıxarırıq. Məhsul ixracında vaxtilə dulusçuluq, dəmirçilik, zərgərlik, ipəkçilik, xalçaçılıq kimi sahələrin məhsulları üstünlük təşkil edirdi. Ötən əsrin əvvəllərində isə ölkəmizdə neft hasilatına başlanması yeni sahələri - maşınqayırma, gəmiqayırma, metallurgiya, neft-kimya sənayesini formalaşdırdı. Həmin dövr Azərbaycanda Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev, Seyid Mirbabayev və digər sahibkarlar öz işgüzarlıqları və bacarıqları ilə dünyada şöhrət qazanmışdılar.

Sovet işğalından sonra Azərbaycanda sahibkarlığa son qoyuldu və 70 il ərzində bu fəaliyyət növü rəsmən qadağan edildi. Yalnız dövlət müstəqilliyimiz bərpa edildikdən sonra ölkədə yeni siyasi-iqtisadi vəziyyət yarandı. Artıq ölkəni əvvəlki inzibati üsullarla idarə etmək mümkün deyildi, demokratik idarəetmə və bazar iqtisadiyyatı yolu seçilməliydi. Bazar iqtisadiyyatının bərqərar olması üçün isə mütləq sahibkarlıq sinfinin formalaşması vacib idi. Bu səbəbdən siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev bazar iqtisadiyyatına keçidlə bağlı radikal islahatların aparılmasına qərar verdi. Tezliklə bu istiqamətdə bir sıra yeni qanun və qərarlar qəbul edildi, sahibkarlıq və özəl sektorun inkişafına geniş imkan yaradıldı. Ulu öndərin strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyev də özəl sektorun və sahibkarlığın inkişafına xüsusi diqqət yetirir. Yerli istehsalın və sahibkarlığın stimullaşdırılması üçün bir sıra vergi güzəştlərinin tətbiqi, sahibkarlara güzəştli şərtlərlə kreditlərin verilməsi və s. bu diqqətin nəticəsidir. Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar sahibkarlığın dinamik inkişafı və ölkəyə xarici investisiyaların cəlb edilməsi üçün geniş imkanlar açır.

İqtisadi inkişafın ölkənin bütün regionlarını əhatə etməsi vacib şərtdir. Buna nail olmaq üçün dövlət başçısı Azərbaycan Respublikası regionlarının (2004-2008, 2009-2013, 2014-2018-ci illərdə) sosial-iqtisadi inkişafı Dövlət Proqramılarını təsdiq etdi. Məqsəd yerlərdə əlverişli biznes və investisiya mühitini formalaşdırmaq, regionlarda sahibkarlıq fəaliyyətini gücləndirməklə bölgələrin istehsal potensialından daha səmərəli istifadə etmək idi. Bunun ardınca daha iki regional inkişaf proqramı qəbul olundu. Həmin proqramların icrası eyni zamanda yerlərdə sahibkarlığın inkişafına xidmət edirdi. Nəticə göz qabağındadır: son 10 il ərzində ölkə üzrə 1 milyon 400 mindən çox yeni iş yeri yaradılıb. Onun da yarıdan çoxu bölgələrin payına düşür. Bu iş yerləri isə minlərlə özəl sənaye, emal, kənd təsərrüfatı müəssisələri, xidmət obyektləri deməkdir. 2005-2015-ci illərdə ölkədə ümumi daxili məhsul istehsalı 4,7, o cümlədən sənaye məhsulları istehsalı 1,9, kənd təsərrüfatı məhsulları istehsalı 2,3 dəfə artıb ki, bu da əsasən özəl sektor hesabına mümkün olub. Dünyada sərbəst iqtisadiyyatın inkişaf etdiyi bütün ölkələrdə aparıcı yeri kiçik və orta sahibkarlıq tutur. Bu sahədə çalışan iş adamları bazarın dəyişkənliyinə daha tez uyğunlaşır, həm özlərini, həm də başqalarını işlə təmin edir, üstəlik, dövlətə vergi ödəyirlər. İdarəetmə mexanizmi asan olduğu üçün kiçik və orta biznes çoxlarını özünə cəlb edir.

Ölkəmizdə bu sahəyə böyük diqqət göstərilir. Məlum olduğu kimi, müstəqilliyimizin bərpasından sonrakı ilk dövrlərdə - 1997-ci il iyulun 24-də “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa Dövlət Köməyi Proqramı (1997-2000-ci illər üçün)” qəbul edilmişdir. Məqsəd ölkədə kiçik və orta sahibkarlığın rolunun müəyyən edilməsi, bu istiqamətdə qanunvericiliyin möhkəmləndirilməsi, sahibkarların bu təbəqəsi üçün münbit maliyyə-kredit sisteminin formalaşdırılması idi.

Bu gün Prezident İlham Əliyev ölkədə özəl sektorun, o cümlədən kiçik və orta sahibkarlığın inkişafına xüsusi önəm verir. İlk növbədə onların qarşısına çıxan problemlərin operativ həlli üçün zəruri tədbirlər görür. Dövlət başçısı tərəfindən 2015-ci ilin oktyabrında imzalanmış “Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi haqqında” fərmanı buna sübutdur. Belə ki, sahibkarlıqda lisenziyalar müddətsiz müəyyən edilib, dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə azaldılıb, lisenziyaların “ASAN xidmət” mərkəzlərində verilməsinə və “Elektron lisenziya” portalının yaradılmasına başlanılıb.

Eyni zamanda Prezident qanunvericilik təşəbbüsü hüququndan istifadə edərək Milli Məclisə “Sahibkarlıq fəaliyyətində aparılan yoxlamaların dayandırılması haqqında” qanun layihəsi təqdim etmiş və sənəd parlamentdə müzakirə edilərək qəbul olunmuşdur. Qanunun qüvvəyə minməsi 2 il ərzində sahibkarlıq subyektlərində lüzumsuz yoxlamaların qarşısını almağa imkan verir. Bundan əlavə, “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” qanun da bu sahədə böyük dönüşün yaranmasında önəmli rol oynayır. Həmin qanun kiçik və orta sahibkarlıq subyektlərinə bir sıra imtiyazlar verməklə onların fəaliyyətlərinin genişlənməsinə imkan yaradır. Onun qəbulundan sonra ölkəmizdə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı sürətlə artır.

Prezident İlham Əliyev sahibkarlığın inkişafını ölkənin ümumi inkişafının bir hissəsi olduğunu vurğulayaraq demişdir: “Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində bu gün çox ciddi addımlar atılıb. Deyə bilərəm ki, sahibkarlar bu işlərə artıq böyük ruh yüksəkliyi ilə qoşulurlar, xüsusilə kənd təsərrüfatı, emal və sənaye sektorunda. Bakıda, böyük şəhərlərdə, bütün şəhər və rayonlarımızda çox böyük fəallıq müşahidə olunur. Bu da əlbəttə ki, həm bizim siyasətimizin təzahürüdür, - çünki özəl sektorda sahibkarlığın inkişafı üçün çox ciddi addımlar atılıb, - eyni zamanda bizim sahibkarlarımızın da məsuliyyətini göstərir. Sahibkar qazandığı vəsaiti ölkə iqtisadiyyatına qoymalıdır. Bu istiqamətdə gələcəkdə də çox ciddi addımlar atılacaq”.

Ölkədə kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsinə böyük ümidlər bağlanmaqdadır. Çünki kiçik və orta sahibkarlığın güclənməsi qeyri-neft sektorunun inkişafında böyük önəm daşıyır və əsas hədəf sayılmalıdır. İnkişaf etmiş ölkələrdə ümumi daxili məhsul (ÜDM) istehsalında kiçik və orta sahibkarların payına baxsaq, qeyd edə bilərik ki, neçə illərdir məsələn, konkret olaraq kənd təsərrüfatına dövlət tərəfindən mühüm güzəştlər tədbiq edilsə də, müvafiq maliyyə dəstəyi göstərilsə də, kreditləşdirmə həyata keçirilsə də bizdə kiçik və orta sahibkarlığın inkişafı qənaətbəxş səviyyədədir.

Xəritədə də qeyd edilib ki, inkişaf etmiş ölkələrdə kiçik və orta sahibkarlığın ÜDM-də və məşğulluqdakı xüsusi çəkisinə nəzər saldıqda Azərbaycanda da davamlı iqtisadi inkişafın təmin edilməsində onun əsas hərəkətverici amilə çevrilməsi qarşıda duran əsas çağırışlardan biridir: Ancaq məsələ bundadır ki, Strateji Yol Xəritəsi çərçivəsində görüləcək tədbirlər sırasına mərkəzləşdirilmiş agentliyin yaradılması, xüsusi sənaye zonalarının və klasterlərin təşkili, fəaliyyətə xitam verilməsi və müflisləşmə məsələlərinin həlli sahəsində islahatların aparılması, sözgedən sahibkarlıq subyektlərinin beynəlxalq ticarət əməliyyatları üçün

maliyyə xidmətlərinin genişləndirilməsi və birbaşa xarici investisiyaların təşviqi, ayrı-ayrı sektorlar üzrə ixrac assosiasiyalarının yaradılması və o cümlədən, biznes inkubatorları, startap layihələrinin inkişaf etdirilməsi, model müəssisələrin təsisi kimi işlər daxil olduğundan, bunların hər biri ayrı-ayrılıqda mühüm və ciddi məsələlər sayılır. Bunlardan sonuncusu diqqət tələb edən və xüsusi yanaşmaya ehtiyac olan prioritet məsələdir. Biznes inkubator - başlanğıc mərhələdə kiçik sahibkarlıq fəaliyyətinin yaranması, başqa sözlə desəm, təşəkkül tapması üçün yardım əli uzadan, kiçik sahibkarlıq ilə məşğul olmaq istəyənlərə icarə üçün yer ayıran, məsləhət verən, hüquqi, mühasibat və digər xidmətlər göstərən subyektdir.

İlk biznes inkubatorlar ötən əsrin 50-ci illərində ABŞ-da meydana gəlib və bu gün də onlar demək olar ki, bütün dünyada mövcuddur. İnkişaf etmiş ölkələrdə biznes inkubatorların işinə məsələn, müvafiq ofisi zəruri avadanlıqlarla təmin etmək, mühasibat uçotu, bayaq qeyd etdiyim kimi, kargüzarlıq aparmaq, biznesin irəliləməsi üçün məsləhətlər, hətta müvafiq vəsait axtarışı, biznesin aparılması və bu sahədə uğura nail olunması üçün müxtəlif təlimlər, seminarlar keçirmək kimi xidmətlər daxildir. Azərbaycanda hökumət 2020-ci ilə kimi ölkədə azı 5 biznes inkubatoru yaradılmasını nəzərdə tutur. Strateji Yol Xəritəsində sözügedən prioritetin icrası üçün 2020-ci ilədək 50 milyon manat həcmində investisiya tələb olunduğu yazılıb. Qarşıdakı 3-4 il ərzində cəmi hətta 2-3 biznes inkubatorlarının təşəkkül tapması yolu ilə kiçik və orta sahibkarlığın inkişafına həqiqi mənada dəstək göstərmək təşəbbüsünə nail olunsa, bu, dərhal diqqəti cəlb edəcək və qısa müddətə ardıcıl bir prosesə çevriləcək.

2013-2023-cü illəri əhatə edəcək Azərbaycanın inkişaf etmiş ölkələr sırasına çıxarılması və əhalimizin yüksək gəlirli topluma çevrilməsi, qeyri-neft sektorunun, özəl bölmənin, sahibkarlığın hərtərəfli inkişafı sayəsində ümumi daxili məhsulun artırılması, dövlət və özəl qurumların birgə fəaliyyəti üzrə yeni strategiyanın hazırlanması, ən müasir texnologiyaları tətbiq etməklə iqtisadiyyatın modernləşdirilməsi, elm və innovasiyalara əsaslanan cəmiyyət quruculuğu, hüquqi dövlətçilik prinsiplərinin, insan hüquq və azadlıqlarının tam bərqərar edilməsi Prezident İlham Əliyevin qarşıya qoyduğu başlıca hədəflərdir. Bu hədəflərə nail olunması üçün bütün strukturların səfərbər edilməsi labüddür.

## Birbaşa xarici investisiya qoyuluşlarının ölkənin rəqabətqabiliyyətliliyinə təsirinin təhlili

*i.f.d. SƏMƏDOVA Ofeliya Müzəffər qızı*
*İqtisadiyyat kafedrasının dosenti*
*NİFTƏLİYEV Nazim Fazil oğlu*
*İqtisadiyyat kafedrasının baş müəllimi*
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı*

Hazırda Azərbaycan iqtisadiyyatı dünyanın bir çox transmilli korporasiyalarının geniş fəaliyyət göstərmələri, birbaşa xarici investisiya qoyuluşları üçün əlverişli mühitə malikdir. Xarici investisiyalar daha çox yanacaq-energetika sahələrinə yönəldiyindən həmin sahələrin ixrac potensialı daha çox xüsusi çəkiyə malik olmuş və bu çəkinin daha da artırılması meyili özünü göstərməkdədir. İndiki şəraitdə dünyanın bir çox ölkələrinin iqtisadiyyatı kimi Azərbaycan da dünya bazarında neftin qiymətinin kəskin aşağı düşməsi və digər problemlərlə bağlı milli valyutanın məzənnəsinin devalvasiyası, büdcə vəsaitlərində bəzi

dəyişikliklər edilməsi ilə qarşılaşmışdır ki, bu da milli iqtisadi artım amillərinin ciddi təhlilini tələb edir. Qeyd edilən vəziyyət ölkənin iqtisadiyyatında qeyri-neft sektorunun inkişafına diqqəti daha da artırır, iqtisadiyyatda şaxələnmənin sürətləndirilməsi istiqamətində əsaslı dönüş edilməsini tələb edir.

Nəzərə almaq lazımdır ki, indiki zamanda istər neft, istərsə də qeyri-neft sektoruna milli investisiya qoyuluşları çox az olduğundan xarici investisiya qoyuluşlarının cəlb edilməsi hələ ki, diqqət mərkəzində saxlanılır. Çünki ölkəmizin iqtisadiyyatının mövcud vəziyyətində milli kapitalların və milli sahibkarlıq qabiliyyətinin beynəlxalq rəqabət qabiliyyətinin kifayət qədər aşağı olması xarici investisiyaların cəlb edilməsini tələb edir. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ölkə iqtisadiyyatının rəqabətqabiliyyətinin artırılması üçün tələb olunan ümumi investisiyanın həcmini müəyyən etmişdir. Aparılan hesablamalara görə iqtisadiyyatın xammal-material və enerjidaşıyıcı sahələri ilə əlaqədar olmayan hasiledici sənaye sahələri üçün ümumi investisiya qoyuluşuna olan tələbin məbləği 10-11 mlrd. dollar təşkil edir. Əgər yalnız birbaşa investisiya bazarının illik ixracının mümkün məbləğinin (mütəxəssislərin hesablamalarına görə) 200 mlrd. dollara bərabər olduğunu nəzərə alsaq, deməli, Azərbaycan özünün milli iqtisadiyyatının tələb etdiyi məbləği cəlb etmək üçün açıq iqtisadiyyat siyasətini və bununla da investisiya rejiminin liberallaşması siyasətini daha səmərəli həyata keçirməli və bu qəbildən olan ölkələrlə kəskin rəqabət aparmalıdır. Deməli, Azərbaycan birbaşa xarici investisiyaları daha çox stimullaşdırmaq istiqamətində əlverişli iqtisadi, siyasi, hüquqi və s. şəraitin yaradılması üçün sistemli tədbirlər həyata keçirməlidir.

Son illərdə xarici investisiya qoyuluşlarına, xüsusən birbaşa investisiya qoyuluşlarına münasibətdə çoxsaylı maneələr aradan qaldırılmışdır. İlk növbədə, ölkə ərazisində xarici mülkiyyətin qorunması ilə bağlı qanun və qərarlar sadələşdirilmiş, bəziləri isə beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Bunların sırasında normativ-hüquqi aktların dəqiqləşdirilməsi ilə bir çox milli məhkəmə və inzibati orqanların xarici investisiyaların fəaliyyətindəki hüquqi cəhətlərə müdaxiləsi üzrə səlahiyyətləri demək olar ki, sıfıra endirilmişdir.

Azərbaycanda qeyri-neft sektorunun rəqabətqabiliyyətlilik strategiyası və bunun üçün sektorun sabit inkişafının qorunub saxlanılması üçün aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi lazım gəlir:

- son milli istehsal məhsullarının və hazır məmulatlar istehsalının artırılmasının potensial imkanlarının aşkara çıxarılması;
- regionlarda kiçik və orta sahibkarlığın inkişafının daha çox stimullaşdırılması;
- regionlarda istehsal təyinatlı infrastruktur sahələrin geniş miqyasda inkişaf etdirilməsi;
- milli sənayenin, xüsusən hazır məhsullar istehsalı sahələrinin innovativ və texnoloji bazasının formalaşdırılmasına nail olmaq;
- yüksək ixtisaslı milli kadrların hazırlanması, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi.

Qeyri-neft sektoru ilə birbaşa bağlı olan həmin strateji sosial-iqtisadi proseslərin inkişafına sürət vermək üçün ölkənin neft gəlirləri hesabına yaradılan və Dövlət Neft Fondunun vəsaitləri xüsusi əhəmiyyət daşımaqdadır. Təsadüfi deyildir ki, Neft Fondunun vəsaitləri ilə dəstəklənən və qeyri-neft sektorunun inkişafına yönəldilən həmin layihələr iri investisiya və infrastruktur layihələridir. Bu layihələrin əsas məqsədi milli iqtisadiyyatın strukturunun sağlamlaşdırılması, xüsusən qeyri-neft sektorunun daha sürətli inkişafını stimullaşdırmaqla sektorun son iqtisadi nəticələrinin beynəlxalq rəqabət qabiliyyətini gücləndirməkdir.

Azərbaycanın milli iqtisadiyyatının prioritet sahələri ilə yanaşı ölkədə istehsal infrastrukturunun artırılması və keyfiyyətinin yüksəldilməsi üçün birbaşa xarici investisiya qoyuluşlarına üstünlük verilməsi qeyri-neft sektorunun rəqabət qabiliyyətinin yüksəldilməsi üçün olduqca zəruridir. Bu zərurət qeyri-neft sektorunun yalnız özlüyündə sürətli inkişafı üçün deyil, daha çox istehsal infrastrukturunun həmin sektorun son nəticələrinin beynəlxalq rəqabətqabiliyyətli olmasına təsirinin gücləndirilməsindən irəli gəlir. Bu mənada ölkədə qeyri-neft sektorunun istehsal infrastrukturunun keyfiyyətinin yüksəldilməsi üçün birbaşa xarici investisiyaların aşağıdakı milli istehsal təyinatlı infrastruktur yatırılması məqsədəuyğun sayılır:

- nəqliyyat infrastrukturunun texniki və iqtisadi parametrlərinin daha da yaxşılaşdırılması. Milli iqtisadiyyatda geniş təkrar istehsal prosesinin fasiləsizliyini təmin etmək üçün keyfiyyətli nəqliyyat sistemi ölkənin rəqabət gücünün formalaşmasında müstəsna əhəmiyyətə malikdir.
- informasiya və kommunikasiya infrastrukturunun gücləndirilməsi. Hazırda milli iqtisadiyyatın və onun ayrı-ayrı sahələrinin dünya bazarındakı konyunktur dəyişikliklər barədə informasiyanın əldə olunması, informasiya təminatının çevikliyi daha da güclənir.
- kommunal-təsərrüfat infrastrukturunun texniki bazasının və göstərilən xidmətin keyfiyyətinin artırılması. Kommunal təsərrüfatı və burada formalaşan kommunal xidmətlərinin keyfiyyəti istər milli və istərsə də xarici sahibkarların işgüzar fəaliyyətinə, bu fəaliyyətin rəqabət qabiliyyətinin artmasına, hətta xarici investorların ölkəyə axıb gəlməsində xüsusi rol oynayır.

Bütün bunlar bir daha göstərir ki, birbaşa investisiyaların ölkə iqtisadiyyatının bütün sahələrinə yatırılmasında balanslı nisbətin gözlənilməsi ilə yanaşı həmin investisiyaların istehsal təyinatlı infrastrukturun daha da artırılmasına istiqamətləndirilməsi meyili gücləndiriləcək. Bu istiqamət ölkənin rəqabət qabiliyyətli inkişafına təsir edə bilən amilləri əvvəlcədən müəyyən etməyə, həmin amillərdən maksimum faydalanmalı və iqtisadi rəqabətdə üstünlüyü qazandıra bilən nəticələrə çatmağın daha konkret yollarını tapmaq lazım gələcəkdir. Yollar sayca çox az olsa da, hər halda irəliləmənin mürəkkəb və çətinliyi də danılmazdır. Əsas yol rəqabət üstünlüyünə imkan verən prioritet sahələri dəqiq müəyyən etmək strategiyasıdır. Bu strategiyanın ən vacib məqamları növbəti suallarda araşdırılacaq, onların hansı proseslər, meyarlar və prinsiplər əsasında müəyyən edilməsi məsələləri öyrənilib nəticə çıxarılacaqdır.

Müasir şəraitdə Azərbaycanın milli iqtisadiyyatının rəqabətqabiliyyəti, ölkənin milli iqtisadiyyatının aparıcı sahələrinin ixracyönümlülüyünün artırılması xarici investisiya qoyuluşları ilə daha çox əlaqələnir. Xarici investisiya qoyuluşları içərisindən birbaşa xarici investisiyaların seçilməsi, onlara üstünlük verilməsi istiqamətləri dəqiqləşdirilmişdir. Milli iqtisadiyyata birbaşa xarici investisiya qoyuluşlarının artırılması ilə əlaqədar Azərbaycanda istehsal olunan hazır və son istehlak mallarının dünya bazarına çıxarılması, onların rəqabətqabiliyyətli olması imkanları aşkara çıxır.

## Azərbaycanın energetika sənayesinin inkişafında hidroenerji potensialının rolu

*tex.f.d. İSMAYILOV Mahir Balaca oglu*
*İstilik texnikası kafedrasının dosenti*

Enerjiyə tələbat getdikcə artdığından bərpa olunan enerji mənbələrinə maraq bu gun daha da aktuallaşmışdır. Azərbaycan Respublikası coğrafi quruluşuna və bir çox hidroenerji resurslarına görə qonşu respublikalardan fərqlənir. Burada çoxlu sayda irili-xırdalı dağ çayları vardır. Kür və Araz çayları da respublikamızın elektrik enerji təminatında və kənt təsərrüfatının inkişafında böyük əhəmiyyət kəsb edir. Kür çayı qolları ilə birlikdə Cənubi Qafqazın hidroresurslarının potensial ehtiyatının 40%-ni, texniki imkanına görə 19%-ni və iqtisadi cəhətdən effektiv olan hidroresurslarının isə 18%-ni təşkil edir.

Azərbaycanda potensial hidroresurslar 40 mlrd.kVt.saat miqdarında müəyyən edilir. Lakin bu potensial enerji çayların sululuğundan asılı olaraq 30-40 mlrd.kVt.saat hədlərində dəyişə bilər. Respublikanın hidroresurslarının potensial gücü 2867,2 min kVt.saat, potensial enerjisi isə 16583,0 mln.kVt.saat-a bərabər hesab edilir. Hesablamalara görə Azərbaycan ərazisindəki çay resurslarının xarakteristikalarını ümumi şəkildə aşağıdakı kimi vermək olar: Naxçıvan MR-ın çaylarının potensial enerjilərinin cəmi 1565 mln.kVt.saat, Araz ətrafı çayların potensial enerjilərinin cəmi 3942 mln.kVt.saat, Gəncə-Daşkəsən bölgəsinin çaylarının potensial enerjilərinin cəmi 2192 mln.kVt.saat, Qarabağ bölgəsinin çaylarının potensial enerjilərinin cəmi 1524 mln.kVt.saat, Şəki-Zaqatala bölgəsinin çaylarının potensial enerjilərinin cəmi 8000 mln.kVt.saat, Şirvan bölgəsinin çaylarının potensial enerjilərinin cəmi 1180 mln.kVt.saat.

Azərbaycanda SES-lərin ümumi gücünün daha da artırılmasına imkan verən kifayət qədər hidroenerji ehtiyatları vardır. Hesablamalara görə respublika ərazisində çayların nəzəri hidroenerji potensialı 43 mlrd.kVt.sat təşkil edir. Respublikanın texniki hidroenerji potensialının yalnız bir hissəsi, yəni SES-lərdə hasil olunan elektrik enerjisinin miqdarından asılı olaraq təxminən 10-15%-dən istifadə edilir. Ümumiyyətlə, Azərbaycanın su ehtiyatları özündə ümumi uzunluğu 33665 km olan 8359-dan çox çayı birləşdirir. Bu çayların 21-nin uzunluğu 100 km-dən çoxdur. Kür, Araz, Qanıx, Samux, Tərtər, Pirsaat, Türyan çayları əsas çaylar hesab olunur. Kür. Araz, Samur, Tərtər və bu kimi digər çaylar həm qar, buzlaq, yağış suları ilə, həm də yeraltı sularla qidalanırlar. Bu çaylar axımı daimi olan çaylardır.

Respublikamızın hidroenerji, suvarma, nəqliyyat əhəmiyyətinə görə ən böyük çayı Kürdür. Kür çayı üzərində 1954-cü ildə Mingəçevir SES işə salınmışdır. SES-də 6-hidroaqreqat quraşdırılmışdır. Hal-hazırda gücü 470 MVt təşkil edir. 1957-ci ildə Kür çayı üzərində Mingəçevir SES silsiləsinə daxil olan Varvara SES 16,5 MVt gücündə işə salınmışdır. 1982-1983-cü illərdə 380 MVt gücündə Şəmkir SES işə buraxılmışdır. 1999-cu ilin dekabrında Mingəçevir SES-lə Şəmkir SES arasında Yenikənd SES 112,5 MVt gücündə 3 horizontal tipli hidroaqreqat işə salınmışdır. Burada 2003-cü ildə dördüncü aqreqat da quraşdırılmış və gücü 150 MVt-a çatdırılmışdır.

Kürün sağ qollarından biri Tərtərçaydır. Çayın üzərində tikilən SES-in gücü 50 MVt-dır. Kürün ən böyük qolu Araz çayıdır. Bu çayın üzərində 1971-ci ildə hər birinin gücü 22 MVt olan iki SES (İran və Azərbaycan) tikilmişdir. Bundan başqa kiçik çaylar üzərində onlarla mikro SES-lər tikilmişdir. Bunlara Qusarçay, Vəlvələçay, Qudyalçay, Naxçıvan MR-da Ordubad və Vayxur SES-ləri misal göstərə bilərik. Yaxın perspektivdə 60-a qədər SES-in tikintisi məqsədəuyğun hesab edilir.

Hazırda respublikamızın ümumi enerji sistemində SES-lərin istehsal gücünün xüsusi çəkisi 17,8%, hasil edilən elektrik enerjisində isə payı 11,6%-dir.

Su elektrik stansiyaları bərpa olunan enerji mənbələrinə aiddir. Bu stansiyalarda axar suyun kinetik enerjisi elektrik enerjisinə çevrilir. SES-də istehsal olunan elektrik enerjisi xeyli ucuz başa gəlir. SES-lərin tikilməsi ölkənin iqtisadi qüdrətinin artırılması istiqamətində mühüm sahələrin inkişafına şərait yaradar.

## Aqrar sahənin inkişafında sahibkarliğin rolu

*HACIYEVA Elmira Zülfüqar qızı*
*Sənayenin təşkili və idarəetmə kafedrasının baş müəlimi*

Son zamanlar ölkədə aparılan tədqiqatlardan aydın olur ki, iqtisadiyyatın çoxsahəli inkişafinin ən mühüm yollarından biri sahibkarlığın inkişaf etdirilməsidir. Sahibkarlıq fəaliyyətinin inkişaf dinamikasının göstəricisi nə qədər yüksək olarsa, iqtisadiyyat bir o qədər diversifikasiya olunar və təsərrüfatın bir sahədən asılılığı aradan qalxar. Bu baxımdan ölkə iqtisadiyyatında qeyri – neft sahələrində inkişafın yaxşılaşdırılması, qanunvericilik sisteminin daha da təkmil formaya gətirilməsi, həmçinin daxili və xarici investorların, elmi yeniliklərin, idarəetmə bacarıqlarının ölkəyə axınının təmin edilməsi və bununla da keyfiyyətli, rəqabətə davamlı məhsulların istehsalı ölkə iqtisadiyyatının əsas məqsədlərindən biri olmalıdır.

Bazar iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi hesab edilən sahibkarlıq fəaliyyəti iqtisadi təbiətinə görə fəaliyyətinin məqsədi gəlir əldə etmək olan, öz mənafeyini güdən şəxsdir. Sahibkarların öz məqsədləri üçün çalışmalarına baxmayaraq, cəmiyyətdə vacib və mühüm xidmətləri ilə seçilirlər. Belə ki, sahibkarlar istehsal və sahibkarlıq obyektlərini yaratmaqla milli iqtisadiyyatın yaranmasına təkan verir, cəmiyyət üzvlərinin məhsul və xidmətlərə olan tələbatlarını ödəyir, onları iş yerləri ilə təmin edir, əldə etdiyi mənfəətdən (gəlirdən) vergi ödəməklə ümumi xərclərin ödənilməsində iştirak edirlər.

Özəl sektorda sahibkarlara göstərilən maliyyə dəstəyinin gücləndirilməsi məqsədi ilə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2015-ci ildə 4250 sahibkar subyektinə 160 mln. manat güzəştli kredit verilməklə 9900 yeni iş yerinin yaradılması əsas məqsəd hesab edilmişdir. Son 10 ildə bu fondun dəstəyi ilə 2 mld. dollar məbləğində sahibkarlara təqdim edilmiş güzəştli şərtlərə dayanan kreditlər kənd təsərrüfatının və sənaye müəssisələrinin inkişafına yönəldilmişdir. Sahibkarlığın inkişafı sahəsində 2014-cü ildə mövcud qanunvericiliyin təkmilləşdirilməsi, həyata keçirilən prosedurların sadələşdirilməsi, əsassız müdaxilələrin və yoxlama prosedurlarının məhdudlaşdırılması və başqa istiqamətlərdə mühüm işlər görülməklə yanaşı, təqdim edilmiş elektron formalı xidmətlərin sayı 500-ə çatmaqdadır.

Bölgələrdə 4000- dən çox yeni tipli müəssisə təşkil edilmişdir ki, bu prosesin nəticəsi kimi sahibkarların sayı 2004-cü ilin müvafiq göstəricisi ilə müqayisə edildikdə 2015-ci ildə 2,5 dəfə artaraq 387000 -ə çatmış, dövlət büdcəsinə daxil edilən vergi ödənişlərinin həcmi təqribən 10 faiz artmışdır. Ölkədə aqrar sferanın inkişafı ərzaq təhlükəsizliyinin, həmçinin etibarlı ərzaq təminatının yaradılması baxımdan əhəmiyyətlidir.

Müasir təsərrüfat formaları içərisində sahibkarlıq fəaliyyəti xüsusi önəm kəsb etməkdədir və qeyd edilən fəaliyyətin inkişafına dövlətin təminatı iqtisadiyyatın mövcud durumunun yüksəldilməsinin əsas istiqamətlərindəndir. Təsadüfi deyildir ki, 2015-ci il ölkə

ərazisində "Kənd təsərrüfatı" ili olaraq elan edilmiş və Sahibkarlar Konfederasiyasının qarşısında həlli vacibliyi ilə seçilən vəzifələr müəyyənləşdirmişdir. Kənd təsərrüfatından əldə edilən istənilən növ məhsulların rəqabətədavamlılığının gücləndirilməsi, emaledici müəs-sisələrin sayının artırılması, bu istiqamətdə çalışan sahibkarlara dövlət bölməsi hesabına göstərilən kömək bu sahədən olan tədbirlərdəndir. Bu fəaliyyət prosesinin inkişafı üçün "Sahibkarlıq fəaliyyəti sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiə edilməsi" haqqında qanunun qəbul edilməsi vacib əhəmiyyətli addımlardandır.

Tətbiq edilən bu qanunda yoxlamaların planlı şəkildə olması, onların elektron formada uçotunun aparılması, mərkəzləşmiş məlumat reyestrinin olması sahibkarlıq subyektlərinin işlərinə məsuliyyətlə yanaşmalarına və nəticə etibarilə istehlakçıların hüquqlarının müdafiəsinə yönəlmişdir. Ölkə rəhbərliyi tərəfindən 2015 –ci il 19 oktyabrda "Sahibkarlıqda xüsusi razılıq tələb edən formalarının sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurunun sadələşdirilməsi və şəffaflığın artırılması haqqında" imzalamış olduğu fərmanı bu sahədə inkişafı təmin etməklə Respublikada reallaşdırılan dövlət siyasətinin əsas məqsədlərdən biri olduğunu sübut etmiş olur.

Ölkə iqtisadiyyatının etibarlı və davamlı ərzaq məhsulları ilə təminatı bu ölkənin iqtisadi sabitliyi və sosial dayanıqlığının başlıca şərti hesab edilir və respublikamızda çoxtərəfli tədbirlər planı hazırlanaraq reallaşdırılır və ölkənin ərzaqla təminat səviyyəsinin bilavasitə asılı olduğu aqrar sahənin inkişaf etdirilməsinə yönələn genişmiqyaslı dövlət əhəmiyyətli proqramlar qəbul edilir və icrası reallaşdırılır. Azərbaycanda əhalinin ərzaqla etibarlı təminatının yaradılmasında başlıca sahə hesab edilən aqrar sferanın inkişafına xüsusilə diqqət göstərilir. Bu sferanın inkişafı ölkədə sahibkarlıq fəaliyyətinin inkişaf göstəricisindən əsaslı surətdə asılı olaraq dəyişir. Nə qədər ki, sahibkarlar diqqət mərkəzindən uzaq düşür, o qədər də aqrar sahə inkişafdan geri qalır. Ancaq Azərbaycanda vəziyyət bu prosesdən əsaslı şəkildə fərqlənir. İndiki zamanda aqrar sferanın respublika ərazisində inkişafı elə bir vəziyyətə çatmışdır ki, əhalinin bu tip məhsullara olan ehtiyacını qismən də olsa ödəmək mümkündür. Ölkəmiz aqrar sferanın inkişaf etdirilməsi baxımından geniş potensiala malikdir. Ardıcıl icra edilən dövlət proqramlarının davam etdirilməsi kənd təsərrüfatında gələcəkdə 2-3 dəfəyədək artımın əldə edilməsinə imkan verə bilər.

Aqrar sahədə intensiv metodların tətbiqinin zəruriliyi, dövlət tərəfindən sahibkarlara göstərilən dəstək tədbirləri, həmçinin bu sahə üzrə sahibkarlığın inkişaf etdirilməsi, müasir tipli texnologiyalardan istifadə edilməsinə əsaslanan istehsal və qeyri-istehsal müəssisələrinin yaradılması öz nəticəsini verməklə tənzimləmə sisteminin yüksəldilməsinə və ölkə iqtisadiyyatının idxaldan asılılığının azalmasına səbəb olmuşdur.

## Azərbaycanda sosial-iqtisadi tərəqqinin sürətləndirilməsində infrastruktur layihələrin rolu

*SƏFƏROVA Təranə Allahverdi qızı*
*Sənayenin təşkili və idarəetmə kafedrasının baş müəllimi*

Azərbaycan Respublikası əvvəlki dövrlərdə olduğu kimi, 2017-ci ildədə yüksək nailiyyətlərə imza atmış, sosial-iqtisadi inkişaf sahəsində uğurlu göstəricilər əldə etmişdir. Bu da təsadüfi deyil. Çünki özünün daxili imkanlarına, zəngin təbii sərvətlərinə əsaslanan Azərbaycan artıq 23 ildir ki, müstəqil iqtisadi siyasət yürüdür, bir sıra qlobal enerji və

nəqliyyat layihələrinin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış edir. Bu isə ölkəmizi regionda və dünyada mühüm tərəfdaşa və nüfuz sahibinə çevirir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məqsədyönlü iqtisadi strategiyanın uğurla davam etdirilməsi, qlobal enerji layihələrinin reallaşdırılması nəticəsində Azərbaycan dünya maliyyə böhranının yaratdığı çətinliklərə baxmayaraq, sosial-iqtisadi inkişaf tempini qoruyub saxlaya bilmişdirAzərbaycan hətta böhranlı illərdə sürətlə inkişaf edir. Çünki bizim düşünülmüş siyasətimiz var. Bizim proqramlarımız reallıq üzərində qurulubdur. Hər bir məsələ, hər bir sahə ilə bağlı çox konkret fəaliyyət planı var.

Ötən illər ərzində Azərbaycanın karbohidrogen ehtiyatlarından əldə etdiyi gəlirlər ölkə iqtisadiyyatının şaxələndirilməsinə geniş imkanlar yaratmışdır. Elə bunun nəticəsidir ki, son illər ölkəmizin qeyri-neft sektorunda yüksək inkişaf və tərəqqi meyilləri müşahidə olunur. Təkcə onu demək kifayətdir ki, cari ilin birinci yarısında Azərbaycanda qeyri-neft sektoru 9,2 faiz artmışdır ki, bu da son illər ölkə iqtisadiyyatının şaxələndirilməsi məqsədilə həyata keçirilən məqsədyönlü tədbirlərin bəhrəsidir.

Artıq keçid iqtisadiyyatı dövrünü uğurla başa çatdıran Azərbaycanın qarşıya qoyduğu əsas hədəflərdən biri ölkədə son dərəcə mühüm və iri infrastruktur layihələrinin reallaşdırılmasından ibarətdir. Həmin layihələrin siyahısının kifayət qədər geniş olmasına baxmayaraq, onların öhdəsindən gəlmək üçün Azərbaycanda zəngin təcrübə, siyasi iradə, ən başlıcası isə güclü maliyyə dayaqları mövcuddur. Qeyd etdiyimiz kimi, artıq özünün iqtisadi inkişafını təmin etmiş Azərbaycan Respublikası bütün diqqəti vacib infrastruktur layihələrinin reallaşdırılmasına yönəltmişdir. Məhz bunun nəticəsidir ki, 2015-ci ilin ilk yarısında ölkəmizdə bir sıra vacib sosial və infrastruktur layihələrinin icrası sahəsində yüksək nailiyyətlər əldə edilmişdir. Bu iş ilin sonunadək daha intensiv şəkildə davam etdiriləcək və həm sosial sferada nəzərə çarpan problemlər aradan qaldırılacaq, həm də ölkənin iqtisadi inkişafına təkan verən yeni-yeni infrastruktur obyektləri yaradılacaq. Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı proqram xarakterli yekun nitqində Prezident İlham Əliyev cari ilin sonunadək əsas prioritetləri müəyyənləşdirərkən infrastruktur layihələrinin icrasına xüsusi diqqət yetiriləcəyini bildirərək demişdir: "Biz iqtisadi artımın yüksək templərini ilin sonuna qədər saxlamalıyıq. Əminəm ki, biz buna nail olacağıq. Çünki birinci altı ayda göstəricilər çox müsbətdir. Gələn altı ay ərzində elə işləməliyik ki, ili gözəl nəticələrlə başa vuraq. Əminəm ki, makroiqtisadi sabitlik də təmin olunacaq. İlin sonuna qədər bütün lazımi infrastruktur layihələrinin icrası davam etdirilməlidir və yeni layihələr icra edilməlidir".

Məlum olduğu kimi, son illər Azərbaycanın sosial-iqtisadi tərəqqisini sürətləndirmək, əhalinin həyat səviyyəsini daha da yaxşılaşdırmaq məqsədilə ölkədə son dərəcə uğurlu investisiya siyasəti həyata keçirilir. Prezident İlham Əliyev tərəfindən qəbul olunmuş olduqca aydın, özündə konkret hədəfləri ehtiva edən, ölkə qarşısında duran əsas məsələlərin həlli üçün mühüm vasitə sayılan məqsədyönlü Dövlət İnvestisiya Proqramı uğurla icra edilir. Adıçəkilən proqramda ölkənin iqtisadi inkişafının sürətləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafını təmin etməklə yeni iş yerlərinin yaradılması kimi mühüm məsələlərin həlli ilə yanaşı, bir sıra infrastruktur layihələrinin həyata keçirilməsi də nəzərdə tutulur. Bu baxımdan ölkə əhalisinin firavan həyatının təminatına hesablanmış sosial layihələr diqqəti daha çox cəlb edir. Son illər ölkəmizdə yol infrastrukturunun yenidən qurulması sahəsində misilsiz layihələr həyata keçirilir. Dövlət başçısının xüsusi diqqət və qayğısı sayəsində ölkəmizdə magistral yollar artıq dünya standartları səviyyəsində yenidən qurulmuş, paytaxt Bakıda müasir yollar, yeni körpü və yol ötürücüləri, yeraltı və yerüstü piyada keçidləri inşa olunmuşdur. Artıq ölkə rəhbərinin

xüsusi göstərişi və bu məqsədlə Prezidentin Ehtiyat Fondundan ayrılmış vəsait hesabına kənd yollarının yenidən qurulması işləri sürətlə davam etdirilir. Hökumətin məlum iclasında diqqəti yenidən bu vacib məsələyə yönəldən Prezident İlham Əliyev demişdir: “Bu yaxınlarda müxtəlif bölgələrdə kənd yollarının tikintisi ilə əlaqədar müvafiq sərəncamlar imzalanmışdır və yeni sərəncamlar da imzalanacaq. .

Ölkə ərazisinin qazlaşdırılması tədbirləri də sürətlə davam etdirlir. Son illər, demək olar ki, hər ay bir neçə kənd qazlaşdırılır. Ölkə Prezidentinin bu işlərin daha da sürətlə aparılmalısı barədə verdiyi konkret göstəriş isə onu deməyə əsas verir ki, ilin sonunadək bu proses daha da sürətləndiriləcək və yaxın illərdə bütün kəndlərimizdəki mənzillərdə “mavi yanacaq” şölələnəcək.

Azərbaycanda elektrik enerjisi ilə təminat sahəsində ciddi problemlər müşahidə olunmasa da, sözügedən sahənin işinin daim təkmilləşdirilməsi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə bölgələrdə köhnəlmiş infrastruktur yenidən qurulmalı, ötürücü xətlər çəkilməli, transformatorlar quraşdırlmalıdır. Bununla yanaşı, elektrik təsərrüfatı sahəsində işlər Bakı şəhərində də davam etdiriləcək. Bu da təsadüfi deyil. Çünki paytaxtımız günbəgün böyüyür, əhali artır, yeni sənaye obyektləri, ictimai obyektlər, idman qurğuları yaradılır. Paytaxtın elektrik enerjisinə artmaqda olan tələbatının ödənilməsi məqsədilə yeni generasiya güclərinin yaradılması tələb olunur. Dövlət başçısının tövsiyəsinə əsasən, bu sahədə işlər müntəzəm olaraq həyata keçirilməlidir ki, generasiya gücü mövcud tələbatı xeyli üstələsin.

Son illər ölkəmizdə reallaşdırılan Dövlət İnvestisiya Proqramında içməli su və kanalizasiya layihələri mühüm yer tutur.

Eyni zamanda, ötən dövrdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ölkənin ayrı-ayrı yerlərində sutəmizləyici qurğular quraşdırılmasıda iqtisadiyyatın inkişafında mühüm rol loynayır

Son illər ölkəmizdə suvarma ilə bağlı layihələrin reallaşdırılması da intensiv xarakter alıb. Artıq Şəmkirçay, Taxtakörpü və Tovuzçay su anbarları tikilib istifadəyə verilib. Hazırda isə yeni kanalların tikintisi gedir və bu məqsədlər üçün də ilin sonuna qədər büdcədən əlavə vəsait ayrılması nəzərdə tutulur. Bu sahədə ilin sonuna olan əsas hədəflərdən biri Şəmkirçay dəryaçasından əkin sahələrinə gedən kanalların tikintisinin sürətləndirilməsi ilə bağlıdır. Bundan məqsəd əkin sahələrinin suvarılmasının yaxşılaşdırılmasına nail olmaqdan ibarətdir. Suvarılmanın yüksək səviyyədə təşkili isə ölkədə kənd təsərrüfatının sürətli inkişafını təmin edən başlıca amillərdəndir. Qarşıda duran əsas hədəflərdən biri də mövcud potensialdan maksimum yararlanaraq əhalini ərzaq məhsulları ilə təminatının 100 faiz səviyyəsinə çatdırmaqdan ibarətdir. Bununla bərabər, Azərbaycan yaxın illərdə istehsal etdiyi ərzaq məhsullarının bir hissəsini ixraca yönəltməyi planlaşdırır. Əgər bizdə ixrac bazarlarına böyük çıxışlar olmasa, gələcəkdə bu, kənd təsərrüfatının inkişafını məhdudlaşdıra bilər. Çünki biz öz daxili tələbatımızı ödəyəndən sonra əgər ixrac bazarlarına çıxmasaq, artıq məhsul istehsal edə bilməyəcəyik. İxrac bazarlarına çıxmaq üçün, ilk növbədə, məhsul rəqabətqabiliyyətli olmalıdır.

Azərbaycanda güclü sənaye potensilaı mövcuddur. Son zamanlar ölkədə gedən uğurlu sənayeləşmə prosesi nəticəsində qeyri-neft sənayemiz 14 faiz artmışdır. Dövlət başçısının konkret tapşırığına əsasən, yaxın illərdə ölkənin hər bir rayonunda sənaye zonalarının və sənaye parklarının yaradılması nəzərdə tutulur ki, bu da öz növbəsində daha yüksək nailiyyətlərə yol açar.

İlin qalan dövrü üçün ölkədə yeni iş yerlərinin yaradılması da infrastruktur layihələrinin həyata keçirilməsinin böyük əhəmiyəti var.İqtisadiyyatın inkişaf etdirilməsinin hədəflərdən biri də ilin sonuna qədər sosial infrastrukturun yaradılmasının davam

etdirilməsi, məktəblərin, uşaq bağçalarının və tibb ocaqlarının tikintisinə əlavə vəsait ayrılmasının təmin edilməsi ilə bağlıdır. Bununla yanaşı, ilin qalan dövrü ərzində ölkədə köçkünlərin problemlərinin həlli də diqqət mərkəzində saxlanılacaq.

Əlverişli iqlim şəraiti və misilsiz təbii gözəllikləri ilə diqqəti cəlb edən Azərbaycanın turizm potensialı olduqca yüksəkdir. Eyni zamanda, iqtisadiyyatın ən gəlirli sahələrdən biri sayılan turizmin inkişaf etdirilməsi ölkədə əlavə iş yerlərinin yaradılması baxımından xüsusi əhəmiyyət daşıyır. Məhz buna görə də son illər Azərbaycanın turizm potensialının hərəkətə gətirlməsi sahəsində xeyli iş görülmüş, ölkəmizdə ən müasir turizm obyektləri tikilib istifadəyə verilmişdir. Bununla belə, ölkəmizə turist marağının daha da artırılması üçün hələ çox iş görülməlidir. Həmin işlərin, həlli vacib məsələrin dəqiq siyahısını isə Nazirlər Kabinetinin məlum iclasında Prezident İlham Əliyev səsləndirdi. Dövlət başçısı qeyd etdi ki, Azərbaycanın turizm baxımından cəlbediciliyini artırmaq üçün, ilk növbədə, viza məsələsi həllini tapmalıdır, bu məsələ ölkəmizə turist, qonaq kimi gəlmək istəyənin qarşısında maneəyə çevrilməməlidir. İkinci vacib məsələ otellərin qiymətlərinə yenidən baxılması ilə bağlıdır. Xüsusən bölgələrdə otellərin qiyməti xüsusi narahatlıq doğurur. Narahatlıq yaradan üçüncü məsələ isə aviabiletlərin həddən artıq bahalığıdır. Məhz buna görə də Prezident İlham Əliyev hər üç məsələyə yenidən baxılmasını əlaqədar təşkilatlara, eləcə də sahibkarlara tövsiyə etdi.

Azərbaycanda reallaşdırılacaq infrastruktur layihələri, ölkəmizin sosial-iqtisadi tərəqqisini xeyli sürətləndirəcək, əhalinin həyat səviyyəsinin bir qədər də yaxşılaşmasına səbəb olacaq.

## Ali təhsil müəssisələrində təhsil-tədqiqat-innovasiya: problemlər və inkişaf istiqamətləri

*RƏSULOV Zaur Yusif oğlu*
*Sənayenin təşkili və idarəetmə kafedrasının baş müəllimi*

Bütün dövrlərdə cəmiyyətin tərəqqisi bilavasitə təhsilin inkişafından və onun əhəmiyyətinin düzgün qiymətləndirilməsindən asılı olmuşdur. Cəmiyyətin tələbatı təhsilin inkişafını sürətləndirmiş, elmi və texnoloji nailiyyətlər isə təhsil sistemi qarşısında həlli vacib olan daha mürəkkəb vəzifələr qoymuşdur. Qloballaşmanın geniş vüsət aldığı hazırkı mərhələdə, informasiya cəmiyyətində sosial-iqtisadi fəaliyyət sahələrindəki rəqabətin gücləndiyi, habelə təbii resursların tədricən tükəndiyi bir vaxtda təhsilin rolu artmaqdadır. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında xüsusilə ali təhsilin rolu mühüm əhəmiyyət kəsb edir.

Son illər təhsil sisteminin inkişaf etdirilməsi və təhsilin səviyyəsinin dünya standartları səviyyəsinə çatdırılması ölkəmizdə də prioritet istiqamətlərdən biri olmuşdur. Bu dövrdə təhsil sistemində müxtəlif layihələr və tədbirlər hazırlanıb həyata keçirilmişdir ki, bu da ölkənin təhsil sahəsində aparılan islahatların çox vacib mərhələlərdən biri olmaqla təhsil ocaqlarında qarşıya qoyulmuş məqsədlərə müvəffəqiyyətli şəkildə nail olunmasına yönəlmişdir.

Bununla yanaşı "Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nda da göstərildiyi kimi təhlilər göstərir ki, respublikanın ali təhsil sistemində müəyyən problemlər var və qalmaqda davam edir. İnnovasiya sahəsindəki problemləri bu cür qruplaşdırmaq olar: kadr hazırlığı strukturu əmək bazarının tələbatını

tam ödəmir; elmi-tədqiqatların nəticələri ali təhsilə zəif inteqrasiya olunur; ali təhsil müəssisələri şəbəkəsi təkmil deyil; ali məktəblərin kadr potensialı və müəllimlərin ixtisasartırma təhsili müasir tələblərə cavab vermir; ali məktəb tələbələri və məzunlarının hazırlıq səviyyəsi onların dünya təhsil məkanına çevik inteqrasiyasına imkan vermir; yeni pedaqoji təlim texnologiyaları ləng işlənilir, mövcud texnologiyalar isə tədris prosesinə zəif tətbiq olunur; ali məktəblərdə kadr hazırlığında informasiya-kommunikasiya texnologiyalarından, fəal interaktiv təlim metodlarından kifayət qədər istifadə edilmir; kadr hazırlığı üzrə uzunmüddətli, elmi cəhətdən əsaslandırılmış proqnozlaşdırma mexanizmi yoxdur; ali məktəblərin maddi-texniki bazası (tədris laboratoriyalarının təchizatı, tədris prosesini təmin edən cihaz və avadanlıqlarla təminatı və s.) müasir tələblərə cavab vermir; ali məktəb kitabxanaları və onların təminatı günün tələblərinə cavab vermir, elektron kitabxanaların və dərsliklərin yaradılması işi çox ləng aparılır.

Bəs biliklərə əsaslanan cəmiyyətin formalaşması üçün nələrin edilməsi zəruridir və bu zaman ali təhsil özünü təhsil-tədqiqat-innovasiya zəncirində necə büruzə verməlidir?

Müasir ali məktəbin inkişaf strategiyası innovasiyalara əsaslanmalıdır. Ali məktəbin yeniliklərə, innovasiyalara açıq olması, innovativ inkişaf yolunu tutması onun sürətlə inkişaf edən qlobal tələblərə uyğunlaşması, rəqabətədavamlı olması üçün mühüm şərtdir. Belə ali məktəblər davamlı olaraq elm-təhsil prosesinin məzmununu, texnologiyasını təkmilləşdirərək inkişaf edirlər. Müasir ali məktəblərə xas olan geniş muxtariyyət, elm və təhsil proseslərinin vəhdəti, məhsuldar innovativ fəaliyyət, sənaye və bizneslə möhkəm əlaqələrin qurulması XX əsrin sonuna yaxın sürətli elmi-texniki inkişafı təmin etmişdir.

Fikrimizcə, ilk növbədə yeni bilikləri yartmağı bacarmaq lazımdır. Ali məktəblərin vəzifələri tələbələrə mövcud biliklərin ötürülməsi, onlara internet kimi sərhədsiz informasiya məkanından bu biliyin əldə edilməsi imkanlarının öyrədilməsi ilə yanaşı onların özlərinin bu biliyi yaratmaq qabiliyyətinə malik olmasından ibarət olmalıdır. Bunun üçün isə ali məktəblərin tədris və elmi fəaliyyətilərinin birləşdirilməsi, yaradıcı gənclərin axtarışının gücləndirilməsi, onların elm yaradıcılığa stimullaşdırılması və qabiliyyətlərinin inkişaf etdirilməsinə şərait yaradılması vacib amillərdəndir. Məhz informasiya-kommunikasiya texnologiyaları bu tədbirlərin həyata keçirilməsi üçün əvvəllər görünməmiş imkanlar yaradır.

Növbəti görüləcək tədbir bu biliklərin innovasiyaya çevirmək bacarığının formalaşdırılmasıdır. İnformasiya cəmiyyətində biliyin innovasiyaya çevrilməsi uzunmüddətli çalışmalar və çoxsaylı kollektivin olmasını tələb etmir. Bu mühitə malik ali məktəblərin divarları arasından sadəcə mütəxəssis deyil, öz işinin mütəxəssisi olan məzunlar çıxır. Ali məktəblərdə texnopark, biznes-inkubatorlar kimi yeni struktur vahidlərini keçən tələbə öz işini yarada və həyata məhz bu işlə davam edə bilər. Bu imkanları ali məktəbin rəngarəng fəaliyyəti çərçivəsində reallaşdırmaq mümkündür.

Dünya təcrübəsi göstərir ki, əsas innovasiyalar ali məktəblərin elmi mərkəzlərində yaradılır. Mərkəzlərdə alimlər və intellektual səviyyəsi yüksək olan gənclər toplanır. Bu subyektlər yenilik yaratmaq və bu məhsulu diplom, dissertasiya, elmi nəşrlər şəklində, bizim ölkəmizdə az təsadüf olunan tamamlanmış maşın və avadanlıqlar, aparatlar, texnologiyalar şəklində təqdim etmək qabiliyyətinə malik olurlar. Öz təhsili və tədrisi ilə tanınmış ali məktbələrin mərkəzləri isə öz işləmələrini hətta praktiki cəhətdən istifadə halına qədər çatdırırlar. Məsələn, Oksford, Massaçusets, Kaliforniya universiteteti kimi ali məktəblərdə alimlər, mütəxəssislər, yeni texnologiyaların təşəbbüskarı tərəfindən idarə olunan yüzlərcə kiçik innovasiya mərkəzləri fəaliyyət göstərir. Bu kiçik müəssisələr tələbələr üçün təcrübə meydançasından başqa milyonlarla gəlir verməklə, ali məktəbin büdcəsini də doldururlar.

Ali məktəblərdə tələbələrə öz biliyinin kapitallaşmasına və onu necə satmaq, qiymətin formalaşmasını, biliyin pula çevrilməsi mexanizmini öyrətmək zərurdir. Nəticə etibarilə, adamlar elektron-pul, elektro-ticarətin mahyyətini, şəbəkədə səmərəli işləməyi və düzgün ünsiyyət qurmağı bilməlidirlər. İnsanların ayrı-ayrı ölkələrdə, kontingentlərdə olmasına, ayrı-ayrı dillərdə ünsiyyət qurmasına baxmayaraq komanda şəklində işləməyi bacarmalıdırlar.

Müasir dövrdə bu cür keyfiyyətli təhsilin verilməsi informasiya cəmiyyətində həyat və yaradıcılıq üçün baza hesab olunur. Bununla keyfiyyətli təhsil yalnız dərin biliklərin verilməsi ilə məhdudlaşmamalı, məhz informasiya cəmiyyətində ehtiyac yaranan bilik və vərdişlərin formalaşmasını əks etdirməlidir.

Təcrübə göstərir ki, ənənəvi tədris müəssisələrində dəyişikliklərin edilməsi labüddür. Əgər ölkə keçmişdə qalmaq istəmirsə ali təhsil sisteminin müasir tələbələrə uyğun olaraq qurulması milli məqsəd kimi qəbul edilməli, dövlət və cəmiyyət zəruri siyasi iradəsini göstərməli, bütün maddi və intellektual resurslar bu istiqamətdə cəmlənməlidir.

## Maliyyə sistemində maliyyə sabitliyinin milli iqtisadiyyatın inkişafında rolu

*KƏRİMOVA Mehriban Allahverən qızı*
*İqtisadiyyat kafedrasının baş müəllimi*

Azərbaycan son dövrlərdə neft gəlirlərinin artması hesabına qeyri-neft sektorunda uğurlu islahatların həyata keçirilməsi nəticəsində qlobal miqyasda sürətli iqtisadi artıma nail olmuş ölkələr siyahısına daxil olmuşdur. Respublikamız iqtisadiyyatın müxtəlif sahələrində əldə etdiyi iqtisadi artımla yanaşı, özünün mükəmməl maliyyə sistemini qurmağa müvəffəq olmuşdur. Maliyyə sistemi qarşılıqlı əlaqədə olan təsərrüfat subyektlərinin, ev təsərrüfatlarının, dövlətin pul vəsaitləri fondlarının bölüşdürülməsi və istifadəsini həyata keçirən maliyyə münasibətlərinin, həlqələrin, maliyyə bazarlarının və maliyyə institutlarının məcmusundan təşkil olunan dinamik sistemdir. Azərbaycan Respublikasının maliyyə sistemi iki əsas güclü alt sistemdən ibarətdir: dövlət maliyyəsi və təsərrüfat subyektlərinin maliyyəsi.

Dövlət maliyyəsi maliyyə sisteminin əsas elementi olub, maddi istehsalın sahələrində yaranan milli gəlirin ilkin bölgüsü və yenidən bölgüsü vasitəsilə mərkəzləşdirilmiş pul münasibətlərini ifadə edir. Xalq təsərrüfatının bütün sahələrinin inkişafını təmin etmək və iqtisadiyyatın ayrı-ayrı sahələri və regionları, istehsal və qeyri-istehsal sferaları arasında maliyyə resurslarının yenidən bölgüsünü həyata keçirmək dövlət maliyyəsinin üzərinə düşür. Dövlət büdcəsi maliyyənin əsas həlqəsidir və onun vasitəsilə milli gəlirin yenidən bölgüsü baş verir.

Təsərrüfat subyektlərinin maliyyəsi dövlətin maliyyə vəziyyəti ilə bağlı olub, müəssisə, təşkilat, firma, kooperasiya və digər təsərrüftat orqanlarında pul fondlarının formalaşması və istifadəsi zamanı yaranan iqtisadi münasibətlərdir. Həmçinin xüsusi fondların, cəlb olunmuş vəsaitlər fondunun və borc vəsaitləri fondlarının yaradılması ilə əlaqəli münasibətləri də özündə cəmləşdirir.

Qarşılıqlı əlaqədə və qarşılıqlı fəaliyyət göstərən maliyyə münasibətlərinin ayrı-ayrı həlqələrinin məcmusu maliyyə sistemi adlanır. Ölkənin maliyyə fəaliyyətinin və pul

tədavülünün tənzimlənməsinə xidmət edən idarələri maliyyə sisteminə daxil edilir. Dövlət üzərinə düşən çoxsaylı funksiyaları yerinə yetirmək üçün milli gəlirin bir hissəsini mərkəzləşdirməlidir. Məlumdur ki, bütövlükdə maddi istehsal sahəsində yaranan milli gəlirin bir hissəsi dövlət büdcəsinə yığılır və ümumdövlət xərclərinin maliyyələşməsinə xərclənir.

Qeyd etdik ki, maliyyə sisteminin digər bir bölməsi müəssisə və təşkilatların maliyyəsidir. Müəssisə və təşkilatların maliyyəsi iqtisadiyyatın müxtəlif sahələrini əhatə edir və stimullaşdırıcı xarakter daşıyır. Maliyyə sistemində daha bir bölmə də mühüm əhəmiyyət kəsb edir ki, bu da kredit-bank sistemidir. Kredit-bank sistemi ölkənin kommersiya banklarının, kredit təşkilatlarının və bank olmayan kredit təşkilatlarının məcmusunu ifadə edir. Baxmayaraq ki, maliyyə sisteminin fəaliyyət dairələri, yaranma və istifadə formaları müxtəlifdir ancaq respublikamızda vahid maliyyə sistemi mövcuddur. Ona görə ki, bütün maliyyə ehtiyatlarının əsas mənbəyi milli gəlirdir. Maliyyə sistemində hər bir bölmə özünəməxsus fəaliyyət xüsusiyyəti, istifadə qaydası və bölüşdürmə metoduna görə bir-birindən fərqlənirlər.

Təsərrüfat subyektləri maliyyə sisteminin əsasının ilkin özəyi hesab olunurlar, ona görə ki, onlar bilavasitə maddi istehsal prosesinin iştirakçısı və yeni dəyərin yaradıcılarıdır. Mərkəzləşdirilmiş dövlət pul vəsaitləri fondlarının mənbəyi isə maddi istehsal sahələrində yaradılan milli gəlirdir. Müasir bazar iqtisadiyyatında təsərrüfat subyektləri istehsal və maliyyə müstəqilliyinə malikdirlər və öz fəaliyyətlərini kommersiya hesabı əsasında qururlar. Onlar məhsul satışından əldə etdikləri gəliri müstəqil surətdə bölüşdürür, istehsal və sosial təyinatlı fondlar yaradır və istifadə edir, maliyyə bazarının imkanlarından və kredit resurslarından istifadə etməklə məhsul istehsalını artırmaq üçün yollar axtarıb tapırlar. Xüsusilə də dünyada baş verən qlobal maliyyə böhranı, son bir neçə ildə dünya bazarında neftin qiymətinin ucuzlaşması, manatın devalvasiyası və bu kimi amillər ölkənin makroiqtisadi və maliyyə sabitliyinə öz təsirini göstərməkdədir.

Ölkəmizin neft amilindən asılılığını azaltmaq və qeyri-neft sektorunun daha da inkişaf etdirmək üçün yeni iqtisadi inkişaf strategiyasının işlənib hazırlanmasını zərurətə çevirdi. Azərbaycan Respublikasında qeyri-neft sektorunun davamlı və rəqabət qabiliyyətli inkişafı dövlətin prioritet istiqamətidir. Dünyada baş verən iqtisadi tənəzzül prosesləri, baş verən maliyyə böhranı, milli iqtisadiyyatların rəqabətqabiliyyətliliyi, onun iqtisadi təhlükəsizliyinin təmin edilməsi, daha effektli və səmərəli ixrac modellərinin tətbiqinin genişləndirilməsi, qlobal problemlərə yeni yanaşmalar daha müasir iqtisadi tənzimləmə mexanizminin hazırlanmasını şərtləndirir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektoru üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə müəyyən edilmiş vəzifələrin icra edilməsi məqsədilə "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi" hazırlanmışdır.

Bu Strateji Yol Xəritəsi maliyyə bazarlarında müşahidə edilən proseslərə çevik adaptasiya və postneft iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün maliyyə sektoru qarşısında duran imkanlar nəzərə alınmaqla hazırlanmışdır. Bildiyimiz kimi Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ciilədək strateji baxış və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Öz milli iqtisadiyyatını daima hərtərəfli qurmaq və qorumaq istəyən hər bir ölkə üçün maliyyə sabitliyinin təmin edilməsi ən vacib məsələlərdən biridir. Dövlət öz iqtisadi funksiyalarını həyata keçirmək üçün makromaliyyə sabitliyinə malik olmalıdır. Çünki dövlət iqtisadi proseslərə öz təsirini maliyyə vasitəsi ilə

həyata keçirir. İlk öncə istənilən ölkənin iqtisadi-siyasi vəziyyətini qiymətləndirmək üçün onun iqtisadi artım göstəricilərinə, həyat səviyyəsinə baxılır. Ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası, dayanıqlı və tarazlı iqtisadiyyatın formalaşması üçün ölkədə maliyyə sabitliyinin təmin edilməsi vacibdir. Xüsusilə indiki durumda neft sektorundan asılılığın aradan qaldırılması, qeyri-neft sektorunun inkişafına diqqətin artırıldığı bir vaxtda ölkəmizin maliyyə sabitliyinin qorunub saxlanması mühüm əhəmiyyət kəsb edir. Belə ki, dövlət maliyyə sabitliyini təmin etməklə iqtisadi inkişafa təkan verməklə yanaşı, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə şərait yaradır.

## Azərbaycan sığorta bazarı
## ümumi iqtisadi inkişaf fonunda

*SƏFƏROV Nazim Vəli oğlu*
*İqtisadiyyat kafedrasının müəllimi*

Dünyada iqtisadi böhranların davam etdiyi bir zamanda vaxtında həyata keçirilən islahatlar,Azərbaycanda iqtisadi inkişafın davam etməsinə səbəb olmuşdur.Həyata keçirilən iqtisadi islahatlar beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilmişdir.

Ölkədə iqtisadiyyatın dinamik inkişafı, qarşıda duran sosial – iqtisadi tədbirlərin maliyyələşdirilməsinə, sosial infrastruktur layihələrin icrası təmin edilmişdir. Bununla yanaşı əhalinin sosial müdafiəsinə əlavə təminat yaratmaq məqsəd ilə həyata keçirilən tədbirlərdən biri də sığorta işidir. Təbii fəlakətlər yanğın, zəlzələ, daşqın və digər gözlənilməz hadisələr nəticəsində hüquqi və fiziki şəxslərə məxsus əmlakların zədələnməsi, məhv olması nəticəsində dəyən zərərlərin ödənilməsinə təminat yaratmaq sığorta vasitəsilə həyata keçirilir.

Respublikada mövcud olan iqtisadi inkişaf bütün sahələrdə olduğu kimi sığorta bazarının inkişafına da zəmin yaradır. Sığorta bazarının inkişaf etdirilməsi , onun beynəlxalq səviyyəyə çatdırılması məqsədi ilə hər il dövlət səviyyəsində qanunvericilik aktları qəbul edilir, qüvvədə olan qanunlar təkmilləşdirilir, sığortalılara daha dolğun sığorta təminatı yaradılması məqsədilə yeni qərarlar qəbul edilir. Respublika sığorta bazarının beynəlxalq sığorta şirkətləri tərəfindən tanınması məqsədilə Sığortaçılar Assosiasiyası tərəfindən hər il Beynəlxalq Sığortaçılar Forumu keçirilir. 2015-ci ilin iyun ayında V Beynəlxalq Sığortaçılar Forumunda 21 ölkənin sığorta şirkətinin 223 nümayəndəsi iştirak etmiş, yeni sığorta məhsulları barədə seminarlar təşkil edilmişdir.

Respublikada fəaliyyət göstərən 27 sığorta şirkəti tərəfindən 2016 – cü ildə 486074 min manat sığorta haqqı toplanmışdır bu isə 2015-ci il ilə müqayisədə 42855 min manat və ya 9.68 % çoxdur. 2016-cı ildə sığorta ödənişi 237250 min manat olmaqla 2015 – ci ilə nisbətən 57009 min manat çox və ya 31.63% olmuşdur. Bu isə hər 100 manat sığrta haqqının 48.8 manat ödənişi deməkdir.

Qeyd olunduğu kimi respublikada iqtisadiyyatın inkişafı, əhalinin pul gəlirlərinin artımı şəhər və kəndlərdə müasir tipli, hər çür şəraiti olan yaşayış evlərinin, mənzillərin və müxtəlif qeyri – yaşayış binalarının tikilməsinə şərait yaratmışdır. Lakin, baş verən təbii fəlakətlər, yanğınlar, zəlzələ, sel – suların daşqın və sair gözlənilməz hadisələr nəticəsində vətəndaşlara məxsus yaşayış evlərinə, mənzillərə və qeyri – yaşayış

binalarına böyük məbləğdə zərər dəyir. Sığorta olunmayan yaşayış evləri və mənzillər sığorta hadisəsi nəticəsində zədələndikdə, məhv olduqda dəyən zərər ödənilmir.

Belə hallarda dövlət məcburiyyət qarşısında qalıb vətəndaşlara dövlət büdcəsindən ayrılan vəsait hesabına yardım verilməsini və ya yeni yaşayış evlərinin tikintisini öz üzərinə götürür. Bu da əlavə büdcə vəsaitinin xərclənməsinə səbəb olur. Məlum olduğu kimi 2012 – ci ilin may – oktyabr aylarında baş verən güclü zəlzələ nəticəsində Zaqatala , Balakən, Qax , Şəki rayonlarında vətəndaşlara məxsus yaşayış evlərinə, mənzillərə, ictimai binalara ciddi zərər dəymiş, yararsız hala düşmüşdür. Qeyd olunan zəlzələ nəticəsində əmlakı sığorta olunmuş 178 vətəndaşa 271,0 min manat sığorta ödənişi verilmişdir.

Zəlzələnin nəticəsi araşdırılarkən müəyyən edildi ki, zədələnmiş, məhv olmuş yaşayış evlərinin əksər hissəsi sahibləri tərəfindən sığorta olunmayıb. Ona görə də vətəndaşlara dəyən zərərin ödənilməsini dövlət öz üzərinə götürərək büdcə vəsaiti hesabına vətəndaşlara maddi yardım ödənilmiş və yeni yaşayış evləri tikdirmişdir.

Bununla əlaqədar Prezident çıxışında qeyd etmişdir ki, təbii fəlakətlər, zəlzələ və digər gözlənilməz hadisələr nəticəsində vətəndaşlara dəyən zərərlər görə sığorta Şirkətləri tərəfindən ödənilir.Lakin bizdə vətəndaşlar yaşayış evlərini sığorta etdirmədikləri üçün bütün xərcləri dövlət öz üzərinə götürmüşdür.

Təbii fəlakətlər nəticəsində dəyən zərərlərin ödənilməsinə təminat yaratmaq üçün 24 iyun 2011-ci il tarixdə “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

“İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanunu özündə 4 mühüm icbari sığorta növünü – “Daşınmaz əmlakın icbari sığortası”,”Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası”, “Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası” və “Sərnişinlərin icbari sığortası”nı əhatə edir.

“Daşınmaz əmlakın icbari sığortası haqqında” Qanun əsasında vətəndaşlar tərəfindən sığorta olunmuş əmlaklara qanunda nəzərdə tutulmuş hər hansı bir hadisə nəticəsində dəyən zərərin ödənilməsi təmin edilir.Bu Qanuna əsasən hüquqi və fiziki şəxslərə məxsus yaşayış və qeyri – yaşayış binaları, mənzilləri , habelə siyahısı müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyənləşdirilən dövlət əmlakı icbari qaydada sığortaya cəlb olunmalıdır.

Kənd təsərrüfatı məhsullarının istehsalı iqtisadiyyatın çox vacib və strateji sahələrindən biridir. Respublika Prezidenti bu səbəbdən 2015 – ci ili “Kənd təsərrüfatı ili” elan etmişdir. Kənd təsərrüfatının inkişaf etdirilməsi iqtisadiyyatın prioritet sahəsidir. Məlum oldiğu kimi kənd təsərrüfatı bitkiləri müxtəlif təbii fəlakətlər, şaxta , yanğın və sair hadisələr nəticəsində tam məhv olur və ya qismən zədələnir ki, bu da məhsul itkisinə səbəb olur. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fermerlərə və sahibkarlara qeyd olunan hadisələr nəticəsində dəyən zərərin ödənilməsinə təminatı yalnız əmlakın sığortalanma vasitəsilə həyata keçirmək olar.

Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fermerlərə və sahibkarlara dövlət dəstəyi olaraq Nəzarət Kabinetinin 04.03.2004 – cü il tarixli 23 saylı qərarı ilə payızlıq dənli bitkilərin, dən üçün qarğıdalı, günəbaxan, kartof, şəkər çuğunduru, meyvə bağları, sitrus bitkilərinin məhsulunun sığortası üzrə hesablanmış sığorta haqqının 50% dövlət büdcəsi vəsaiti hesabına ödənilir. Zərər dəydikdə isə dəymiş zərər tam fermerlər və ya sahibkarlara ödənilir.

Sığorta şirkətində Kompüterləşdirmə və informasiyaların elektron idarə edilməsi proqramı “Azərbaycan Respublikasının inkişafı naminə informasiya- kommunikasiya

texnologiyaları üzrə Milli Strategiyaya (2003 – 2012 – ci illər)" tələblərinə uyğun işlənib hazırlanmışdır və "Elektron Azərbaycan" Dövlət Proqramı çərçivəsində son illər Respublikada aparılan uğurlu iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyin qorunub saxlanılmış və iqtisadi artımın davamlığı təmin edilmişdir.

Respublika Prezidenti cənab İlham Əliyevin sahibkarlığın inkişafı, xüsusilə də informasiya texnologiyaları və telekommunikasiya sahəsinin inkişaf etdirilməsi ilə bağlı 2011 – ci il 23 may tarixli 429 nömrəli Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarının elektron xidmətlər göstərilməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında " və 2012 – ci il 19 iyul tarixli "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının və elektron poçt ünvanlarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bəzi tədbirlər haqqında" fərmanlarının icrasına əsaslanaraq sığorta şirkətləri özünün veb sayıtını yaratmış, elektron poçt xidmətləri qurmuş Veb Servis xidmətlərindən istifadə edərək fasiləsiz və təhlükəsiz elektron poçt və elektron informasiya mübadiləsi təşkil edilmişdir.

"Elektron hökümətin" formalaşdırılması və "Elektron Ticarətin" qurulması proqramı tələblərinə uyğun bir sıra geniş tədbirlər təşkil edilmişdir.

Sığorta müqavilələrinin idarə edilməsi, elektron daxil edilməsi və mühasibatlığın müasir tələbə uyğun qurulması üçün müvafiq proqramlar təminatı yaradılmışdır.

"İcbari sığorta haqqında " qanunun tələblərinə uyğun olaraq avtonəqliyyat vasitələrinin sahiblərinin, daşınmaz əmlak və daşınmaz əmlakın istismarının mülkü məsuliyyəti icbari sığorta müqavilələrinin daxil edilməsi üçün icbari sığorta bürosunun (İSB) təkliflərinə uyğun olaraq sığorta şəhadətnamələrinin elektron formada daxil edilməsi və müştərilərə SMS vasitəsilə təsdiqinin çatdırılması işləri yerinə yetirilmişdir ki, bununla da sığorta müqavilələrinin vaxtında bərpa olunması, sığortalılara xidmət səviyyəsi yüksəlmişdir. Azərbaycanın sığorta bazarları son illərdə ümumi iqtisadi inkişaf fonunda stabil artım nümayiş etdirməklə maliyyə sektorunun və iqtisadiyyatın inkişafına öz təsirini göstərir.

## İnsan kapitalının inkişafı iqtisadi strategiyanın əsas istiqaməti kimi

*XƏLİLOVA Xəyalə Qəmbər qızı*
*Sənayenin təşkili və idarəetmə kafedrasının müəllimi*

Bu gün dünyada keyfiyyətli insan kapitalı uğrunda rəqabət dərin xarakter alıb və insan ən zəngin kapital kimi dünya innovasiya inkişafının əsas fundamentini təşkil edir. Yüksək ixtisaslı personalın çevikliyinin artması, biliyin paylaşması prosesi hazırda geniş miqyaslı bir dünya planı kimi sürətli temp alıb. Qloballaşma şirkətlərə daha yüksək səviyyəli texnologiya uğrunda rəqabət aparmağa və innovasiyaların ixtisaslaşdırılması və lokallaşdırılması prosesini stimullaşdırmağa məcbur edir. Möhkəm elmi bazaya əsaslanan sosial-iqtisadi nailiyyətlər hər bir ölkənin davamlı inkişafını təmin edən əsas amillərdən biridir.

Hazırda Azərbaycanda və bütün dünyada müasir iqtisadiyyatın ən mühüm sosial-mədəni amilinə çevrilən insan kapitalının formalaşmasına, möhkəmlənməsinə və inkişafına xüsusi diqqət göstərilir. Bu mənada, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar hər bir Azərbaycan vətəndaşının rifahının yüksəldilməsinə yönəlib. İqtisadi subyektlərin rəqabət

qabiliyyətliliyini yüksəltməyə imkan verən sosial yönümlü siyasətin hazırlanması və həyata keçirilməsi strategiyası mühüm prioritet təşkil edir. Bütün bunlar müvafiq fəaliyyət sahələrini əhatə edən dövlət proqramlarında, strateji konsepsiyalarda dolğun ifadəsini tapır.

Burada insan amilini şərtləndirən bir sıra mühüm amillərə diqqət yetirmək gərəkdir. Nəzərə almaq lazımdır ki, uğur qazanmaq üçün güclərin məqsədyönlü şəkildə təmərküzləşməsi və düzgün strategiya seçilməsi vacibdir. Təcrübə göstərir ki, insan amilinə xüsusi diqqət yetirildikdə kompleks planlaşdırma və idarəetməni həyata keçirən təşkilatlar daha uğurlu fəaliyyət göstərərək, uyğun fəaliyyət sahəsindəki orta mənfəətlə müqayisədə daha çox qazanc, mənfəət əldə edirlər. Bu, həm dövlətin, həm cəmiyyətin strateji maraqlarına uyğundur.

Hazırda Azərbaycan sosial-iqtisadi inkişaf sürətinə görə, dünyada liderlik edən dövlətlərdən sayılır. Həyata keçirilən geniş islahatlar, çoxçeşidli infrastruktur layihələri nəticəsində ölkədə dinamik inkişaf davamlı xarakter alıb.Regionda inkişaf göstəricilərinə görə alternativsiz lider olan Azərbaycan qısa zamanda böyük miqyaslı infrastruktur, sənaye və sosial layihələri həyata keçirib. Bu, ölkəmizin əldə etdiyi böyük uğurdur, ölkənin strateji inkişaf perspektivi baxımından, yeni nailiyyətlərin əldə edilməsinə obyektiv zəmin yaradır. Bununla yanaşı, davamlı tərəqqinin genişləndirilməsi və dünyanın inkişaf etmiş ölkələrin dairəsinə daxil olmaq üçün bir çox mühüm işlər həyata keçirilir ki, bu da ölkəmizin mühüm, strateji hədəflərindəndir. Strateji planda belə genişmiqyaslı planları həyata keçirmək və strateji məsələləri tam həll etmək üçün gələcəkdə layihələrin inkişafını tədricən aşağıdakı tövsiyələrə uyğun olaraq aparmağa təklif edilir:

- mövcud insan kapitalının inkişafı sahəsində dünya təcrübəsinin elmi tədqiqi və optimal, səmərəli istifadəsinidavam etdirmək;
- milli, regional xüsusiyyətlər nəzərə alınmaqla, Azərbaycanda istifadə üçün ən ən uyğun insan kapitalının toplanmasının effektiv üsul və vasitələrinin müəyyən edilməsi;
- insan kapitalının davamlı inkişafı üzrə milli strategiyanın əsas konseptual müddəalarının inkişafı və onun effektiv şəkildə tətbiqinin müasir mexanizmlərinin işlənib hazırlanması.

Bu gün Azərbaycan insan kapitalı fondunu formalaşdırmaqla dövlət və özəl sektorun ən müasir bilik və texnologiyaları mənimsəmiş kadrlarla təmin olunmasına nail ola bilər. Respublikamızda bundan ötrü böyük potensial ehtiyatlar mövcuddur.

Azərbaycanın həm respublika hüdudlarındakı, həm də xarici dövlətlərin nüfuzlu elm və təhsil müəssisələrindəki peşəkar, gənc kadr ordusu müasir dünyanın elmi, texniki və mədəni tərəqqisinin ölkəmizə geniş şəkildə nüfuz etməsini şərtləndirir. Yeni, müasir idarəetmə texnologiyalarına yiyələnən bu gənclər mövcud inkişaf potensialının quvvətləndirilməsi baxımından, ölkəmizin qızıl fondu sayıla bilər.

Azərbaycanın əldə etdiyi valyuta gəlirlərinin insan kapitalına çevrilməsi bu gün sosial-iqtisadi siyasətin başlıca hədəflərindən birinə çevrilib. Hökumət insan kapitalı ilə bağlı xüsusi ixtisaslaşmış struktur yaratmaq təşəbbüsü bu baxımdan olduqca təqdirə layiqdir. İnkişaf etmiş dövlətlərin təcrübəsini nəzərə alan hökumət bu təşəbbüsü reallaşdırmaqla intellektual və yüksək idarəetmə qabiliyyətinə malik güclü insan kapitalı bazası formalaşdırmaq imkanı qazanır ki, bu strateji inkişaf perspektivi baxımından böyük hədəflərə hesablanmış addımdır. Müasir şəraitdə, bütün sosial-iqtisadi inkişaf meyillərinin kökündə insan amili dayanır. İnkişaf etmiş ölkələrin ən mühüm sərvəti, kapital fondu məhz zəngin biliyi və təcrübəsi olan insanlardır. Bununla bağlı, hökumət xarici ölkələrdə təhsil alan gənclərin sayının artırılması, onların tədris xərclərinin yüksəldilməsi ilə bağlı məqsədyönlü addımlar atır.

İnşa olunan körpülər, yollar, elektrik stansiyaları, su-kommunal xidmət qurğularının bərpasında, tikintisində başlıca maliyyə mənbəyi neft gəlirləridir. Neft gəlirləri hesabına reallaşan idarəetmə sisteminin təkmilləşdirilməsi isə ölkəmizin hər il dünyada qabaqcıl texnologiyalar tətbiq edən dövlətlər sırasında reytinqinin artmasına təkan vermiş olur.

Dövlət Neft Fondundan hər il yüz milyonlarla manat vəsaitin infrastruktur və investisiya bölmələrinə ayrılması respublikamızın bütün bölgələrinin simasının dəyişməsinə səbəb olub. Bütün bölgələrdə tikilən məktəblər, mədəniyyət obyektləri də neft kapitalının hesabına reallaşır. Bütün bu nailiyyətlərin təməlində insan intellekti, zəkası və əməyi durur. Buna görədə hökumət neft gəlirlərini intellektual mülkiyyətə, insan kapitalının inkişafına yönəltməyi vacib sayır. Həyata keçirilən bu rasional tədbirlər ümumilikdə əhalinin sosial-iqtisadi rifahının daha da yaxşılaşmasına xidmət edir, ölkəmizin sosial mədəni tərəqqisini şərtləndirir.

## Logistika milli iqtisadiyyatın inkişafının zəruri aləti kimi

*NAMAZOVA Aynur Məhəmməd qızı*
*Sənayenin təşkili və idarəetmə kafedrasının müəllimi*

Milli iqtisadiyyatı inkişaf etdirmək, regionu ticarət mərkəzinə çevirmək məqsədi ilə ölkənin strateji coğrafi mövqeyindən səmərəli istifadə etməklə tranzit və nəqliyyat xidmətlərinin inkişafı, ölkənin bölgələrində logistika mərkəzlərinin yaradılması nəzərdə tutulur. Bütün bunlar eyni zamanda istehsal və investisiya mərkəzi kimi də ölkənin cəlbediciliyinin artmasına, yeni biznes və məşğulluq imkanlarının yaranmasına yol açacaqdır. Regional inkişaf prioritetləri nəzərə alınmaqla, bölgələrdə dövlətin infrastruktur və investisiya siyasəti ilə biznesin investisiya strategiyaları əlaqələndiriləcək və əsasən iqtisadi səmərəlilik baxımından prioritetləşdiriləcəkdir. Ölkənin bölgələrində infrastruktur təminatının yaxşılaşdırılması, informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, turizm və rekreasiya zonalarının, iqtisadiyyatın prioritet sahələri üzrə ərazi-istehsal klasterlərinin, hər bir bölgənin rəqabət üstünlükləri nəzərə alınmaqla, yeni regional inkişaf mərkəzlərinin yaradılması bölgələrin sosial-iqtisadi inkişafını sürətləndirəcəkdir.

Logistika və ticarət sürətlə qloballaşan dünyada iqtisadi artımın mühüm təkanverici qüvvəsinə çevrilməklə, əsas sektorlarda birbaşa xarici investisiya qoyuluşlarının həcmini artırmağa şərait yaradır. Logistika və ticarət sahəsi bütün sektorların inkişafında bünövrə rolunu oynamaqla, əlavə dəyərin və yeni iş yerlərinin yaradılmasında və gəlirliliyin artırılmasında mühüm rol oynayır. Ölkənin logistika aktivlərinin daim inkişaf etdirilməsi onun regional və beynəlxalq ticarətdə rolunun artmasına təkan verəcəkdir. Belə ki, həm Şərq-Qərb dəhlizi, həm də Şimal-Cənub dəhlizi üzərindəki əlverişli coğrafi mövqeyi sayəsində ölkəmiz həm tranzit ticarəti, həm də idxal-ixrac əməliyyatlarından pay əldə etmək imkanına malikdir. Yeni liman və dəmir yolları ilə bağlı bir sıra mühüm infrastruktur layihələri artıq yekunlaşmaq üzrədir. Bu aktivləri və üstünlükləri nəzərə alaraq, Azərbaycanın ərazisində intermodal və multimodal (müxtəlif nəqliyyat növlərinin ehtiva edilməsi) logistika infrastrukturunun yaradılması vasitəsilə ticarət həcminin artırılması, tranzit ticarətindən daha çox dəyərin əldə edilməsi və logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin artırılması məqsədilə bir sıra təşəbbüslər həyata keçirilir.

Şərq-Qərb dəhlizi üzrə 2015-ci ildə 150 milyon ton həcmində tranzit yük daşınmasına baxmayaraq, Azərbaycanın buradakı payı kiçikdir. 2015-ci ildə Orta Asiya və Qara dəniz regionunda yük həcmi 9,9 milyon ton olmuşdursa, 2020-ci ildə bu rəqəmin 13,8 milyon tona çatacağı proqnozlaşdırılır. Orta Asiyanın Avropa ilə cari ticarət dövriyyəsi 40 milyon tona yaxındır və 2020-ci ildə bu göstəricinin 56 milyon tondan artıq olacağı proqnozlaşdırılır. Bu dəhliz üzrə Azərbaycan ərazisindən 2015-ci ildə cəmi 9,5 milyon ton tranzit yük daşınmışdır. Tranzit yükdaşıma həcminin artırılması potensialı çox böyükdür və Azərbaycana 2020-ci ilə qədər cəlb olunacaq tranzit yüklərin həcminin artırılması proqnozlaşdırılır.

Hesablamalar göstərir ki, inkişaf etmiş nəqliyyat və logistika sistemi ÜDM-də 3 faizədək birbaşa artıma imkan verir. Mühüm regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilmək və əsas ticarət marşrutlarından bəhrələnmək məqsədilə ölkənin logistika sahəsindəki və ümumi ticarətdəki payını artırmaq, mütəşəkkil və səmərəli strategiya həyata keçirmək istiqamətində dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsi, dövlət investisiyalarına üstünlük verilməsi və özəl investisiya qoyuluşlarına şərait yaradılması kimi hədəflər müəyyən edilir.

Ölkədə iqtisadi artımın sürətləndirilməsi və əhatə dairəsinin genişləndirilməsi baxımından yerli logistika infrastrukturu və xidmətləri də böyük əhəmiyyət kəsb edir.

Logistika və ticarət sahəsində güclü inkişafın təmin edilməsi yolu ilə Azərbaycan regional şirkətlər üçün logistika və ticarət mərkəzinə çevriləcəkdir. Eyni zamanda, logistika və ticarət sahəsində yüksək imkanlara malik müəssisələrin potensialı diqqətlə qiymətləndirilərək, özəl sektorun bu sahəyə cəlb olunması istiqamətində işlər davam etdiriləcəkdir. 2025-ci ilədək ölkə Ələt qəsəbəsində yaradılmış yeni Bakı Limanının ərazisi daxil olmaqla azad ticarət zonasının üstünlüklərindən faydalanan güclü logistika platformasına malik olacaqdır. Burada regional topdansatış ticarət zonasının yaradılmasında yerli və beynəlxalq ticarət tərəfdaşlarının təcrübələrindən istifadə ediləcəkdir.

Logistika və ticarət sahəsində səmərəli əməkdaşlığın genişləndirilməsi məqsədilə keçirilən sərgilərdə, o cümlədən satış- sərgilərdə yerli və xarici sahibkarlar arasında əlaqələrin qurulması üçün əlverişli mühit formalaşacaqdır. Nəzərdə tutulan bu cür ticarət səviyyəsinə nail olmaq məqsədilə görülən tədbirlər yalnız yeni Bakı Limanı ilə məhdudlaşmayacaq və ölkədə logistika və ticarət mərkəzləri və potensial azad ticarət zonaları genişləndirilərək digər bölgələri də əhatə edəcəkdir. İlk növbədə, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Heydər Əliyev Beynəlxalq Aeroportunda və ölkənin daxili ticarət şəbəkəsinə çevik inteqrasiyasını təmin etməkdən ötrü avtomobil və dəmir yolu əlaqələri gücləndiriləcəkdir. Bu logistika və ticarət mərkəzində, prioritet vəzifə kimi, 2025-ci ilədək olan dövrdə ilkin və aralıq ərzaq məhsullarının emalı, əczaçılıq, əmtəəlik plastik materiallar və gübrə istehsalı kimi sahələrdə Azərbaycanın üstünlüyü təmin ediləcək, eləcə də 2025-ci ildən sonrakı dövrə hazırlıq kimi ölkənin logistika və ticarət sahəsinin əhatə dairəsinin daha da genişləndirilməsi imkanları araşdırılacaqdır.

Uzunmüddətli perspektivdə ölkənin əsas logistika şirkətlərinin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması ilə bağlı tədbirlər görüləcəkdir. Nəticədə, Azərbaycanın logistika şirkətləri beynəlxalq bazarlarda etibarlı şirkətlər kimi iştirak edə biləcəklər. Standartlaşdırma sahəsində aparılan işlərlə yanaşı, ölkə daxilində ticarət mühitinin yaxşılaşdırılmasına da səy göstəriləcək, bu yolla logistika sahəsində əməliyyatların təkmilləşdirilməsi və xərclər baxımından rəqabətqabiliyyətliliyin təmin olunması məqsədilə fəaliyyətin optimallaşdırılmasına stimul yaranacaqdır.

Ələt qəsəbəsində azad ticarət zonasının fəaliyyətinin təşkili ilə bərabər müxtəlif regionlarda da logistika və ticarət mərkəzlərinin yaradılması prosesi davam etdiriləcək,

ölkədə inkişaf etmiş logistika infrastrukturunun dayanıqlılığı təmin ediləcək, özəl sektorun iştirakı daha da stimullaşdırılacaq, bu sahəyə birbaşa xarici investisiyaların cəlbi genişləndiriləcəkdir. Fəaliyyətin səmərəliliyinin artırılması məqsədilə həmin logistika və ticarət mərkəzlərində rəqəmsal proqram təminatlarından istifadə etməklə, ən qabaqcıl əməliyyat modelləri tətbiq ediləcəkdir. Bu tədbirlər nəticəsində gələcəkdə Azərbaycanın logistika və ticarət sahəsində regionun lideri mövqeyinə yüksəlməsi təmin olunacaqdır.

Yeni Bakı Limanı rəqabətqabiliyyətli liman qovşağı üçün tələb olunan səmərəlilik, əlverişli mövqe və əlavə dəyər yaradan xidmətləri əsas amil kimi özündə birləşdirəcəkdir: Səmərəlilik baxımından hazırkı Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə müqayisədə Ələt qəsəbəsindəki yeni Bakı Limanı kompleksinin müasir informasiya texnologiyaları sistemləri və müvafiq avtomatlaşdırma vasitələri ilə təchizatı nəticəsində səmərəlilik artacaqdır. Əlverişli mövqe baxımından Yeni Bakı Limanı Rusiya, İran və Avropa ilə dəmir yolu xətlərinin kəsişməsində yerləşir, eləcə də əsas avtomobil magistrallarına birbaşa çıxışı vardır. Həmçinin hava yükdaşımaları üçün Heydər Əliyev Beynəlxalq Aeroportuna yaxındır. Eləcə də yeni Bakı Limanı kompleksinin coğrafi mövqeyi ölkənin hazırkı limanlarından daha əlverişlidir. Belə ki, Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı və mövcud Bakı Limanı yüklərin xərclər və vaxt baxımından daha səmərəli şərtlərlə Türkmənbaşı və Aktau limanlarına bərə, quru yük gəmiləri və Ro-Ro (təkərli texnika daşıyan gəmi) xətti ilə daşınmasına şərait yaradır. Əlavə dəyər yaradan xidmətlər baxımından Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı kompleksində ümumi logistika xidmətlərinin və əlavə dəyər yaradan digər xidmətlərin də (qablaşdırma, yığılma, təkrar istehsal və s.) göstərilməsi, müxtəlif nəqliyyat növlərinin bir araya gətirildiyi qurğuların, açıq və qapalı saxlama meydançasının, quru və soyuq anbarların, konteyner meydançasının və “TIR” avtomobil parkının təklif edildiyi logistika mərkəzi kimi xidmətlərin təmin edilməsi hədəflənir. Azad ticarət zonasının fəaliyyətinin təşkili Azərbaycanın ticarət həcminə əlavə dəyər qatacaqdır . Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı kompleksindəki logistika və ticarət mərkəzində, eləcə də azad ticarət zonasında yalnız yük həcminin artırılması deyil, eyni zamanda, xarici investorların cəlb edilməsi də nəzərdə tutulur.

Azərbaycanda logistika sahəsinin davamlı inkişafı nəticəsində ətraf mühitin mühafizəsi dövlətin gündəliyində prioritetlərdən biri olaraq qalacaq və bu məsələyə diqqət daha da artırılacaqdır. Bu istiqamətdə müəssisələr ətraf mühitə təsiri azaltmağa imkan verən aydın hədəflərə malik səmərəli təchizat zənciri üzrə idarəetmə təcrübələrini tətbiq edəcək və konkret strategiyalar həyata keçirəcəklər. Logistika və ticarət mərkəzlərində fəaliyyət göstərən şirkətlərin öz işini ekoloji tələblərə uyğun davam etdirmələrinə zəmin yaratmaq məqsədilə digər sektorlardakı assosiasiyalarla birlikdə standartlar nəzərdən keçiriləcəkdir.

## Azərbaycanda turizm sənayesinin inkişaf perspektivləri

*XƏLİLOVA Elmira Elbrus qızı*
*İqtisadiyyat kafedrasının müəllimi*

Turizm sənayesi son yarım əsrdə dünya təsərrüfatının ən dinamik inkişaf edən sahələrindən birinə çevrilmişdir. Hazırda dünya üzrə turistlərin xarici ölkələrə səfərlərinin sayı 25 milyon nəfərdən 697 milyona çatıb. Hələ 2002-ci ildə turizm sənayesinin xidmətlərindən qazanılan dəyər 450 milyard dollar məbləğində qiymətləndirilirdi. Bu da

astronomik məbləğ hesab olunurdu və dünya üzrə ÜDM-un təxminən 3%-ni təşkil edirdi. Mövcud proqnozlara əsasən, 2020-ci ildə xarici dövlətlərə səyahət edən turistlərin sayı 1,6 mlrd. nəfərə çatacaq və turizm xidmətlərinin ödənilməsinə ildə təxminən 2 trln. dollar xərclənəcək.

Beynəlxalq turizmin zəifliyi olan siyasi və iqtisadi konyunkturaya baxmayaraq, ümumilikdə böhrandan sonrakı dövrdə də turizm sənayesi dinamik artımlı və yüksək dərəcədə sabitlik bacarıqları nümayiş etdirir. Müstəqillik əldə etmiş Azərbaycan Respublikasında da turizmin inkişafına maraq artmış və bu sahəyə dövlət səviyyəsində xüsusi qayğı göstərilir. Turizmin inkişafı üzrə ölkədə Dövlət Proqramları qəbul edilmiş, 2002-2005-ci və 2010-2014-cü illəri əhatə edən bu Proqramların icrası nəticəsində turizm sektorunun inkişafında müsbət nəticələr əldə olun-muşdur. Ölkədə turizmin inkişafını təşkil edə biləcək dövlət srukturları yaradıl-mışdır. Bunun sayəsində son illər turizm sahəsində fəaliyyət göstərən firma və şirkətlərin və onunla əlaqəli bir sıra sahələrin, internet-iqtisadiyyat daxil olmaqla, texniki təchizatının səviyyəsinin artması, turizm biznesinin təşkilati və texniki cə-hətdən inkişafı əhəmiyyətli dərəcədə irəliləmişdir. Bu vəziyyət də turizm sahəsində artımın yüksək tempinin təmin olunmasında mühüm rol oynayır.

Hazırda Azərbaycanın turizm sahəsi böyük perspektivlərə malikdir. Ölkəmizdə turizmin əksər növlərinin (kənd, müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, kommersiya, idman, dini və s.) inkişafı üçün geniş imkanlar mövcuddur. Son illərdə əldə olunmuş sürətli sosial-iqtisadi tərəqqi bu sahənin hərtərəfli inkişafına yeni imkanlar açıb.

Azərbaycanda turizmin inkişafı sahəsində qarşıya qoyulan əsas məqsədlər kifayət qədər genişdir: turizm ehtiyatlarının öyrənilməsi, genişləndirilməsi, turistlərin tələbatının ödənilməsi üçün zəruri xidmətlərin təşkili və müasir standartlara uyğunlaşdırılması, sanatoriya-kurort imkanlarının genişləndirilməsi, mehmanxanaların və digər turizm obyektlərinin sayının artırılması, turizm marşrutlarının çoxaldılması və s. Bir sözlə, söhbət turizmin ölkə iqtisadiyyatının ən dayanıqlı, effektiv və rəqabətə davamlı sahəsinə çevrilməsindən gedir.

Son vaxtlar bu istiqamətlərdə müsbət dinamika güclənməkdədir. Hər il Azərbaycanda 25-50 yeni mehmanxana, hotel, motel və digər turist yerləşdirmə obyektinin təməli qoyulur. Bundan başqa, iş adamlarında turizm sahəsinə böyük maraq yaranıb. 10 il əvvəl ölkədə cəmi 32 turizm şirkəti vardı, bu gün isə onların sayı 123-dür.

Azərbaycanda turizmin inkişafı reallıqdır. Bu infrastrukturu yaratmaq üçün, əlbəttə ki, dövlət tərəfindən böyük vəsait tələb olunur. Ancaq bu, infrastruktur məsələlərinə yönəldilir. Hotellər və digər turizm obyektləri isə özəl sektor tərəfindən tikilməlidir. İnvestorlarda inam olmalıdır ki, bu vəsait onlara dividendlər gətirəcəkdir.

Beynəlxalq standartlara uyğun mehmanxana şəbəkəsinin inkişafı bu sahədə çalışan kadrlara ehtiyac yaradır. Bu ehtiyacı qarşılamaq üçün Prezident İlham Əliyevin 2006-cı il 25 avqust tarixli Fərmanı ilə yaradılan Azərbaycan Turizm İnstitutunun ilk məzunları artıq ixtisasları üzrə çalışmaqdadırlar. Ölkənin digər təhsil müəssisələrində də turizm ixtisası üzrə kadrlar hazırlanır. 2016-2017-ci tədris ilindən başlayaraq Mingəçevir Dövlət Universitetində "Turizm və otelçilik" ixtisası üzrə tələbə qəbulu həyata keçirilmişdir. Yeni ixtisas üzrə 27 tələbə qəbul edilmiş və hazirda təhsil alırlar.

Azərbaycanda yerli, respublika və dünya əhəmiyyətli qorunan tarixi və mədəniyyət abidələrin sayı 6000-ə yaxındır. Bunlara İçərişəhər, Çıraqqala, Qobustan, Keşişdağ, Xınalıq, Nardaran Qalası, Şuşa, Şəki, Lahıc, Zaqatala, Basqal, Gəncə, Qazaxın «Avey», Qəbələ, İlisu, Ordubadın «Gəmiqaya», Şərurun «Arpaçay», Ordubad, Culfanın «Gülüstan», Dəvəçinin «Çıraqqala», Dəvəçinin «Şabran şəhəri», Hacıqabulun «Pir Hüseyn Xanəgahı» və s., dövlət mədəniyyət, etnoqrafiya qoruqlarını misal gətirmək olar. Milli mədəni irsin öyrənil-

məsi, təqdim və təbliğ edilməsi istiqamətində işlər görülür. Bu işlər ölkə turizminin müxtəlif istiqamətlərini inkişaf etdirmək üçün zəngin baza rolunu oynayır.

Qusar rayonunda, Şahdağın ətəklərində yaradılmış olan qış-yay turizm kompleksi isə əsl turizm incisi sayıla bilər. Bu kompleks həm təyinatına, həm də nadir layihə strukturuna görə xüsusi önəm daşıyır.

Bu gün Qəbələ şəhərinin yaxınlığında eyni vaxtda 2000-dən çox qonağı qəbul etmək imkanına malik olan 4 ədəd beşulduzlu otel mövcuddur. Rayonda rahat şəkildə təbiət qoynunda ailəvi istirahət etmək üçün, həmçinin kiçik otellər, bir neçə istirahət mərkəzi və turist bazası da fəaliyyət göstərir. Bölgənin füsunkar təbiəti, təbii resursları, insan potensialı və qonaqpərvərliyi, yüksək səviyyədə xidmət də Qəbələni gözəl bir məkana çevirmişdir.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı il 16 mart tarixli sərəncamı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi"ndə turizmə böyük önəm verilir. Strateji yol xəritəsində inkişaf etdirilməsi nəzərdə tutulan əsas sektorlardan biri də "İxtisaslaşmış turizm və əyləncə" xidmətidir. Konsepsiya çərçivəsində turizm infrastrukturunun inkişaf etdirilməsi, beynəlxalq standartlara cavab verən turizm xidmət sahələrinin dairəsinin genişləndirilməsi, bu sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi və ÜDM-də xüsusi çəkisinin artırılması istiqamətində böyük tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Göründüyü kimi, son dövrlərdə Azərbaycan iqtisadiyyatının inkişafının diversifikasiyası yönümündə aparılan dövlət siyasəti turizmə diqqəti daha da artırır. Qeyri-neft sektorunda özünəməxsus yüksək yer tutan turizmin yaxın gələcəkdə ölkə iqtisadiyyatının aparıcı sahələrdən biri olması gözlənilən reallıqdır və dövlətin bu sahədə apardığı siyasət bu reallığın həyata keçməsinə istiqamətlənmişdir. Dünya mətbuatında, elektron informasiya vasitələrində aparılan intensiv iş, sərgilərdə Azərbaycanın turizm imkanlarının və cəzbedici cəhətlərinin yerləşdirilməsi, bu sahədə əməkdaşlıq əlaqələrinin gücləndirilməsi ölkədə turizmin genişlənməsində özünü göstərir. Belə bir inkişaf Azərbaycanı dünyanın aparıcı turizm ölkələrindən birinə çevrilməsi hədəfinə yaxınlaşdırır.

## Ölkə iqtisadiyyatının inkişafında turizmin rolu

*KƏRİMLİ Günel Fazil qızı*
*Sənayenin təşkili və idarəetmə kafedrasının müəllimi*

Azərbaycanın turizm potensialının beynəlxalq aləmdə tanınması, turizmin potensial sahələrinin inkişafı, turizm infrastrukturlarının müasir tələblərə cavab verməsini təmin etmək xarici turistləri ölkəyə cəlb etmək istiqamətində həyəta keçirilən tədbirlər, eləcə də Azərbaycan regionlarının coğrafi mövqeyi, iqlimi, qədim tarixi abidələri, mətbəxi, xalqımızın zəngin mədəniyyəti və sair amillər son illərdə ölkəyə gələn turistlərin sayının artmasına səbəb olmuşdur. Bu da regionlarda tarixi-mədəniyyət abidələrinin mühafizəsinə, turizm marşrutlarının bərpası və yeni marşrutların yaradılmasına, yeni turizm obyektlərinin tikilməsinə səbəb olmaqla regionlarda yaşayan əhalinin məşğulluğunun təmin olunmasına da öz təsitini göstərmişdir. Turizm sahəsində həyata keçirilən islahatlar ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etmişdir. Bakı, Xaçmaz, Şamaxı, Şəki, Quba, Lənkəranda, Dünya Bankının maliyyələşdirilməsi ilə Lahıcda "Turizm İnformasiya Mərkəzləri" fəaliyyətə başlamışdır.

Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 6 aprel 2010-cu il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq edilmişdir. Ölkədə turizm infrastrukturunun yüksək beynəlxalq tələblər səviyyəsində qurulmasına istiqamətlənmiş məqsədyönlü fəaliyyətin həyata keçirilməsi, daxili və xarici investisiyaların turizm sahəsinə cəlb edilməsi məqsədi ilə bu sahədə təşviqləndirici investisiya və biznes mühitinin formalaşdırılması, turizm sahəsində qabaqcıl beynəlxalq təcrübədən istifadə etməklə səmərəli dövlət tənzimlənməsi və idarə edilməsi mexanizmlərinin yaradılması, ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması kimi vəzifələrin həyata keçirilməsini nəzərdə tutan Proqramın başlıca məzqsədi Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsini təmin edilməsi idi.

Turizm sahəsində normativ hüquqi bazanın və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, turizm və rekreasiya zonalarında müvafiq infrastrukturun yaradılması, ölkənin turizm potensialından istifadə imkanlarının genişləndirilməsi, ölkənin bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması, mehmanxanaların və digər turizm xidməti müəssisələri şəbəkəsinin genişləndirilməsi, turizm sahəsi üçün kadr hazırlığı və ixtisasartırma sisteminin təkmilləşdirilməsi, xarici dövlətlərdə məqsədli təhsil üzrə layihələrin həyata keçirilməsi və s. məqsədyönlü tədbirlərin həyata keçirilməsini nəzərdə tutan Dövlət Proqramı uğurla həyata keçirilərək iqtisadiyyatın inkişafında qeyri-neft sektoru üzrə milli turizm sahəsində böyük nailiyyətlər əldə edilməsinə səbəb oldu.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2011-ci il tarixli 1320 nömrəli sərəncamı ilə turizmin daha da inkişaf etdirilməsi və turizm fəaliyyəti üçün əlverişli şəraitin yaradılması zərurətini nəzərə alaraq turizm ehtiyyatlarından səmərəli istifadə olunmaqla zəngin coğrafi landşafta malik ölkəmizin təbiət abidələrinin və eləcə də xalqımızın qədim mədəni tarixi irsinin geniş miqyasda tanıdılmasını təmin etmək məqsədilə 2001-ci il Azərbaycan Respublikasında "Turizm ili" elan edilmiş və sərəncama əsasən Tədbirlər Planı təsdiq edilmişdir.

Azərbaycan regionlarında turizmin inkişafı bu gün dövlətin sosial siyasətinin əsas istiqamətlərindədir. Ölkə regionlarının yeni inkişafında ölkənin regionlarının sosial və iqtisadi inkişafı ilə bağlı qəbul edilən dövlət proqramlarının uğurla icrası mühüm əhəmiyyət daşıyır. Məsələyə kompleks yanaşma və ünvanlılığı özündə cəmləyən dövlət proqramları ölkənin regionlarının hazırki potensialından tam şəkildə istifadə yolu ilə ölkənin regionlarının davamlı sosial və iqtisadi inkişafına, modern infrastruktur, həmçinin sosial xidmətərlə təminat səviyyəsinin daha da yaxşılaşdırılmasına, başlıcası isə əhalinin sosial-maddi rifahının daha yüksək səviyyəyə çatdırılması yolu ilə nəticələnmişdir.

## Azərbaycanda turizmin inkişafının əsas istiqamətləri

*MƏMMƏDOVA İlhamə Raquf qızı*
*İqtisadiyyat və idarəetmə fakültəsinin tyutoru*

Turizmin inkişafı hər bir ölkədə iqtisadi potensialın istifadəsi və ölkə iqtisadiyyatının perspektiv inkişafı ilə əlaqədə əsaslandırılır. Turizmin inkişafı zəruriliyi turizm tələbatı və ölkədə sosial məqsədlər üçün istifadə olunur. Turizmin inkişafının respublikada zəruriliyi Azərbaycanın iqtisadi-inkişaf dinamikası və regionların sosial-iqtisadi inkişaf zəruriyyəti ilə bağlıdır. Respublikada turizm inkişafı dünya təcrübəsi və dünya turizm xüsusiyyətləri ilə bağlıdır.

Turizm və sosial-mədəni servis xidməti fəaliyyət növü kimi əhalinin asudə vaxtının səmərəli istifadə edilməsinə, ekskursiya, səyahət və turist marşrutlarının təşkilinə, həmçinin turistlərin başqa xidmət növlərindən istifadənin gücləndirilməsinə təkan verir. Turizm xidmətləri bilavasitə turist təşkilatlarının fəaliyyətinin nəticəsidir. Turizm xidməti əməyin spesifik xüsusiyyətlərini və məzmununu müəyyənləşdirən milli iqtisadiyyatın müstəqil sahəsidir. Turizmdə əmək məhsuldarlığının artım sürəti üçün xidmətin səviyyəsinin yüksəldilməsi, əməyin təşkili və stimullaşdırılmasının forma və üsullarının təkmilləşdirilməsi, turizm və sosial-mədəni servis xidmətlərinin təşkilinin yenidən qurulması zəruridir.

Ölkəmizdə turizm xidməti üçün çox əlverişli şərait var. Bu ondan irəli gəlir ki, respublikamızın hər cür təbii iqlim, landşaft şəraiti, iqtisadi imkanları və turizm obyektləri mövcuddur. Ölkənin turizminin xidmətinin inkişafı yeni yolların, nəqliyyat vasitələrinin xarici sahibkarların bölgəyə marağını artırmaqla, gələn turistlərin qarşılanması, yerləşdirilməsi, onlar üçün gəzinti planlarının hazırlanması və həyata keçirilməsi kimi bir çox fəaliyyət komplekslərinin inkişaf perspektivlərini müəyyən edir. Yeni hava və dəniz limanlarının istifadəyə verilməsi, yeni dəniz, hava, minik avtomobilləri və avtobusların alınması və istifadəyə buraxılması bu inkişafın elementlərindəndir. Həmçinin, turizmin inkişafı ölkənin regionlarının da inkişafına səbəb olur, yüzlərlə iş yerlərinin açılmasına və son nəticədə ölkənin sosial-iqtisadi inkişafına öz töhfələrini verir. Beləliklə xarici iqtisadi əlaqələrin möhkəmlənməsində də turizm xidməti mühüm rol oynayır. Ölkəmizdə mineral suların, müalicə nefti və palçığın olması kurort yerlərinin əhəmiyyətini artırmaqla yanaşı, buraya turist axınını da gücləndirir. Xəzər dənizi sahilləri, Quba-Xaçmaz, Lənkəran-Astara, Şəki-Zaqatala, Gəncə-Qazax və Aran iqtisadi rayonları turizmin inkişaf etdirilməsi üçün çox yararlıdır. Məhz bu zonalara turist axını daha çoxdur. Bundan əlavə, müxtəlif arxeoloji, tarixi memarlıq abidələri, incəsənət obyektləri də xarici turistləri cəlb edir.

Turizmin sosial səmərəliliyi əhalinin asudə vaxtının rasionallaşdırılmasında, mənəvi və fiziki bacarıqlarının inkişaf etdirilməsində ifadə olunur. Sosial turizm insanın istirahət və azad hərəkət etməsi, sağlamlığının qorunması, aztəminatlı əhalinin fiziki və mənəvi reabilitasiyası hüquqlarının təmin edilməsinə yönəlir. Sosial turizm həm də cəmiyyətin müxtəlif təminatlı təbəqələri arasındakı ziddiyyətlərin yumşaldılmasına yönəlir, dövlətin sosial və siyasi sabitliyini təmin edir. Sosial turizm ölkənin, regionun sosial-iqtisadi vəziyyətinə əhəmiyyətli təsir edir. Ölkə daxilində sosial məhsulun istifadəsi, pul mübadiləsi baş verir ki, bu da vergi bazasının genişlənməsinə və yerli mal istehsalına tələbatın artmasına, xidmət sahəsinin inkişafına şərait yaradır. Sosial turizmin inkişafı kiçik şəhərlərin dirçəlişinə kömək edir, yeni iş yerlərinin açılmasına və saxlanılmasına, məşğulluq məsələsinə təsir edir. Sosial turizm faktiki olaraq cəmiyyətin birləşməsinə, onun davamlı inkişafına şərait yaradır.

Müasir dövrdə turizm bütöv sənaye və ərazi kompleksi kimi formalaşır. Bu sahəyə insanların istirahəti ilə bağlı olan sənaye, nəqliyyat və digər sahələrin qarşılıqlı əlaqəsi, turist xidmətinin təşkili və idarəçiliyi məqsədi ilə formalaşmış müəssisə, təşkilat və orqanlar daxildir. Turizm sənayesi və kompleksinə ərazinin əhatəsində və ona yaxın sahələrdə artıq formalaşmış mehmanxana kompleksləri, yeməkxanalar, ekskursiya şirkətləri, nəqliyyat müəssisələri və sosial-mədəni sahələr daxildir.

Dövlət turizmin inkişafı ilə məşğul olan sahibkarlara, hüquqi və fiziki şəxslərə yardım və bir sıra iqtisadi-təşkilati mexanizmlərlə təsir etməklə həmin regionun turizm dövriyyəsinin artmasına səbəb olur. O cümlədən, bazarların kəsişməsi, ümumi əmtəə və xidmət tələb və təklifinin formalaşmasında turizm dövriyyəsinin rolu və xüsusi çəkisi qiymətləndirilir. Turizmin inkişafının iqtisadi artımla yaxınlığı respublika daxilində əhalinin digər tələbatlarının ödənilməsi və turist məqsədi ilə yerdəyişmənin həyat tərzinə çevrilməsi meylləri ilə bağlıdır. Hər bir fəaliyyət sahəsinin turist infrastrukturuna çevrilməsi bu sahənin kompleks inkişaf xüsusiyyətləri ilə bağlıdır.

Azərbaycan artıq özünün post-neft dövrünü yaşayır və yeni iqtisadi inkişaf modeli tətbiq etməkdədir. Yeni model mövcud infrastrukturdan istifadə etməklə, həm xarici investisiyanın cəlb edilməsi, həm neftdən asılılığın aradan qaldırılması, həm də iqtisadiyyatın diversifikasiyası, modernləşdirilməsi kimi fəaliyyətləri özündə əks etdirir. Bununla bağlı hazırlanmış strateji yol xəritələri üç dövrü - 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir.

Strateji yol xəritələrinin bəzisi iqtisadiyyatın sektorları üzrə hazırlanıb: turizm, maşınqayırma, kimya sənayesi üzrə strateji yol xəritələri var. Başqa yol xəritələri konkret istiqamətləri əhatə edir: kiçik və orta sahibkarlığın inkişafı, uyğun mənzil təminatı və s.

“Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi” sənədin hazırlanmasına həm müvafiq dövlət orqanları, həm elmi dairələrin, həm də vətəndaş cəmiyyətinin nümayəndələri cəlb edilib və nəticədə kifayət qədər təkmil bir sənəd hazırlanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən sənəd imzalanmışdır. 2020-ci ilə qədər turizmlə bağlı hədəflər, prioritetlər və tədbirlər müəyyən olunub.

Xüsusi olaraq 2020-ci ilə qədər Bakının turizm potensialının tam reallaşdırılması və ölkəyə turist axınının artırılması üçün alətlər müəyyənləşdirilib. Turizmin inkişafı üçün güzəştlər nəzərdə tutulur. Azərbaycanın, xüsusən Bakının turizm potensialı ilə bağlı təşviqat kampaniyasının aparılması, qış turizmi, çimərlik turizmi, sağlamlıq turizmi və ekoturizmin potensialının artırılması üçün tədbirlər, təşviqlər, iqtisadi alətlərdən istifadə edərək o turizm növlərinin stimullaşdırılması nəzərdə tutulub. Çox vacib əlamət odur ki, bundan sonra turizm sahəsində hazırlanan sənədlər, qəbul ediləcək qanunların məzmunu və ruhu bu sənədə uyğunlaşdırılacaq.

Yaxın vaxtlarda “Turizm haqqında” qanunun qəbul ediləcəyi gözlənilir. Həmin qanun layihəsində də turizm üçün bir sıra mühüm yeniliklər nəzərdə tutulub və həmin qanun da bu sənədin ruhuna uyğunlaşdırılacaq. “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”ndə 2025-ci ilə qədər Bakının dünyanın “Top-20” turizm şəhərlərindən birinə çevrilməsi hədəflənir. Sənəd Azərbaycana 3 saat və 3 saatdan az uçuş məsafəsində olan ölkələrlə turizm sahəsində əməkdaşlığın gücləndirilməsini, hava nəqliyyatı şəbəkəsinin genişləndirilməsini nəzərdə tutur. O cümlədən, həmin ölkələrdən turistlərin ölkəyə cəlb olunması üçün hədəf qrupların müəyyənləşdirilməsini və ona uyğun marketinq seqmentinin, təbliğat kampaniyalarının aparılmasını nəzərdə tutur.

## Qeyri-neft sektorunun inkişafında innovasiyaların rolu

*FƏRACOVA Gülstan Ərziman qızı*
*Sənayenin təşkili və idarəetmə kafedrasının magistrantı*

Son illər dünyada baş verən iqtisadi, siyasi təlatümlər dünya iqtisadiyyatının bir hissəsi olan Azərbaycan iqtisadiyyatına da təsirini göstərməkdədir. Bu da təbiidir, çünki son 20 ildə ölkəmiz açıq iqtisadiyyat modeli üzrə iqtisadi strukturlar formalaşdırmışdır. Hər bir modeldə olduğu kimi, açıq-bazar iqtisadiyyatının da çatışmayan cəhətlərindən biri dünyada baş verən ümumi problemlərin milli iqtisadiyyatlara təsiridir. Bu təsirlərdən daha az zərərlə çıxmağın ən doğru yollarından biri isə şaxələndirilmiş iqtisadiyyatın, azad sahibkarlıq fəaliyyətinin yaranmasıdır. Son illər ərzində Azərbaycanda dövlət tərəfindən həyata keçirilən tədbirlər nəticəsində qeyri-neft sektorunun inkişaf tempi xeyli yüksəlmiş, xüsusi çəkisi isə xeyli artmışdır.

Dünya bazarında neftin qiymətlərinin aşağı düşməsi, bununla bağlı ölkəyə valyuta daxilolmalarının azalması diqqətləri daha sürətlə qeyri-neft sektoruna yönəltmiş, bu sektorda daha effektiv idarəetməyə, gəlirlərin daha şəffaf əldə edilməsinə və gəlirlərin artırılmasına nail olmaq təxirəsalınmaz prioritet kimi önə çıxmışdır.

Azərbaycan Prezidenti Nazirlər Kabinetinin 10 yanvar 2016-cı ildə keçirilmiş 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyri-neft sektorunun və xüsusilə də innovativ iqtisadiyyatın inkişafı üçün çox mühüm məsələlərə toxunmuş və qarşıda duran vəzifələri müəyyən etmişdir.

Hazırda Azərbaycan iqtisadiyyatı qarşısında bir çox müasir çağırışlar var. Ölkə Prezidentinin iqtisadi və sosial məsələlərin həlli ilə bağlı keçirdiyi müşavirədə bu çağırışlar, onların yaranma səbəbləri və yeni iqtisadi inkişaf istiqamətləri dəqiq göstərildi. Dövlət başçısının təşəbbüsü ilə Milli Məclisə məhz bu məqsədlərlə iqtisadi qanun layihələri daxil olub və qəbul olunub. Parlamentdə qəbul olunan qanun layihələri dünyada hökm sürən iqtisadi böhrana baxmayaraq, ölkəmizin davamlı inkişafını təmin edəcək: "Milli Məclisin növbədənkənar iclasında qəbul olunan qanun layihələrinə əsasən, əhalinin banklara qoyduğu əmanətlər 3 il ərzində limitsiz olaraq tam sığortalanacaq. Yəni əmanətlər tam olaraq banklarda nə baş verməsindən asılı olmayaraq, dövlət tərəfindən qorunacaq. Fiziki şəxslərin banklara qoyduqları əmanətdən əldə etdikləri gəlirlər vergidən tam azad ediləcək. Yerli məhsul, iş və xidmət istehsalçıları dövlət satınalmaları tenderlərində eyni keyfiyyət və şərtlərlə xarici analoqlara qarşı qiymətdə 20 faiz güzəştə malik olacaq. Yəni, yerli istehsalçıların qiymətləri 20 faiz baha olduqda belə onlara üstünlük veriləcək. İnvestisiya fəaliyyəti həyata keçirən sahibkarlar 7 il müddətinə əmlak və torpaq vergisindən tam, mənfəət vergisindən 50 faiz azad olunacaq, idxal etdikləri texnika və texnologiyalar isə 50 faiz gömrük rüsumundan azad ediləcək.

Qeyri-neft sektorunun inkişafına ən çox birbaşa və dolayısı ilə təsir edən alətlər toplusundan biri İnformasiya Kommunikasiya Texnologiyalarıdır. Əslində müasir dünyada İKT çoxdan bir sektor olmaq sərhədlərini aşmış, bütün digər sektorlarda effektiv, daha sərfəli, cəld və şəffaf idarəetmə alətinə çevrilmişdir. Təbii ki, ölkə özü nə qədər bu alətlərdən istehsal edə bilirsə, o qədər də çox gəlir əldə edə bilir. Məsələn, Belarusun 2015-ci ildə tək proqram təminatının istehsalından və ixracından əldə etdiyi gəlir 900 milyon dollara çatmışdır.

Azərbaycanda da bu sahəyə dövlətin həmişə yüksək qayğısı olub. Prezident İlham Əliyevin 2003-cü ildə Beynəlxalq Telekommunikasiya İttifaqının Cenevrə sammitində elan etdiyi "qara qızılı insan kapitalına çevirəcəyəm" strategiyası, hətta, o zaman üçün çox

uğurlu bir seçim idi. 2013-cü ilin İKT ili elan olunması, Azərbaycanın süni peyklərinin kosmosa göndərilməsi dövlətin İKT-yə yüksək dəstəyinin göstəriciləridir.

Azərbaycanda təkcə son 5 ildə İKT sektoruna yatırılan investisiyaların həcmi 2 mlrd. dolları aşmışdır. 2014-cü ildə İKT sektorunun gəlirləri 1.6 mlrd. manat təşkil etmişdir. Dünya təcrübəsinə görə İKT sektoruna yatırılan investisiyaların geri qayıtma müddəti (Return on İnvestment — ROİ) 3 ildən 5 ilədəkdir. Bu təcrübəyə və İKT sektorunun spesifik gəlir mexanizminə əsaslansaq, növbəti illərdə İKT sektorunun gəlirləri 2 dəfəyə yaxın arta bilər. Bunun üçün ən azından lazımi investisiyalar artıq qoyulub. Ölkə Prezidentinin sərəncamı ilə bütün vergi və gömrük güzəştləri ilə əhatə olunmuş Yüksək Texnologiyalar parkı yaradılmışdır.

Bundan əlavə, İKT sektorunu inkişaf etdirməklə, Bilik İqtisadiyyatını formalaşdırmaqla iqtisadiyyatın digər sahələrini də dolayı yolla optimallaşdırmaq, idarəetməni effektivləşdirmək və əlavə gəlir əldə etmək mümkündür. Əslində, bu, müasir dünyada sınaqdan çıxmış ən effektiv yol sayılır.

Bəs bu sahənin inkişafı üçün daha hansı addımlara ehtiyac vardır? Əslində dünya təcrübəsi göstərir ki, İKT sektorunun inkişafı ilkin olaraq investiyadan daha çox "ideya və mühit"dən asılıdır. Bu gün dünyada dəyəri və gəlirləri milyardlarla dollar olan nəhəng İKT şirkətləri çox cüzi investiya ilə, amma ideyalar əsasında yaranmışdır. Ölkəmizdə də mühit formalaşsa da, ideya "cücərti"ləri kimi formalaşan "Startap"ların hərtərəfli dəstəklənməsinə ehtiyac vardır. Bu dəstək tək dövlət tərəfindən deyil, əsasən özəl sektor tərəfindən olmalıdır.

Vergi bazasını artırmaq, biznesi şəffaflaşdırmaq istiqamətində elektron ticarətin həcminin artırılması mühüm rol oynayır. Dünyanın bir çox ölkərində bu məqsədlə müddətli olaraq şirkətlərə vergi güzəştləri və digər güzəştlər təqdim edilir. Ölkəmizdə elektron ticarətin ümumi dövriyyədə payının 0,04 faiz olması çox böyük potensialın olmasını göstərir.

Bu gün Azərbaycan İKT məhsullarının demək olar ki, 90%-dən çoxunu idxal edir. Bir çox ölkələrin təcrübəsi göstərir ki, bu məhsulların bir çoxunu Azərbaycanda istehsal etmək mümkündür (modemlər, TV qutular, şəbəkə avadanlıqları, kabellər və s.) və bu məhsullara yerli bazarda, əhali arasında böyük tələbat vardır. Sahibkarlar tərəfindən istehsalın təşkili həm idxalı əvəz edə bilər, həm də ixrac etməklə ölkəyə valyuta gətirə bilər.

Ölkəmiz eyni zamanda böyük miqdarda valyuta ödənişləri hesabına xarici proqram məhsulları idxal etməkdədir. Bunların istehsalı üçün də ölkəmizdə yetərli sayda mütəxəssislər mövcuddur və ya yetişdirilə bilər. Bu həm də milli təhlükəsizlik baxımından çox vacibdir.

Hazırda dünyada 4-cü Sənaye İnqilabı (Fourth İndustrial Revolution) və ya Rəqəmli İnqilab (Digital Revolution) baş verməkdədir. Bu inqilab texnologiyaların gücündən istifadə etməklə, daha keyfiyyətli xidmətlərin yaranmasını, dünyanın hər yerindən ağıllı ideyaların yığılmasını, köhnəlmiş iş metodlarından imtinanı əhatə edir. Ancaq bu inqilabın "ürəyində" 2 əsas liberal ideya var: bu fərdi hüquqların artması və sosial hüquqların azalması ideyalarıdır.

Bu inqilab tamamilə yeni imkanlar yaradır: istehlakçılar üçün böyük seçim, yeni tip iş yerləri və s. Amma bu imkanlarla yanaşı, bu inqilabın məhv edəcəyi kifayət qədər ənənəvi sahələr var. Məsələn, texnologiyaların inkişafı yüklərin daşınmasında sürücüsüz nəqliyyatdan istifadəni gətirəcəkdir ki, bu da dünyada 100 minlərlə yük avtomobili sürücülərinin işsiz qalması demək olacaqdır. Və ya, artıq bir neçə ildir fəaliyyətə başlayan yüksək texnologiya şirkəti olan UBER texnologiyaları dünyanın 50-dən çox şəhərində 10 minlərlə taksi sürücülərinin işsiz qalmasına artıq səbəb olub.

Davosda Dünya İqtisadi Forumunda çıxış edən ABŞ-ın vitse-prezidenti Co Bayden etiraf edib ki, Rəqəmli İnqilab dünyada orta sinfi məhv edə bilər. Bu inqilab artıq baş verməkdədir. Bəs nə etməli? Dünyanın analitik iqtisadçılarının fikrincə, ilk öncə çevik, sürətli təkrar təhsil sistemi formalaşmalıdır. Bu sistem işlərini itirən və ya itirmək təhlükəsi ilə üzləşən orta sinfin çevik formada yenidən hazırlanmasını təmin edəcəkdir.

Dövlətin yolların çəkilməsi, körpülərin tikilməsi, internetin yayılması və s. kimi fundamental öhdəlikləri daim yerinə yetirilməli və buna investisiyalar daim qoyulmalıdır.

Gəlirlərin səviyyəsinə uyğun tam proqressiv vergitutma sistemi yaradılmalıdır. Rəqəmli inqilab sürətlə varlanmaq və sürətlə yoxsullaşmaq yoludur. Ona görə sosial ədaləti qorumaq üçün vergi dərəcələri arasında dramatik fərqlər olmalıdır. Kapitalın hərəkətinin qarşısını alacaq istənilən maneə aradan qaldırılmalıdır və insanların kapitala asan çıxışı təmin olunmalıdır.

Azərbaycanda görülən, planlaşdırılan layihələrə fikir verdikcə, bizim ölkəmizin də əslində artıq bir neçə ildir ki, Rəqəmli İnqilaba hazırlaşdığını görmək mümkündür. Dövlət üzərinə düşən fundamental öhdəlikləri yerinə yetirmək üçün bütün resursları səfərbər etməkdədir. Bütün bu addımların məntiqi nəticəsi isə Azərbaycanda innovativ iqtisadiyyatı qurmaq, ənənəvi əmək metodlarından müasir məhsuldarlığa keçmək, yeni texnologiyaların yeni iqtisadiyyatın "ürəyi" olmasını təmin etməkdir. Ölkə Prezidenti cənab İlham Əliyev Davosda Dünya İqtisadi Forumunda məhz bunlardan söz açaraq Azərbaycanın qarşısında duran müasir çağırışları elan etmişdir.

Qısaca desək, innovativ iqtisadiyyatın formalaşması üçün ölkədə dövlət tərəfindən əsasən lazımi şərait mövcuddur. Təbii ki, islahatlar və həvəsləndirici tədbirlər hər zaman tələb olunur və bu tədbirlər multiplikasiya effekti yaradır. Tək tələb olunan özəl sektorun yüksək təşəbbüskarlıq göstərməsi və ideyalarla çıxış etməsidir. İnnovativ sahibkarlığın inkişafına böyük zərurət vardır və bu fəaliyyət Azərbaycanda ən yüksək səviyyədə dəstəklənir.